Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 01 (6143) 9 yanvar 2026-cı il | Qiyməti 40 qəpik

# İlham Əliyev: "Azərbaycan dilini qorumaq hər birimizin vəzifəsidir"



”Əgər biz müstəmləkəçilik illərində dilimizi qoruya bilmişiksə və bizim əcdadlarımız onu bizə əmanət veriblərsə, necə ola bilər ki, biz bu gün dilimizi qorumayaq? Bəzən bilərəkdən, bəzən bilməyərəkdən dilimizə daxil olan xarici kəlmələr - onlar dilimizi zənginləşdirmir və o kəlmələri istifadə edənləri daha ağıllı etmir”.

Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində deyib.

”Çox dil bilmək yaxşıdır, mən də onun tərəfdarıyam. Amma sən xarici dillərdə lazım olan vaxtda danış, biz öz dilimizi qorumalıyıq. Xarici kəlmələr dilimizi pozur, zənginləşdirmir və milli kimliyimizi də sarsıdır, damcı-damcı, yavaş-yavaş. Bəlkə də özümüz heç buna fikir vermirik, damcı-damcı sarsıdır. Dil əldən gedəndən sonra, yaxud da ki, pozulandan sonra, ya da başqa dilə tamamilə uyğunlaşandan sonra onda milli kimlik də gedəcək, ondan sonra dövlətçilik də gedəcək, ondan sonra, Allah eləməsin, ölkəmiz də, necə deyərlər, böyük fəlakətlə üzləşə bilər. Ona görə Azərbaycan dilini qorumaq hər birimizin vəzifəsidir. Bunu mən tam əminliklə deyirəm və hamını bu mübarizəyə dəvət edirəm”, - deyə dövlətimizin başçısı bildirib.

## Vilayət Eyvazov Qubada vətəndaş qəbulu və sıra baxışı keçirib



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov yanvarın 5-də və 6-da Quba Rayon Polis Şöbəsində vətəndaş qəbulu keçirib.**

Bu barədə Adalet.az-a Daxili İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, Polis Şöbəsinin inzibati binasında Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayonlardan, eləcə də digər bölgələrdən qəbula gələn 276 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Nazir qəbula gələnlərin müraciətlərinin həlli istiqamətində zəruri addımların atılması və vətəndaş məmnunluğunun təmin olunması məqsədi ilə Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin mütləq əksəriyyəti yerindəcə öz həllini tapıb, digərləri nəzarətə götürülüb.

General-polkovnik Vilayət Eyvazov polis və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.

Vətən müharibəsinin 19 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 223 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

## *Ramazan ayı bu tarixdə başlayır*

**Fevralın 19-da Azərbaycanda Ramazan ayı başlayır. Adalet.az ”Report”a istinadən xəbər verir ki, martın 8-i, 10-u, 12-si və 16-sı Qədr gecələridir.**

Qeyd edək ki, Şəvval ayının 1-i və 2-si (martın 20-si və 21-i) Azərbaycanda Ramazan (Fitr) bayramı qeyd olunacaq.



**Mətbuatda və sosial şəbəkələrdə Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev hədəfə götürülüb. Deyəsən, belə getsə, tezliklə Qəzənfər Ağayev Astara Rayon İcra Hakimiyyəti başçısının maaşını ala bilməyəcək.**

## GECƏ SƏNİ ARVADININ YANINDAN GÖTÜRƏRƏM



**Azərbaycanda biri kimisə hədələyəndə özünün gücünü göstərmək üçün deyir: ”Gecə səni arvadının yanından götürərəm”.**

**Tramp bir az irəli getdi. Venesuelanın prezidenti Maduronu nəinki arvadının yanından götürdü, hətta arvadı ilə bir yerdə götürdü, Venesuela xalqının heç xəbəri də olmadı.**

## *SAMADURA*

**Rusiya televiziyalarında Venesuela prezidenti Nikolas Maduronun adını elə tələffüz edirdi ki, qulaq Nikolas Maduro deyil, Nikol Samadura kimi qəbul edirdi.**

## *DÖVLƏTİNİ SEVƏN MÜXALİFƏT BELƏ OLUR*



**Cümhuriyyət Xalq Partiyasının başkanı Özgür Özəl bütün həyatını cümhur başkanı Ərdoğanla mübarizəyə həsr edib. Yeri gəldi-gəlmədi bütün çıxışlarında AK Partinin və sayın Ərdoğanın həm xarici, həm də daxili siyasətini sərt tənqid edib.**

Bu günlərdə yunan mətbuatı sayın Ərdoğanı Venesuelanın prezidenti Maduro ilə müqayisə edərək süni intellekt vasitəsilə xoşagəlməz bir video paylaşıb.

Buna ilk və ən sərt təpgi verən sayın Özgür Özəl olub.

Bildirib ki, heç kimin Türkiyənin cümhur başkanı sayın Ərdoğanı aşağılamağa həddi çatmaz.

***Aqil ABBAS***
***aqilabbas@rambler.ru***

# SİZİN ZƏNG ETDİYİNİZ TELEFONU KÖKÜNDƏN ÇIXARIB ATIBLAR...



***Nömrəni yığıram: 0-822-5-55-77.***
***Cavab:***
***- Sizin aradığınız nömrə təyin edilməmişdir.***
***Ola bilməz axı. Təkrar yığıram.***
***Eyni cavab:***
***- Sizin aradığınız nömrə təyin edilməmişdir.***

***Vallah, ola bilməz. Axı bu mənim ev telefonumdur. Bu telefonla, bu nömrəylə azı min dəfə, iki min dəfə danışmışam. Bu telefona, bu nömrəyə azı min dəfə zəng etmişəm. Necə yəni təyin edilməmişdir? Axı mən elə bu nömrəyə zəng edib demişəm:***

***- Voyeniddən imtahanımdı, atama deyin yüz manat göndərməsə işlər uruscadı. Mən də urus dilin bilmirəm.***

**Bax:səh-2**

## QAÇ. OĞLAN! QAÇ, AT BASDI! MİLLƏT GƏLİR!

**Qonşu İranda nə it yiyəsini tanıyır, nə də yiyəsi itini. Ara qarışıb, məzhəb itib.**

Sabir yuxarıdakı şeiri ötən əsrin əvvəlində yazıb, amma heç nə dəyişməyib.



İranda at basıb, millət bir əsrdə tez-tez gəlib, amma hələ ki heç nə qazanmayıb. Qazananlar atın belində olub.

# Prezident Sərəncam imzaladı



**Azərbaycan diasporunun inkişafında xidmətlərinə görə bir qrup şəxs təltif edilib.**

Bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Sərəncama əsasən, xalqlar arasında dostluğun möhkəmləndirilməsi və Azərbaycan diasporunun inkişafı sahəsində xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə**

Novruzov Cahangir Mütəllib oğlu

**"Şöhrət" ordeni ilə**

Aşina Məsud Rüstəm oğlu

**"Dostluq" ordeni ilə**

Acar Ziya Zakir Musa oğlu

**"Tərəqqi" medalı ilə**

Alaferdov Akif Qədir oğlu
Kələntər Xəlil Əliməmməd oğlu
Kərimova Sevinc Kərim qızı
Pənahova Fəridə Fərhad qızı
Siracov Bəxtiyar Tahir oğlu
Zeynalova Xədicə Əbdülrəhim qızı.

## "Naxçıvanı Türkiyə ilə də birləşdirə biləcək dəmir yolu mütləq olmalıdır"

**Naxçıvanı Türkiyə ilə də birləşdirə biləcək dəmir yolu mütləq olmalıdır və bütün bu layihələr təbii ki, koordinasiya şəklində aparılmalıdır.**

Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində bildirib.

Azərbaycanda bütün yolların daha tez həll oluna biləcəyini vurğulayan dövlətimizin başçısı ölkəmizin ərazisində Zəngəzur dəhlizi ilə bağlı artıq heç bir problemin qalmadığını qeyd edib. Azərbaycanın təşəbbüsü ilə Ağbənd qəsəbəsində Arazın üzərindən körpünün də inşa edildiyini deyən Prezident İlham Əliyev bildirib: "Hazırda Azərbaycanın əsas hissəsindən Naxçıvana getmək üçün Biləsuvardan uzun yol qət edilməlidir. İndi isə İran ərazisindən Naxçıvana cəmi 45-50 kilometr gediş olacaq. Beləliklə, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında iki bağlantı olacaq, biri Ermənistan üzərindən, biri isə İran üzərindən. Biz faktiki olaraq, Naxçıvanı, Şərqi Zəngəzuru və Qarabağı bir bölgə kimi birləşdirəcəyik.

## Azərbaycan qlobal səviyyədə ən təhlükəsiz məkanlardan biri hesab edilə bilər

**Azərbaycan qlobal səviyyədə ən təhlükəsiz məkanlardan biri hesab edilə bilər.**

Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində deyib.

Azərbaycanı turistlər üçün cəlb edən meyarlardan söz açan dövlətimizin başçısı, həmçinin qeyd edib ki, iki aydan sonra Şahdağda ilk dəfə Xizəksürmə üzrə dünya çempionatı olacaq. "Dünya çempionatı Şahdağda ilk dəfə keçiriləcək. Ölkəmiz Beynəlxalq Xizək Federasiyasının təqviminə artıq daxil edilib. Azərbaycan cənub ölkəsidir. Çimərliklər buradan uzaqda deyil. Öz həcminə, miqyasına və gözəlliyinə görə nadir olan "Sea Breeze" böyük tikinti layihəsi həyata keçirilir. Dünyanın heç bir yerində buna oxşar layihə yoxdur. Bir məkanda həm mehmanxana, həm əyləncə, həm yaşayış yerləri və digər imkanlar mövcuddur", - deyə Prezident əlavə edib.

## *Hikmət Hacıyev:*
## Biz Tramp administrasiyasının tam dəstəyinə malikik

**Tramp administrasiyası Azərbaycanın sülh gündəliyinə sadiqlik nümayiş etdirib.**

Adalet.az-ın məlumatına görə, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "The Washington Times" qəzetinə deyib.

Nəşrin Azərbaycanla Ermənistan arasında sülh quruculuğu işlərinə, ABŞ Konqresində 907-ci düzəlişin ləğvinə doğru atılan addımlara, rəsmi Bakının Rusiya ilə münasibətlərinə, Azərbaycan İsrail əlaqələrinə həsr edilən yazıda H.Hacıyevə istinadən ABŞ prezidentinin bu sülh gündəliyinə dərhal qarşılıq verməsi qiymətləndirilməli məqam kimi qeyd olunub.

Bununla belə H.Hacıyev 907-ci düzəlişin mövcudluğunun sülhə qarşı işlədiyini deyib: "Hər iki hökumət - Azərbaycan və Ermənistan - sülhü möhkəmləndirmək üçün gərgin iş aparırlar. Lakin Konqresdə bəziləri tamamilə lazımsız və ayrı-seçkilik toxumları olan qanunvericilik aktları təqdim edirlər".



H.Hacıyev Bayden-Blinken administrasiyasının Azərbaycan-ABŞ münasibətlərinə zərbə vurduğunu da bəyan edib. O qeyd edib ki, Donald Trampın dövründə istiləşən ABŞ-Azərbaycan münasibətləri əvvəlki administrasiyanın yanaşması ilə kəskin təzad təşkil edir:

"Bayden və Blinken administrasiyası ilə təəssüf ki, çoxlu anlaşılmazlıqlar var idi və onlar münasibətlərə çox ziyan vurdular".

O xatırladıb ki, Bayden administrasiyası Əfqanıstan missiyası bitdikdən dərhal sonra 907-ci maddə məhdudiyyətlərini yenidən tətbiq edib.

H.Hacıyev Tramp administrasiyası ilə pozitiv əməkdaşlıq nümunəsi kimi onun birinci prezidentliyi dövründə administrasiyanın Cənub Qaz Dəhlizi layihəsi vasitəsilə Xəzər qazının Avropa bazarına çatdırılmasında həlledici rol oynadığını xatırladıb.

Azərbaycanın Ermənistanla iqtisadi münasibətlər qurma cəhdlərinə toxunan H.Hacıyev bu ölkəyə neft məhsullarının ixracını, Ermənistan bazarlarına taxıl tranzitinə yaradılan şəraiti qeyd edib.

"Bu simvolik görünə bilər, lakin simvolizmlə yanaşı həqiqətən də mühüm geosiyasi çalarlar var. Biz sülhü təkcə Ermənistan hökuməti ilə deyil, həm də Ermənistan xalqı ilə qururuq", - H.Hacıyev bildirib.

Azərbaycanın dini baxımdan tolerantlıq məkanı olduğunu vurğulayan Prezidentin köməkçisi ölkənin qeyri-sabit regionda Qərblə əməkdaşlıq üçün təbii tərəfdaş olduğunu bəyan edib:

"Bizdə yəhudi, xristian və müsəlman icmaları əsrlərdir ki, yanaşı yaşayırlar. Bu bizim ənənəmiz, kimliyimizdir. Bizim sülh gündəliyimiz üçün daha güclü qətiyyətimiz var və biz Tramp administrasiyasının tam dəstəyinə malikik".

## Gələn həftə deputatların tətili başa çatır

**Gələn həftə Azərbaycan Milli Məclisinin deputatlarının tətili başa çatır.**

Adalet.az xəbər verir ki, Milli Məclisin Daxili Nizamnaməsinə əsasən, qanunverici orqanının üzvlərinin tətili yanvarın 1-dən 15-dək davam edəcək.

Parlamentin komitə iclaslarının keçirilməsinə bu tarixdən başlanılacaq.

Qeyd edək ki, səlahiyyəti dövründə Milli Məclis ildə iki dəfə - iyul ayının 15-dən avqust ayının 30-dək və yanvar ayının 1-dən 15-dək tətilə buraxılır.

Tətil dövründə Milli Məclisin deputatları məzuniyyətdə sayılır. Tətil dövründə Milli Məclisin növbədənkənar sessiyası çağırıldıqda Milli Məclisin tətili növbədənkənar sessiyanın keçirildiyi müddətə dayandırılır və deputatlar həmin müddətə məzuniyyətdən geri çağırılırlar.

Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq Milli Məclis hər il yaz və payız sessiyalarına yığılır. Yaz sessiyası fevralın 1-də başlanır və mayın 31-dək davam edir. Payız sessiyası sentyabrın 30-da başlanır və dekabrın 30-dək davam edir.

Fevralın 1-i və sentyabrın 30-u istirahət, səsvermə, iş günü hesab edilməyən bayram gününə düşərsə, sessiya bu gündən sonra gələn birinci iş günü öz işinə başlayır. Bu il fevralın 1-i bazar gününə düşdüyündən plenar iclas fevralın 2-də keçiriləcək.

*Aqil ABBAS*

## SİZİN ZƏNG ETDİYİNİZ TELEFONU KÖKÜNDƏN ÇIXARIB ATIBLAR...

*Nömrəni yığıram: 0-822-5-55-77.*
*Cavab:*
*- Sizin aradığınız nömrə təyin edilməmişdir.*
*Ola bilməz axı. Təkrar yığıram.*
*Eyni cavab:*
*- Sizin aradığınız nömrə təyin edilməmişdir.*

*Vallah, ola bilməz. Axı bu mənim ev telefonumdur. Bu telefonla, bu nömrəylə azı min dəfə, iki min dəfə danışmışam. Bu telefona, bu nömrəyə azı min dəfə zəng etmişəm. Necə yəni təyin edilməmişdir? Axı mən elə bu nömrəyə zəng edib demişəm:*

*- Voyeniddən imtahanımdı, atama deyin yüz manat göndərməsə işlər uruscadı. Mən də urus dilin bilmirəm.*

*Elə bu nömrəyə zəng edib demişəm:*
*- Dalaşmışam, məni məktəbdən qovurlar. Kişi özün çatdırsın.*
*Elə bu nömrəyə zəng edib demişəm:*
*- Şahmar Əkbərzadə deyir, atam gəlsin, getsinlər Məmməd Arazgilə.*
*Elə bu nömrəyə zəng edib demişəm:*
*- Könül avariyaya düşüb, gətirirəm, mağar qurun.*
*Bu nömrəyə mənə zəng edib deyiblər:*
*- Anan öldü, gəl.*

*Bəs indi necə olur ki, min dəfə, iki min dəfə zəng elədiyim telefon nömrəsi təyin olunmamış olur.*

*Bir də yığıram. Bir də həmin cavabı eşidirəm:*
*- Sizin aradığınız nömrə təyin edilməmişdir.*
*Heç olmasa desəydi ki:*
*- Sizin aradığınız nömrə şəbəkə xidməti xaricindədi, xahiş edirik bir azdan zəng edəsiniz.*

*Onda həm inandırıcı olardı, həm də bir ürəyim açılardı.*

*Ola bilsin "bir az" lap bir il də çəkə bilər, iki il də çəkə bilər, üç il də. Eybi yox. Amma əvvəl-axır bu "bir az"ın vaxtı qurtarır da.*

*Düzdür, nə qədər ki, ölkədə iqtidar-müxalifət davası gedir, nə qədər ki, iqtidarın içində bir dava, müxalifətin içində bir dava gedir, nə qədər ki, bir balaca ölkədə 70-dən yuxarı partiya millətin başını qarışdırır, 70-dən yuxarı partiya hakimiyyət üstündə bir-birini qırır, bu "bir az" bir az da çox çəkə bilər.*

*Ay başınıza dönüm, ay sizə qurban olum, ay başıma dönəsiniz, ay qurbanım olasınız, axı mən evimizə zəng etmək istəyirəm.*

*Yenə nömrəni yığıram, yenə eyni cavab. Heç bir möcüzə baş verməyəcək.*

*Nə qədər ki, bu ölkə bu gündədi, nə qədər ki, bu ölkənin iqtidarı elə, müxalifəti belədi, nə qədər ki, bu ölkədə hakimiyyət, kreslo, pul davası gedir, nə qədər ki, bu ölkədə milləti bir, beş, səkkiz, doxsan doqquz yerə bölürlər, nə qədər ki, bu ölkədə hətta eyni səngərdə düşmənlə vuruşan və şikəst olan insanları da iki yerə bölürlər, eyni cavabı alacam.*

*Özü də bu cavabı təkcə mən almayacam. Yüz min adam alacaq. Və bu eyni cavabı alan yüz min, yüz əlli min ailənin başçısı da niyə evinə zəng edə bilmədiyi barədə düşünməyəcək. Evinə-eşiyinə getmək haqqında düşünməyəcək, oturub hansısa xeyriyyə təşkilatından 2 kilo un, kiloyarım pesok, 750 qram yağ, 4 dənə də şirniquş gözləyəcək, elə mənim aldığım cavabı alacaq.*

*Yenə yığıram nömrəni, deyəsən mənə cavab verən də artıq hövsələdən çıxır, bu dəfə deyir:*
*- Ay yazıq, sənin zəng elədiyin telefonu kökündən çıxarıb atıblar.*
*Çox böyük hörmət eləyir. Belə də deyə bilərdi:*
*- Ay..., sənin zəng elədiyin telefonu kökündən çıxarıb atıblar.*

*Dəfələrlə zəng elədiyim və eyni cavabı aldığım, 0-822-5-55-77 mənim Ağdamdakı evimin telefon nömrəsidir.*

*Görəsən başqa bir ağdamlı, kəlbəcərli, laçınlı, şuşalı, qubadlılı, zəngilanlı, füzulili, cəbrayıllı, xankəndili, əsgəranlı, ağdərəli, hadrutlu, xocavəndli, martunili mənim kimi axmaqlıq edib heç olmasa bircə dəfə evlərinə zəng edibmi?*

*Yazını yazanda Ağdamdan bir dostum kompüter otağına girdi. Dedim:*
*- Bizim telefon cavab vermir, sizin nömrə neçədi, zəng eləyək.*
*Tutuldu. Bir alnını ovuşdurdu, sonra da dilxor-dilxor dedi:*
*- Evimizin telefon nömrəsi yadımdan çıxıb.*

*Nömrəmiz də yadımızdan çıxıb, evimiz də, torpağımız da, sabah adımız da yadımızdan çıxacaq. Bəs, yadımızda nə qalacaq? Alı bəyinki!?*

*1998*

***P.S.*** *İl 2020. Noyabr ayının sonu. Telefonumuzu çıxarıb atanların özlərini Ali Baş Komandan, Cənab Prezident İlham Əliyevin sərkərdəliyi ilə şəhid və qazilərimiz çıxarıb torpaqlarımızdan atdılar bayıra. Və mən Ağdamda, öz həyətimizdən dadının qaçıb-qaçmadığını öyrənmək üçün bir çimdik torpaq götürüb yeyəndən sonra gördüm torpağımızın dadını qaçıra bilməyiblər. Zəng etdim evimizə və dedim:*
*- Xanım, həyətimizdəyəm.*

*Mən o vaxt yuxarıdakı yazını yazanda ağlaya-ağlaya yazmışdım, həyətimizdən zəng edəndə də ağladım. Amma sevincdən ağladım. İndi Qarabağda bütün telefonlar işləyir. Laçının, Kəlbəcərin ən ucqar kəndlərində belə.*

# “Qarabağ və Şərqi Zəngəzurun ölkənin iqtisadi zəncirinə tam inteqrasiyası...”

**”Müsahibə zamanı Prezident İlham Əliyevə media nümayəndələri tərəfindən ünvanlanan 20-dən çox sualın sayca çoxluğu və mövzu dairəsinin genişliyi müsahibədə oxşar iqtisadi sahələrə bir neçə dəfə müxtəlif baxış bucaqlarından qayıtmağı zəruri etmişdir. Bir çox suallar da məzmun etibarilə bir-birinə yaxın olduğundan eyni mövzulara yeni rakursdan yanaşmalar təqdim olundu. Məhz bu səbəbdən verilən cavablar mövzuların dərinləşdirilməsi məntiqi ilə qurulmuşdu və hər cavab əvvəlki fikri tamamlayan halqa rolunu oynayırdı. Buna görə də müsahibədən 50-dən çox, bəlkə də 100-ə yaxın tezis alınar”.**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

O, bildirib ki, lakin müsahibənin ümumi məzmununu cəmiyyət üçün daha sistemli göstərmək məqsədilə verilən fikirləri əsas iqtisadi istiqamətlər üzrə ardıcıl düzmək olar:

”Hesab edirəm ki, aşağıdakı qruplaşdırma müsahibənin iqtisadi yönünü daha dəqiq və daha anlaşılan formada görünən edər. Birincisi, Azərbaycan sülh şəraitinə keçidin iqtisadi bəhrəsini artıq ilk aylardan hiss etməyə başlayıb. Müharibədən sonra sabitlik investisiya üçün əsas şərtə çevrilmiş, iqtisadi proqramların daha inamlı icrasına yol açmışdır. Prezident xüsusilə vurğuladı ki, güclü dövlət anlayışı indi təhlükəsizliklə yanaşı səmərəli idarəçiliklə ölçülür və bu tezis gələcək iqtisadi modelin fəlsəfəsini formalaşdırır.

İkincisi, ABŞ ilə münasibətlərin yeni mərhələsi ölkəyə real iqtisadiyyat üzərində qurulan geniş imkanlar gətirir.



907-ci düzəlişin aradan qaldırılması ticarət və nəqliyyat əlaqələrinin qarşısındakı simvolik səddi götürmüş, strateji işçi qrupunun yaradılması isə qarşılıqlı sərmayə və ticarətin institusional çərçivəsini möhkəmləndirmişdir.

Üçüncüsü, Çinlə imzalanmış hərtərəfli strateji tərəfdaşlıq Azərbaycanın qeyri-neft sektorunun şaxələnməsinə ciddi təkan verir. Tranzit, Orta Dəhliz, Günəş və külək stansiyalarının tikintisi, elektrik nəqliyyat vasitələrinin yığılması və gələcəkdə lokallaşdırmanın artırılması yeni sənaye zəncirinin əsas halqaları kimi təqdim olundu.

Dördüncüsü, bərpaolunan enerji Azərbaycanın gələcək istehlak və ixrac balansında aparıcı dayaqlardan biri olacaq. Prezidentin səsləndirdiyi 2030-cu ilə qədər 6000 meqavat, 2032-ci ilə qədər 8000 meqavat yaşıl güc hədəfi qaz istehlakına qənaət, əlavə qazın ixracı və data mərkəzlərinin enerji təminatı baxımından strateji əhəmiyyət daşıyır.

Beşincisi, regional nəqliyyat infrastrukturunun genişləndirilməsi həm mobillik, həm də tranzit gəlirləri üçün yeni mənbə yaradır. Limanlar, dəmir yolları, metro stansiyaları və mikromobillik həlləri vaxt itkisini azaldacaq və ticarətin coğrafiyasını böyüdəcək.

Altıncısı, sosial siyasətin iqtisadi islahatlarla tarazlaşdırılması əsas şərt kimi ortaya qoyuldu.

Minimum əməkhaqqının ilkin baza üzərində davamlı artması, özünüməşğulluq proqramlarının 100 mindən çox insanı əhatə etməsi əmək bazarında daha sağlam struktur yaradır.

Yeddincisi, müdafiə sənayesinə özəl sektorun cəlb edilməsi dövlətin maliyyə yükünü azaltmaqla bərabər ixrac üçün alternativ valyuta mənbəyi formalaşdırır. 15 şirkətə lisenziya, 1 milyard manatlıq sərmayənin yarısının özəl sektor tərəfindən qoyulması bu sahənin iqtisadi məntiqlə inkişaf etdiyini göstərir.

Səkkizincisi, Qarabağ və Şərqi Zəngəzurun ölkənin iqtisadi zəncirinə tam inteqrasiyası enerji, su və yol layihələri üzərində qurulur. Dairəvi enerji sisteminin yaradılması, yeni kanallar və tunellər insanların orada yaşayıb işləməsini real edir.

Doqquzuncusu, gələcək borclanma siyasətində praqmatik çərçivə saxlanılır. Xarici borcun ÜDM-in təxminən 6 faizi səviyyəsində olması və ehtiyatların onu 16-17 dəfə üstələməsi maliyyə dayanıqlılığının əsas göstəricisi kimi qeyd olundu.

Onuncusu, qeyri-neft sektorunun artım potensialı ayrıca proqram tələb edir. Neft hasilatının təbii azalması fonunda müxtəlif mexanizmlər hesabına daha yüksək dinamikanın mümkünlüyü mesajı verildi.

Beləliklə, cənab Prezidentin müsahibəsinin iqtisadi yönündə Azərbaycanın etibarlı körpü rolunu daha da möhkəmləndirməsi durur. Bu körpü ölkənin sabit inkişafını, sərmayə cəlbini və sosial rifahı vahid məntiqdə birləşdirməyi hədəfləyir və yeni gözləntilərin yol xəritəsini cızır. Bu xəritənin memarı isə əlbəttə ki, güclü iradəyə malik olan Azərbaycan dövlətidir”.

**Vasif ƏLİHÜSEYN**

# 13 gün qeyri-iş günü olacaq

**2026-cı ilin martında Azərbaycanda rəsmi bayramlar və istirahət günləri ilə əlaqədar 13 qeyri-iş günü nəzərdə tutulur.**

Adalet.az xəbər verir ki, martın 8-i Beynəlxalq Qadınlar Günü bazar gününə təsadüf etdiyindən 9 mart da qeyri-iş günü hesab olunacaq.

Bundan əlavə, Novruz bayramı və Ramazan bayramı ilə əlaqədar mart ayında uzunmüddətli istirahət günləri olacaq.



Əmək Məcəlləsinin tələblərinə əsasən, bayram günlərinin şənbə və bazar günlərinə təsadüf etməsi ilə əlaqədar əlavə istirahət günləri də müəyyən edilib.

Belə ki, 20, 21, 22, 23 və 24 mart Novruz bayramı günləri kimi qeyri-iş günü hesab olunur. 21 və 22 mart tarixləri müvafiq olaraq şənbə və bazar gününə təsadüf etdiyindən 25 və 26 mart tarixləri də qeyri-iş günü hesab olunacaq. Ramazan bayramının 20 və 21 mart tarixlərində Novruz günləri ilə üst-üstə düşməsi nəticəsində 27 və 30 mart tarixləri də qeyri-iş günü sayılacaq.

28 və 29 mart tarixləri də müvafiq olaraq həftənin şənbə və bazar gününə təsadüf edəcək.

Nəticədə 25, 26, 27 və 30 mart tarixləri də qeyri-iş günü olacaq.

**Beləliklə, 20 martdan 30 martadək (hər iki gün daxil olmaqla) ölkədə ardıcıl 11 gün qeyri-iş günü olacaq. Ümumilikdə isə 2026-cı ilin martında 13 qeyri-iş günü qeydə alınacaq.**

# «Qızıl ehtiyatların həcminə görə Azərbaycan dünyada ilk iyyirmi beşlikdə qərarlaşıb...»

**”Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində ötən il qızıl ehtiyatlarının artırılması ilə bağlı strateji qərar qəbul olunduğunu bildirib”.**

Adalet.az xəbər verir ki, bunu millət vəkili Vüqar Bayramov deyib.

O, bildirib ki, dövlət aktivlərinin artmasında Dövlət Neft Fondunun investisiya istiqamətlərinin şaxələndirilməsi xüsusi rol oynayır:

”Son illər qızıla sərmayə qoyuluşunu artıran Neft Fodunun qızıl portfeli 185 tona çatıb. Fondun investisiya portfelində isə yenə də ABŞ dolları üstünlük təşkil edir. Portfelin 68 faizi dollarda saxlanılır. Dollar portfelinin 22 milyard 982 milyon dollarlıq hissəsini, yəni 32,8 faizini qızıl investisiyaları təşkil edir. Göründüyü kimi, Azərbaycan qızıl ehtiyatlarını kəskin artıran dövlətlərdəndir. Qızılın bahalaşması fonunda isə bu dövlət ehtiyatlarının daha da artması müşahidə edilməkdədir”.

Onun sözlərinə görə, son 1 ildə dünya bazarında qızılın qiyməti 1.7 dəfə artıb:



”Yarım illik yekunlarında isə artım 1.2 dəfə çatıb. Son 1 ayda isə qızıl 35 faiz bahalaşıb. Hazırda qızılın 1 qramının qiyməti 144 dollardır.”Trade Economics” təşkilatının qiymətləndirilmələrinə əsasən, qızıl ehtiyatların həcminə görə Azərbaycan dünyada ilk iyyirmi beşlikdə qərarlaşıb.

Ehtiyatların həcminə görə isə ABŞ 8,133 min tonla dünyada birincidir.

İlk üçlüyü isə Almaniya (3,350 min ton) və İtaliya (2,452 min ton) tamamlayır. Göründüyü kimi, Azərbaycanın çevik sərmayə siyasəti valyuta ehtiyatlarımızın daha da artmasına səbəb olub. Bu isə, iqtisadiyyatın dayanıqlığı və fiskal xərclərin fasiləsiz təminatı baxımdan da vacibdir”.

**Sübhan**

*Rüstəm Hacıyev*



# "Növbəti hədəf Qrelandiyadır"

***The New Times* qəzeti, Venesuelanın yüksək çinli məmuruna istinadən verdiyi xəbərə görə, ABŞ-ın Venesuelaya hücumu və prezident Nikolasın həbsi nəticəsində 80-ə yaxın hərbiçi və mülki vətəndan həlak olub.**

***”Mütləq qətiyyət” (Absalyute Resolve) kod adlı əməliyyat zamanın amerikan hərbiçilərindən bir neçə nəfər yaralanıb, həlak olan yoxdur.***

***”ABŞ hərbiçiləri arasında həlak olan yoxdur”-deyə ABŞ prezidenti Donald Tramp, Mar-a-Laqodakı rezidensitasından əməliyyatın gedişini izləyərkən bəyan edib.***

***Pentaqonun Qərərgah rəisləri komitəsinin rəhbəri, general Den Keynin bildirdiyinə gprə, 2 saat 20 dəqiqə davam edən əməliyyat zamanı Venesuela prezidenti Nikolas Maduro, qalın metal qapı arxasındakı bunkerdə gizlənməyə cəhd edib, lakin amerikan xüsusi təyinatlıları ona qaçıb gizlınməyə imkan verməyiblər. Vaşinqtondan bildirilən məlumatda qeyd olunur ki, yerli vaxtla səhər saat 4 radələrində başlayan hücum zamanı Maduro öz yatağında yaxalanıb.***

***ABŞ-ın Döpvlət katibi Marko Rubio bildirib ki, hücum zamanı Maduronun kubalılardan ibarət şəxsi mühavizəçilərinin əksəriyyəti məhv edilib.***

***Karakasda prezident Nikolas Maduronun tutulması əməliyyatından sonra, ”ihama” gələn ABŞ prezudenti Donald Tramp bəyan edib ki, adanın ətrafı Rusiya və Çin hərbi gəmiləri ilə əhatə olunub. Ona görə də, Birləşmiş Ştatların müdafiəsinin gücləndirilməsi üçün ”bizə mütləq Qrelandiya lazımdır. O bizə müdafiəni gücləndirmək üçün lazımdır”- deyə bəyan edərək, açıq şəkildə növbəti hədəfini açıqlayıb.***

***Tramp Qrelandiyanı zəbt etmək üçün, ABŞ hərbi qüvvələrinin yaxın vaxtlarda adanın ətrafına yerləşdirə biləcəyini istisna etməyib.***

***Görünən odur ki, BMT və s. kimi yekə-yekə beynəlxalq haqq-ədalət, beynəlxalq hüquq institutları, sadəcə olaraq hegemon dövlətlərə, kiçik dövlətlərə təyziq vasitəsindən başqa bir işə yaramırlar....***

# *“ABŞ-nin Venesuelaya hücumu Putinin maraqlarına cavab verir...”*



**”ABŞ prezidenti Donald Tramp Vladimir Putini ona görə dəstəkləyir ki, eyni siyasi düşüncəyə malikdir. Putinin Ukraynaya qarşı işğalına bir növ dəstək verir. Trampın Venezuela qarşı hərbi əməliyyatlara əmr verdiyi və paytaxtın bombalanması xəbərləri gəlir.**

Tramp və Putin Ankoricdə razılaşma əldə edib. Putin dəfələrlə Ankoricdə razılaşma əldə edildiyini vurğulayır. Həmin görüşdə Donbasın Rusiya tam verilməsi və digər işğal olunmuş ərazilərin ABŞ tərəfindən Rusiya ərazisi kimi tanınması razılaşdırılıb”.

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

On sözlərinə görə, Putin Ukraynada ”xüsusi əməliyyat” adı altında işğal müharibəsi aparır:

”Tramp da Venezuela da ”narkokartellere qarşı” əməliyyat adı ilə bir ölkəni işğal edir.

Baş verənlər V. Putinin maraqlarına xidmət edir. Özünü sülh adamı elan edən D. Trampın bir ölkənin suverenliyinə qarşı hərbi əməliyyatlar keçirir.

Azərbaycan və Ermənistanın adını düzgün tələffüz etməyən, xəritədə bu ölkələrin harada olduğunu bilməyən D. Tramp deyir ki, müharibəni mən bitirdim. D. Trampın hansı müharibəni bitirdiyini axtarıb tapa bilmirəm.

Venezuela hücum birbaşa Rusiya və Çinin geosiyasi maraqlarını artıracaq. ABŞ yaxın tarixdə Əfqanıstan və İraqa hərbi müdaxiləsi bu ölkələrə sülh gətirmədi. Venezuelaya da hücum ABŞ üçün uğurlu olmayacaq”.

**Vasif**



*Səxavət Məmməd*

# ABŞ-nin Venesuela əməliyyatı...

**ABŞ aylardır Venesuelada hərbi əməliyyat keçirmək üçün hazırlıqlar görürdü. Puerto-Rikodakı hərbi bazaya əlavə qüvvələr cəlb edildi, Karib dənizinə aviadaşıyıcı gəmilər gətirildi, Venesuela ətrafına F-35 qırıcıları və ən müasir dronlar yerləşdirildi. Orduların dislokasiya yerindən başqa əraziyə köçürülməsi kifayət qədər böyük xərc tələb edən prosesdir. Əgər ABŞ kimi bir dövlət bu qədər xərci gözə alırdısa, bu o demək idi ki, mütləq şəkildə ya hərbi müdaxilə baş tutacaq, ya da Nikolas Maduro ABŞ-nin tələblərini qəbul edəcəkdi.**

**Bu proses Rusiya-Ukrayna müharibəsinin başlamasına və Azərbaycanın Qarabağda keçirdiyi antiterror əməliyyatına bənzəyir. Rusiya da 150 minlik qoşunu Ukrayna sərhədinə yığmışdı; tələblər aydın idi: ya Moskvanın şərtləri qəbul olunmalı, ya da müharibə başlamalı idi. Ukrayna tərəfi şərtləri qəbul etmədi və nəticədə toqquşma qaçılmaz oldu. Azərbaycan da antiterror əməliyyatından əvvəl qoşunları Qarabağ ətrafında cəmləşdirərək separtaçı rejimin qeyri-qanuni silahlılarını tam və ağır mühasirəyə alaraq, tələblərini irəli sürdü. Qarabağdakı erməni separatçıları müqaviməti üstün tutduqları üçün əməliyyata start verildi. Əməliyyatın əsas hissəsi 24 saat tamam olmadan bitdi, qalıq qüvvələr isə zamanla zərərsizləşdirildi.**



**ABŞ tərəfi rəsmi olaraq bəyan etdi ki, Venesueladakı hərbi əməliyyata 150 hərbi təyyarə cəlb olunub. Bu rəqəm onu deməyə əsas verir ki, Vaşinqtonun məqsədi Venesuela ilə genişmiqyaslı müharibə etmək deyil, konkret olaraq Maduronu götürmək olub. Müqayisə üçün: İsrail İrana hücum edən zaman ilk gün 300 hərbi təyyarədən istifadə etmişdi. Məqsəd fərqli olanda, miqyas və nəticələr də fərqli olur.**

**Venesuela hərbi baxımdan zəif ölkə deyil. O, Cənubi Amerikanın ən güclü hərbi arsenalına malik dövlətlərindən biri hesab olunur. Xüsusilə Rusiya və Çin ilə sıx hərbi əməkdaşlıq sayəsində ölkənin müdafiə sistemi modernləşdirilib. Venesuelanın 120 min aktiv hərbçisi, 100 min ehtiyat qüvvəsi və 200 mindən çox milli qvardiyası (milis) var. Bundan əlavə, ölkə asimmetrik müharibəni və geniş mülki səfərbərliyi nəzərdə tutan "İnteqral Müdafiə" doktrinasına keçib.**

**Hərbi texnika və tankları bir kənara qoyaq. Əsas məqam ABŞ-nin 150 təyyarə ilə müdaxilə edib heç bir itki verməməsidir ki, bu da Venesuelanın Hava Hücumundan Müdafiə (HHM) sistemlərinin vəziyyətini sual altına qoyur. Venesuela regionun ən qabaqcıl və çoxpilləli HHM şəbəkəsinə malikdir. Bu şəbəkəyə S-300VM (Antey-2500) (3-5 batareya), Buk-M2E, S-125 Pechora-2M, Tor-M1 kompleksləri və 5000-dən çox Igla-S (SA-24) çiyinüstü raketləri daxildir.**

**Fərz edək ki, Rusiya və ABŞ anlaşıb və S-300, Buk kimi ağır sistemlər "söndürülüb". Bəs "Igla"lardan niyə istifadə edilmədi? Düşünək ki, bəzi yüksək rütbəli generallar Maduronu satıb. Amma 120 minlik aktiv ordunun hamısımı xəyanət etdi? Onların içindən bir nəfər də çıxıb "Igla" ilə bir helikopter vura bilmədi? Venesuelanın HHM sistemləri imkan verirdi ki, ABŞ qüvvələrinə ciddi müqavimət göstərsin.**

**Ona görə də bu əməliyyatın özündən çox, pərdəarxası mənim üçün daha maraqlıdır. Hesab edirəm ki, ABŞ əməliyyata qədər məsələni artıq həll etmişdi: əvvəlcə iqtisadi, sonra siyasi blokada tətbiq edildi, sonda isə Maduro götürüldü. Dünən "YouTube" kanalımda da qeyd etdiyim kimi, ABŞ üçün əsas məsələ neftdir. Bəziləri buna skeptik yanaşsa da, Trampın açıqlamaları göstərdi ki, neft məsələsi Madurodan daha önəmlidir. Bununla belə, ABŞ-nin bu əməliyyatını Rusiya-Ukrayna müharibəsi ilə müqayisə etmək bir qədər qüsurludur. Çünki birində məqsəd ölkəni və əhalini tabe etməkdirsə, digərində məqsəd hakimiyyəti dəyişib strateji resurslara (neftə) yiyələnmək idi.**

**ABŞ-nin Venesuela əməliyyatı Azərbaycan üçün də ciddi bir siqnal olmalıdır. Dəniz sahilində yerləşən paytaxt hər zaman təhlükə altındadır. Misal üçün Karakas. Hesab edirəm ki, Azərbaycan paytaxtın dəniz sahilindən köçürülməsi barədə ciddi düşünməlidir. Bir dəfə də yazmışdım: Azərbaycan dövlətinin idarəetmə mərkəzi cəmi bir neçə hektarın içində yerləşir. Prezident Administrasiyası, Müdafiə Nazirliyi, DTX, Milli Məclis, Dövlət Televiziyası, DİN - dövlətin onurğa sütunu sayılan bu qurumlar bir-birinə həddindən artıq yaxın yerləşir. Bu isə strateji təhlükəsizlik baxımından risklidir.**

# Azərbaycanda icra hakimiyyətləri ləğv olunacaq?

**"Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bildirib ki, Qarabağda və Şərqi Zəngəzurda tətbiq olunan idarəetmə modeli bir gün ölkənin müxtəlif yerlərinə, bəlkə də, bütövlükdə ölkəyə tətbiq oluna bilər. Cənab Prezident əlavə edib ki, "çünki bu da operativ, çevik və daha az məmurun iştirakını tələb edən üsuli-idarə metodudur".**

Adalet.az xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. O bildirib ki, cənab Prezidentin bu açıqlaması yerli idarəetmə strukturunun təkmilləşdirilməsinin davam etdirləcəyi baxımından vacib bəyanatdır:



"Paytaxt ilə regionlar arasında iqtisadi fərqin minimumlaşdırılması üçün yerli idartəetmə sistemində islahatların davam etdirilməsi aktual məsələlərdəndir. Regionlarda formalaşdırılan infrastrukturun daha çox dəyərə çevirlməsi üçün struktur islahatların rolu heç də az deyil. Aydındır ki, yeni dövrün yeni tələbləri var. Bu tələblər isə struktur islahatları nəticəsində bögələrimizə daha çox sərmayənin cəlb edilməsini aktuallaşdırıb. Hazırda Azərbaycan 14 iqtisadi rayon var. Bununla belə, Bakı şəhərindəki, Naxçıvan MR-dəki rayonlar daxil olmaq respublikada 76 rayon mövcuddur (12-si Bakıda, 7-si Naxçıvan MR-də, 57-si respublika tabeli rayon). Göründüyü kimi, rayonların sayı iqtisadi rayonların sayından 5.4 dəfə çoxdur.

Bütün bunlar kontekstində isə, cənab Prezidentin rəhbərliyi ilə struktur və institutsional islahatların davam edəcək. Bu isə Azərbaycan üçün yeni dövrün yeni hədəflərinə uyğun olaraq yeni idarəetmə modeli deməkdir".

**Sübhan**

# Səfərbərlik Xidmətinin 9 əməkdaşının işinə xitam verildi - 172 nəfər məsuliyyətə cəlb edildi

**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən əvvəlki illərdə olduğu kimi 2025-ci ildə də xidməti fəaliyyətdə şəffaflığın artırılması, korrupsiyaya şərait yaradan amillərin aradan qaldırılması və vətəndaş məmnunluğunun yüksəldilməsi istiqamətində sistemli tədbirlər həyata keçirilmişdir.**

Bu barədə Adalet.az-a Dövlət Xidmətindən məlumat verilib.

Belə ki, əməkdaşların qeyri-qanuni hərəkətləri və vəzifə səlahiyyətlərindən sui-istifadə halları üzrə 2025-ci il ərzində 172 əməkdaş (onlardan 65-i rəhbər heyət) barəsində intizam tənbehi və təşkilati-ştat tədbirləri görülmüş, o cümlədən 9 əməkdaş mənfi əsaslarla ehtiyata buraxılmış və ya əmək müqaviləsinə xitam verilmişdir.

Ümumilikdə ötən ildə 44 fakt üzrə 93 nəfər barəsində toplanmış materiallar prosessual qərar qəbul edilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilmişdir.

"Müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 06.09.2023-cü il tarixli, 2317 nömrəli Fərmanının icrası çərçivəsində, müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi zamanı dörd yararlılıq kateqoriyası üzrə yekun tibbi müayinəsi 01.07.2024-cü il tarixindən etibarən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən həyata keçirilir. Prosesdə iştirak edən aidiyyəti qurumlar arasında məlumat mübadiləsinin elektronlaşdırılması və bu sahədə aparılan optimallaşdırma tədbirləri korrupsiya risklərinin azaldılmasına, idarəetmədə operativliyin və obyektivliyin təmin olunmasına, ümumilikdə isə fəaliyyətin şəffaflığının artırılmasına müsbət təsir göstərməkdədir. Vətəndaşlarla əyani təmasın minimuma endirilməsi, operativliyin və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə müasir texnologiyaların imkanlarından maksimum yararlanmaq və gələcəkdə göstərilən bütün xidmətlərin elektron qaydada həyata keçirilməsi planlaşdırılır. Hazırda "Müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət", "Müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilmə", "Müddətli həqiqi hərbi xidmətə müvəqqəti çağırılmamağa dair", "Həqiqi hərbi xidmət keçmə haqqında", "Müddətli həqiqi hərbi xidmət barədə" və "Hərbi qeydiyyat" haqqında arayışlar "MyGov" mobil tətbiq üzərindən vətəndaşlara təqdim olunur.




Bununla yanaşı "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanunundakı dəyişikliyə əsasən 15 yaşına çatmış kişi cinsli vətəndaşların ilkin hərbi qeydiyyata alınmasında yeni müddəaların tətbiq olunması, tələb olunan sənədlərin aidiyyəti dövlət orqanlarının elektron sistemlərindən inteqrasiya yolu ilə əldə olunması da onlarla, eləcə də valideynləri və qanuni nümayəndələri ilə əyani təmasının minimuma endirilməsinə və bu sahədə şəffaflığın artırılmasına xidmət edir. Belə ki, ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqənin kağız daşıyıcısının ləğv olunması, ilkin hərbi qeydiyyata alma komissiyasının qərarının və digər məlumatların vətəndaşlara elektron formada göndərilməsi "MyGov" platforması üzərində elektron kabinetlərinin yaradılmasını zəruri edir.

Vətəndaşların korrupsiya və digər qanunsuz hallarla qarşılaşdığı təqdirdə 9100 Çağrı Mərkəzinə və ya info@seferberlik.gov.az elektron poçt ünvanına müraciət etmələri, həmçinin elektron xidmətlərdən yararlanmaq və "MyGov" platformasına qoşulmaq üçün elektron kabinetin yaradılması tövsiyə olunur.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti fəaliyyətində şəffaflıq, obyektivlik və ictimai etimadın gücləndirilməsi prinsiplərinə əsaslanaraq korrupsiyaya qarşı mübarizəni bundan sonra da ardıcıl şəkildə davam etdirəcəkdir.

# "Zəngəzur dəhlizi artıq siyasi mübahisə mövzusu deyil..."

**"Prezidentin müsahibəsində təxminən 10-a yaxın siyasi istiqamət öz əksini tapdı. (iqtisadi istiqamətlərlə bağlı fikirlərimi ayrıca bölüşəcəm). Siyasi istiqamətlərin əksəriyyəti xarici siyasətə, bir neçəsi isə daxili siyasi istiqamətə aid idi.Daxili siyasi vəziyyətlə bağlı 2 məqam çox önəmli idi".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

"Belə ki, Prezident bildirdi ki, müharibədən sonrakı dövrdə ölkə idarəçiliyi fövqəladə qərarlar mərhələsindən çıxaraq daha sistemli və davamlı idarəetmə mərhələsinə keçir.İkinci məqam isə o idi ki, Prezident açıqladı ki, güclü dövlət anlayışı artıq yalnız təhlükəsizliklə deyil, səmərəli və məsuliyyətli idarəçiliklə ölçülür. Bu son cümlə ölkənin gələcək iqtisadi həyatı üçün həyati əhəmiyyətli tezisdir. Çünki, səmərəli və məsuliyyətli idarəçilik ölkə iqtisadiyyatının 3 dayağından 2-sidir.Xarici siyasət xəttinə dair isə əsas məqamlar daha çox



idi. Prezident bildirdi ki, Ermənistanla sülh prosesi geri dönməz mərhələyə daxil olub və bu sülh yaranmış real güc balansının nəticəsidir. Qərb ölkələri ilə münasibətlər emosiyalara yox, qarşılıqlı maraqlara əsaslanacaq. Azərbaycan ABŞ tərəfndən regionda sabitlik yaradan tərəfdaş kimi qəbul olunur. Çinlə əməkdaşlıq qlobal balans siyasətinin mühüm hissəsinə çevrilir. Türk dövlətləri ilə münasibətlər daha praktik mərhələyə keçir. Zəngəzur dəhlizi artıq siyasi mübahisə mövzusu deyil və öz icrasını gözləyən texniki məsələdir", - deyə o, bildirib.

**Eldar**

# Şəhid atası vəfat etdi

**Vətən müharibəsi şəhidi leytenant Murtuz Abbasovun ailəsində faciə baş verib.**

Adalet.az xəbər verir ki, şəhidin atası Çingiz Abbasov vəfat edib. Bu haqda "Siyasi Xətt" siyasi tədqiqatlar mərkəzinin rəhbəri Ramil Hüseynov məlumat verib.

Qeyd edək ki, leytenant Murtuz Abbasov 1988-ci il noyabrın 2-də Lerikin Soru kəndində anadan olub. O, Binəqədi rayonu Sulutəpə qəsəbəsində 313 saylı orta məktəbdə təhsil alıb. O, Dövlət Sərhəd Xidmətinin Akademiyasını bitirdikdən sonra Çevik Hərəkət Qüvvələrinin Çevik Hərəkət Briqadasında tağım komandiri kimi xidmətə başlayıb.

Vətən müharibəsi zamanı Cəbrayıl və Zəngilan rayonlarının işğaldan azad edilməsində iştirak edib.

Murtuz Abbasov 2020-ci il oktyabrın 22-də Zəngilan rayonu ərazisində Vejnəli qızıl mədəninin ələ keçirilməsi üçün Sığırt yüksəkliyi istiqamətində hərəkət edərkən bölüyü ilə birlikdə düşmən pus-



qusuna düşərək 6 nəfər yoldaşı ilə birlikdə döyüşü öz üzərlərinə çəkərək bölüyün qalan heyətini atəş altından çıxmasına şərait yaradıb. 30 nəfər döyüşçünün yaralandığı döyüş zamanı Murtuz və 6 nəfər yoldaşı qəhrəmancasına şəhid olub. Şəhid Murtuz Abbasov oktyabrın 29-da doğulduğu kənddə böyük izdihamla dəfn edilib.

O, Prezident İlham Əliyev tərəfindən ölümündən sonra "Vətən uğrunda" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Allah cəmi şəhidlərimizə rəhmət eləsin!

**Vasif ƏLİHÜSEYN**

# "Türkiyədə fərqli ideoloji baxışlara malik insanlar var..."

**"Türkiyə Gənclik Vəqfi İstanbulda "Qəzzaya ədalət" yürüşü keçirib. Yürüşə 400-ə yaxın qeyri-hökumət təşkilatının dəstəyi ilə 520 min insan qatıldığı bildirilib. Yürüşə qatılmaq istəyənlərdən bir qrupunun əllərində Misir və Azərbaycan Dövlət Neftş Şirkəti əleyhinə şüarı əks etdirən pankartlar olub. Onları yürüşə qatılmağa icazə verməyiblər, təxribatın qarşısı alınıb".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.



"Həmin qrup Misiri ona görə hədəf alıb ki, bu dövlət İsraildən qaz alışına dair saziş imzalayıb, Dövlət Neft Şirkətini isə İsrailə neft satmaqda ittiham edirlər.

Diqqətimi məlum qrupun nəfis şəkildə hazırladıqları pankartlar çəkdi. Onlar bunu nəşriyyatda hazırlayıblar. Bu qrupda yer alanlar 2024-cü ilin iyun ayında Dövlət Neft Şirkətinin İstanbuldakı ofisinin qarşısında da etiraz təşkil etmişdilər.

Türkiyədə fərqli ideoloji baxışlara malik insanlar var, içərlərində radikalizmə meyllənənlərə də rast gəlinir, 3 gün əvvəl terrorçu İŞİD üzvləri ilə toqquşmada 3 polis şəhid edildi.

Dövlət Neft Şirkəti 20 milyard dollarla Türkiyəyə ən çox yatırım qoyan şirkətdir və İsrailin Azərbaycan neftinin alışı Türkiyənin Ceyhan limanı üzərindən həyata keçirilir. Yəni Türkiyədə İsrailə neft satışına görə Dövlət Neft Şirkətini hədəf seçənlər həm də öz dövlətlərini hədəf seçirlər", - deyə o, bildirib.

**Eldar**

# Rusiyada azərbaycanlı miqrantlar zorla müharibəyə cəlb olunur

**Rusiyada çalışan miqrantların, o cümlədən Azərbaycan vətəndaşlarının zorla Ukrayna ilə davam edən müharibəyə göndərildiyi barədə yeni məlumatlar ortaya çıxıb.**

Adalet.az xəbər verir ki, son olaraq Azərbaycan vətəndaşı olan 20 nəfər Ukrayna ilə müharibəyə cəlb olunub.

Məlumatda bildirilir ki, 3-4 il əvvəl Rusiyaya tikinti sahəsində işləmək üçün gedən azərbaycanlılardan biri son illər müharibə zonasından kənarda, Donetsk ərazisində müxtəlif obyektlərin tikintisində çalışıb. O, 13 dekabr 2025-ci ildə Azərbaycanda yaşayan qardaşına yazıb ki, tikintidə çalışan təxminən 250 nəfər işçi zorla avtobuslara mindirilib və Voronej vilayətində yerləşən 11097 saylı hərbi hissəyə - 362-ci alaya aparılıb. Onların Ukraynaya - cəbhə xəttinə göndərilməsi planlaşdırılır.

Tikintidə ümumilikdə minə yaxın miqrant çalışıb. Onların arasında Azərbaycan, Özbəkistan, Qırğızıstan və Tacikistan vətəndaşları olub. Azərbaycandan olan işçilərin sayı isə təxminən 20 nəfərdir. Onların işlədiyi ərazi tam qapalı zona olub, ora giriş-çıxış sərbəst deyilmiş.

Hətta işləməyə gedəndə belə 3-4 hərbi postdan keçirmişlər. Məlumata görə, işçilər əvvəlcə yaşayış binaları və obyektlərin tikintisində çalışıb. Daha sonra isə onları qruplar halında naməlum istiqamətə aparıblar. Birinci mərhələdə işçilərin yarısı, sonra qalanları aparılıb. Lakin hara apardıqlarını deməyiblər. Sonradan dəqiqləşib ki, onları əvvəlcə Voronejə aparıblar, orada 1-2 gün saxladıqdan sonra isə hamısını Rostov



vilayətində hərbi hissəyə köçürüblər. Müharibəyə getmək istəyib-istəmədikləri barədə heç kimdən heç nə soruşmayıblar. Onlar hərbi xidmətlə bağlı heç bir sənədə imza da atmayıblar.

Bununla belə, artıq onlara hərbi geyimlər paylanıb, hərbi hazırlıqlarına başlanılıb. Hazırda həmin qrupda təxminən 20 azərbaycanlı var, onlar faktiki girov vəziyyətində Ukrayna ilə müharibəyə hazırlanırlar. Məlumatda bildirilir ki, həmin azərbaycanlılara ailələri ilə çox nadir hallarda telefon əlaqəsi saxlamağa imkan verirlər. O da vurğulanır ki, onların yaxınları məsələ ilə bağlı artıq Azərbaycanın Rusiyadakı səfirliyinə və digər aidiyyəti orqanlara müraciət edib.

Qeyd edək ki, Rusiyanın miqrantları müxtəlif yollarla Ukrayna müharibəsinə cəlb etməsi yeni məlumat deyil. Moskva müxtəlif şirnikləndirici vasitələr, aldadılma, hədə-qorxu və s. üsullarla miqrantları döyüş bölgəsinə göndərir.

Bəzi hallarda isə ayrı-ayrı ölkələrin vətəndaşları heç bir hərbi hazırlıq, təlim keçmədən ön cəbhəyə göndərilir. Rusiya-Ukrayna müharibəsində döyüşlərə cəlb olunmuş Azərbaycan vətəndaşlarının həlak olması, yaxud itkin düşməsi barədə məlumatlara tez-tez rast gəlinir. Rusiyanın iş dalınca, yaxud başqa məqsədlə bu ölkəyə üz tutmuş miqrantları Ukrayna ilə müharibəyə cəlb etməsi heç bir normaya sığmır.

Miqrantların düşdüyü çətin vəziyyətindən istifadə edərək, onları birbaşa ölümə göndərməklə Rusiya insan haqlarına, miqrasiya qanunlarına heç bir əhəmiyyət vermədiyini bir daha ortaya qoyur. /Apa/

# "Türkiyə İranın Ali rəhbərinə sığınacaq verə bilər..."

**"İranın Ali rəhbəri Əli Xamenei Rusiya deyil, Türkiyəyə gedə bilər. İranın Ali dini rəhbəri Ə.Xamenei etirazlar silahlı münaqişə mərhələsinə keçərsə, ABŞ və İsrailin hücumu baş verərsə, Rusiyaya deyil, Türkiyə gedə bilər. Çünki, Rusiya Ə.Xamenei üçün bir növ İranı satmış bir ölkə kimi qəbul ediləcək. Türkiyə Ə.Xamenei qəbul etməyə hazırdı".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib. "Türkiyə regional gücdür və İrana qarşı sanksiyalara qoşulmayıb. Türkiyə İrana qarşı daima qonşuluq prinsipləri üzərindən yanaşıb. Türkiyə İranın Ali rəhbərinə sığınacaq verə və yüksək səviyyədə təhlükəsizlik təmin edə bilər. Ə.Xameneinin İranı tərk etməsi son hədd olar. Bu, İran İslam inqilabının iflası deməkdir.

SEPAH və digər güc strukturları çalışır ki, xarici təhdidlərin qarşısını alsın. Amma, daxili etirazları körükləyən məsələləri kənara qoyub", - deyə o, bildirib.

**Vasif**

*Vugar Abbasov*
*vugarabbasov@hotmail.com*



# Neft, yoxsa demokratiya axtarışında?

*Avropa Xəbər Agentliyində (European News Agency) yayımlanmış son yazımı "Ədalət"in oxucuları ilə bölüşürəm. Yazıya keçid: https://www.european-news-agency.de/politik/in_search_of_oil_or_democracy-92810/*

***

**Dünya yenə çalxalanır. Əslində, dünyanın çalxalanmayan günü olmayıb. Dünyanın sakit vaxtını şəxsən mən yalnız doğulduğum, uşaqlığım və yeniyetməliyimin keçdiyi Sovet dövründə görmüşəm. O da ona görə ki, uşaq idim və dünyada baş verənlərdən xəbərim olmurdu. Həm də məktəbdə bizə təbliğ edirdilər ki, SSRİ güclü dövlətdir və dünyada nə baş versə də, biz, yəni Sovet vətəndaşları, hər zaman təhlükəsiz olacağıq. Biz də özümüzü təhlükəsiz hesab edirdik.**

**Sovet İttifaqı dağıldı və dünyanın güc balansı pozuldu. Dünyada bir hegemon dövlət qaldı: Amerika Birləşmiş Ştatları. O gündən bəri də dünyanın, demək olar ki, yeganə söz sahibidir.**

**Dünya çalxalanır. İranda baş verənlər öz yerində. Ukraynanın Rusiya tərəfindən işğalı artıq ikinci plandadır Bəlkə də məqsədlərdən biri məhz buna - sonuncunun ikinci plana keçməsinə nail olmaq idi? Bəlkə də, kim bilir.**

**Yeri gəlmişkən, bir çox siyasi ekspertlərin dediyinə görə növbədə İran dayanır. Hazırda isə müzakirə olunan mövzu ABŞ-ın Venesuela prezidentini və onun xanımını qaçırmasıdır. Məlum olduğu kimi, ABŞ onları qaçıraraq Nyu-Yorka gətirib. Buna da Venesuela prezidentinin diktator olması əsas gətirilir.**

**Bəs kim daha çox diktatordur? Öz ölkəsinin qanunlarını saymayan, diktatorluq edən, yoxsa bütün beynəlxalq təşkilatları, qaydaları və qanunları nəzərə almadan başqa bir ölkənin sərhədini pozub həmin ölkənin prezidentini xanımı ilə birlikdə qaçıran?**

**Maraqlı sualdır, məncə. Hətta Amerika mətbuatı da məsələyə ölkə prezidentindən fərqli yanaşır. Amerika mətbuatından bəzi sitatlar:**

**The New York Times: "Qanunsuz və ağılsız addım!"**

**The Washington Post: "Tramp Maduro əməliyyatı üçün Konqresin icazəsini almayıb!"**

**Bütün bunlar çox şey deyir. Əslində, Prezident Tramp Venesuela prezidentini hər vasitə ilə hakimiyyətdən getməyə məcbur etməyə çalışırdı. O, buna hazırlaşırdı. Amma bu qədərini təsəvvür etmək çətin idi.**

**Prezident Tramp dəfələrlə bu ölkədəki neft yataqlarından, Amerika şirkətlərinin Venesueladan, xüsusən də neft sektorundan uzaqlaşdırılmasından danışmışdı. Amma yenə də bu qədərini gözləmək çətin idi.**

**Hadisədən sonra isə ABŞ Prezidenti Venesuelanın müvəqqəti olaraq Amerika tərəfindən idarə olunacağını açıq şəkildə bəyan edir. Həm də bunu hüquqi yollarla edəcəklərini deyir. Amma sual açıq qalır: başqa bir ölkənin sərhədlərini pozaraq onun prezidentini xanımı ilə birlikdə qaçırmaq nə dərəcədə hüquqidir? Bu, beynəlxalq qanunlara nə qədər uyğundur?**

**Məqsəd həqiqətən demokratiyanın bərpasıdır, yoxsa Amerika neft şirkətlərinin yenidən Venesuelaya qayıtması və dolayısı ilə bu ölkənin neftinə nəzarətdir?**

**Yazını Viktor Hüqonun "Səfillər" əsərindən bir sitatla bitirmək istəyirəm:**

**"Cəza verənlərin cinayəti, məhkum edilənin cinayətindən daha böyük olmurmu?"**

# *"Trampın İrana havadan hərbi müdaxiləsi gözlənilir..."*

**"Beynəlxalq təşkilatlar İrandaki etirazlar zamanı 20 nəfərin öldüyünü, 990 nəfərin isə saxlanıldığını bildirir. Amma internetin məhdudlaşdırılması səbəbindən etiraz aksiyaları davam edən bütün ərazilərdən məlumatlar tam həcmdə əldə olunmur".**

Adalet.az xəbər verir ki, bunu Ədalət Verdiyev deyib.

"Aksiyalarına miqyasının geniş olmasını və molla rejiminin dinc əhaliyə qarşı odlu silah istifadəsini nəzərə alsaq ölən , yaralanan və saxlanılan İran vətəndaşlarının real sayı elan edilən dəfələrlə coxdur.

Belə bir vəziyyətdə ABŞ prezidenti Trampın İrana havadan hərbi müdaxiləsi gözlənilir. İsrail də müdaxilə prosesinə qoşula və etirazçılara ABŞ ilə birlikdə dəstək verəcəyi mümkündür. Biz isə ən gərgin ssenarilərə hazır olmalıyıq", - deyə o, bildirib.

**Vasif ƏLİHÜSEYN**



**Könül Nurullayeva,**
**Milli Məclisin deputatı**

# "Azərbaycan bütün məsələləri milli maraqlara uyğun həll edir"

**Azərbaycan Prezidenti mütəmadi olaraq müsahibələrində ilin yekunları, il ərzində ölkənin daxili və xarici siyasəti, baş vermiş mühüm hadisələr, aktual məsələlərlə bağlı ictimaiyyətə məlumat verir. Ünvanlanan suallar, dövlət başçısının bütün mövzuları ən xırda detallarına kimi əhatə etməsi cənab Prezidentin Azərbaycanın gələcəyi ilə bağlı aydın baxışa və strateji yanaşmaya malik olduğunun göstəricisidir. Azərbaycan Prezidenti dünyada cərəyan edən prosesləri obyektiv təhlil edərək, düzgün nəticələr çıxarır, dəqiq proqnozlar verir.**

**Budəfəki müsahibədə də Azərbaycanın siyasi-diplomatik, hərbi, iqtisadi, sosial uğurları və qarşıda duran perspektivlərlə bağlı vacib mesajlar əksini tapıb. Son 5 ilin ən böyük uğuru şübhəsiz ki, Azərbaycanın yaratdığı yeni reallıqların dünya siyasi elitası tərəfindən qəbul olunmasıdır. Cənab Prezident müsahibəsində bu məqama xüsusi toxundu və qeyd etdi ki, Azərbaycan və Ermənistan son 5 aydır sülh şəraitində yaşayır. Belə ki, ötən ilin avqustunda Vaşinqtonda tərəflər arasında əldə olunan razılaşma artıq nəticələr verməkdədir. Bu isə regional təhlükəsizlik və əməkdaşlıq baxımından olduqca vacibdir.**

**Cənab Prezidentə ünvanlanan suallardan biri də ABŞ-Azərbaycan münasibətləri kontekstində 907-ci düzəlişin ləğvi ilə bağlı idi. Müstəqilliyin ilk illərində AXC-Müsavat cütlüyünün laqeyd yanaşması səbəbindən ölkəmizə qarşı qəbul olunan bu qərar ikili standartların ən real nümunəsi idi. Dövlət başçımızın söylədiklərindən aydın oldu ki, təsadüfi şəxslərin hakimiyyətə gəlişi milli maraqlarımıza zidd qərarların verilməsinə səbəb olub. Ən dəhşətlisi isə budur ki, ovaxtki Azərbaycan iqtidarının gündəlikdə belə bir məsələnin olmasından, belə bir qanunun qəbul olunacağından xəbəri belə olmayıb. Bu da həmin dövrün xaotik ictimai-siyasi mənzərəsini təsəvvür etməyə imkan verir.**

**1993-cü il Ulu Öndərin hakimiyyətə qayıdışından sonra 907-ci düzəlişin ləğvi hər zaman gündəmdə idi və nəhayət, 2025-ci ilin avqustunda ABŞ Prezidenti Donald Tramp Ağ Evdə məhz Prezident İlham Əliyevin iştirakı ilə keçirilən mərasimdə 907-ci düzəlişə son qoydu, bunu aradan qaldırdı. Bununla belə, Konqres bunu rəsmən aradan qaldırmalıdır.**

**Dövlət başçısı eyni zamanda regionda mövcud olan nəqliyyat imkanlarından da danışdı. Bu xüsusda Zəngəzur dəhlizinin əhəmiyyərini xüsusi qeyd etdi. Bir daha əminlik yarandı ki, Zəngəzur dəhlizi gec-tez açılacaq. Bu isə Ermənistanla normallaşma prosesi çərçivəsində lazım olan bütün məsələlərin bizim milli maraqlarımıza uyğun həllini tapdığını təsdiqləyir.**

**Nəqliyyat infrastrukturunun strateji prioritetlərinə gəlincə, ölkəmizin coğrafi mövqeyinin vahid tranzit və nəqliyyat qovşağı kimi əhəmiyyəti ilbəil artır. Belə ki, unikal coğrafiyaya malik olan Azərbaycan Mərkəzi Asiya ilə Qərb arasında effektiv və təhlükəsiz körpü rolunu oynayır. Naxçıvanla əlaqələri gücləndirən nəqliyyat layihələrinin icrası isə xüsusi əhəmiyyət kəsb edir və dövlət başçımız Naxçıvanı Türkiyə ilə birləşdirəcək dəmir yolu xəttinin vacibliyini, bu istiqamətdə işlərin koordinasiyalı aparılmasının zəruriliyini qeyd etdi.**

**Zəngəzur dəhlizinin açılması isə Naxçıvanın Türkiyə ilə birbaşa dəmir yolu əlaqəsi vasitəsilə Azərbaycanın tranzit potensialını daha da artıracaq. Bu layihələr həm də ticarət həcmlərinin artmasına gətirib çıxara bilər. Beləliklə, Azərbaycan beynəlxalq logistika marşrutlarının vacib hissəsinə çevrilib. Bu kontekstdə dünyanın iqtisadi nəhəngi olan Çinlə strateji tərəfdaşlıq, həmçinin Mərkəzi Asiyada böyük nüfuz qazanmaq, bir çox beynəlxalq təşkilatlarda mövqelərin möhkəmlənməsi Azərbaycanı daha da gücləndirib.**

**Digər əməli fəaliyyət sahələrinə gəldikdə işğaldan azad olunmuş ərazilərimizin minalardan təmizlənməsi, sürətli və keyfiyyətli bərpa-quruculuq işləri, Böyük Qayıdışın plan üzrə icrası və s. Azərbaycanın uğurları sırasındadır.**

## Pezeşkian maaş artımı istəyənlərə qəzəbləndi: "Haradan tapım?"

**"Dövlətin dövlət qulluqçuları və pensiyaçıların maaşlarını artırmaq üçün kifayət qədər vəsaiti yoxdur".**

Adalet.az xəbər verir ki, bunu İran Prezidenti Məsud Pezeşkian deyib.

"Mənə bildirirlər ki, maaşları artır, amma vergi də alma. Neft də sanksiya altındadır. İndi mən bu pulu haradan tapım? Büdcədə cəmi iki faiz artım üçün özümüzü mümkün qədər sıxmışıq", - dövlət başçısı qeyd edib.

## YAPONİYA TÜRK DÖVLƏTLƏTİ TƏŞKİLATINA ÜZV OLMAQ İSTƏYİR



**Dünyanın dördüncü iqtisadi gücə malik olduğu Yaponiya Türk Dövlətləri Təşkilatına üzv olmağın mümkün ola biləcəyini bəyan edib.**

Yaponiya gözlənilmədən Türk Dövlətləri Təşkilatına, qonaq kimi yox, müşahidəçi qismində deyil, bir başa tam hüquqlu üzvlükdən danışıb. Bu barədə, ilk dəfə olaraq Yaponiyada keçirilən "Orta Asiya üstəgəl Yaponiya" sammitində, Yaponiyanın xarici işlər nazirinin müavini Arxi Eri bəyan edib. Xatırladırıq ki, Tokiada keçirilən həmin sammitdə Qazaxıstanın, Qırğızıstanın, Özbəkistanın, Türkmənistanın və Tacikistanın prezidentləri iştirak ediblər.

"Mən uyqur türklərini təmsil edirəm. Biz türk dünyasının bir parçasıyıq"- deyə bildirən Arxi Enri, daha sonra əlavə edir ki, "biz müşahidəçi kimi kənarda qala bilmərik, türk xalqları ilə bütün formatlarda və platformalarda bərarabər hüquqlu tərəfdaş kimi yaxından iştirak etməliyik. Yaponiya bütün türk dövlətləri ilə əlaqələri genişləndirməlidir, siyasi və sivil körpülər yaradılmalıdır"

Tokiya açıq şəkildə siyasi, iqtisadi, mədəni əlaqələrin yaxınlaşmasının vacibliyini vurğulayıb.

Yaponiyanın Türk Dövlətləri Təşkilatlna daxil olması, Avroasiyada güc balansına təsir edə bilər.

**Rüstəm Hacıyev**

## *"Bu, Rusiyanın Azərbaycana qarşı mənfi siyasətinin təzahürüdür..."*



**"Rusiya istintaqı AZAL təyyarəsinin vurulmadığını qeyd edib. Rusiya AZAL Təyyarəsi ilə bağlı cinayət işinin sənədini Azərbaycana göndərib. Cinayət işində əlverişsiz hava şəraitindən dolayı, Təyyarə Rusiya ərazisindən eniş edə bilməyib, gedib Qazaxıstanda yerə çırpılıb. Bununla da cinayət işinə xitam verilib. Amma, Düşənbədə V. Putin məhz təyyarənin vurulmasını etiraf edərək, kompensasiya ödəyəcəyini və məsul şəxslərin cəzalandırılmasına söz vermişdi".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

"Göründüyü kimi Rusiya Azərbaycana kompensasiya ödəməyəcək və cinayətkarlar cəzalandırılmayacaq. Ümumiyyətlə, istintaq təyyarənin vurulmasını qeyd etmir, özü yerə çırpılıb qeyd edilib. Azərbaycanın şərtlərini Rusiya qəbul etmədi. Bu, Rusiyanın Azərbaycana qarşı mənfi siyasətinin təzahürüdür. Deməli, Rusiya Azərbaycana təzyiq etməyə çalışır. Rəsmi Bakı ilə konstruktiv əməkdaşlıq deyil, əlaqələri böhrana sürükləmək siyasəti aparılır. Azərbaycanın ABŞ-la ikitərəfli əlaqələri inkişaf etdirməsi, Moskvada da narahatlıqla qarşılanır.Rusiyanın bu mövqeyi bir ölkə üçün utancdır. V.Putin bir söz deyir, istintaqı tam ayrı bir söz deyir. Rusiya özü Azərbaycanla böhran yolunu seçib".

**Vasif**

## İctimai nəqliyyatdan istifadə etməyənlərin balansından niyə pul çıxılır?

**Bəzi vətəndaşlar nə metrodan, nə də avtobusdan istifadə etmədiyi halda balanslarından pul çıxır. Bu hal metro və avtobuslarda NFC ödənişlərinin tətbiqindən sonra baş tutub.**

Adalet.az xəbər verir ki, vətəndaşların sözlərinə görə, ödənişlər adətən gecə saatlarında tutulur. Sosial şəbəkələrdə yayılan iddialara görə, bu hal əksər insanların başına gəlib. Bəs iddia nə dərəcədə düzgündür?

Məsələ ilə bağlı "Bakı Metropoliteni" QSC və AYNA-dan bildirildi ki, məsələnin onlarla əlaqəsi yoxdur.

BakıKart-dan isə qeyd edildi ki, səsləndirilən iddialar əsassızdır:

"Tətbiq edilən ödəniş sistemi həm birdəfəlik keçid, həm də gecikdirmə prinsiplərini əhatə edir. Birdəfəlik keçid funksiyası əsasında kart balansı müvəqqəti kifayət etmədiyi halda belə sərnişin ictimai nəqliyyatdan istifadə edə bilər. Balans bərpa edildikdən sonra isə ödəniş yenidən tutulur".

"BakıKart"dan qeyd edildi ki, belə hallarla rastlaşan sərnişinlər qaynar xəttə müraciət edə bilərlər.

**Elxan Şükürlü**



# Ya İranı qarışdırırlar, ya da Türkiyədə...

**Hər dəfə Türkiyə ilə İran arasında yaxınlaşma meylləri, Suriyada, İraqda, Livanda və Fələstində birgə hərəkət, əməkdaşlıq imkanları yaranan kimi, ya İranı qarışdırırlar, ya da Türkiyədə hansısa fövqəladə hadisə baş verir.**

**Diqqət yetirin: İranın mərhum prezidenti İbrahim Rəisinin 2023-cü ildə iki dəfə təxirə salınan Türkiyə səfəri 2024-cü ilin yanvarın 4-ə razılaşdırılmışdı, hər iki tərəfdə ciddi hazırlıqlar aparılırdı.**

**Ancaq 2024-cü ilin yanvarın 3-də Kirmanda İŞİD-in əliylə böyük bir terror hadisəsi təşkil edildi və səfər 20 gün sonraya ertələndi, həmin aralıqda isə qəfildən ABŞ dövlət katibi Blinken Türkiyəyə gəldi...**

**Nəticədə, Türkiyə və İranın ABŞ-ın və İsrailin nəzarətindəki kürd qruplaşmalarının silahsızlaşdırılmasına qarşı birgə əməliyyat planları baş tutmadı!**

**Təxminən, bir ay əvvəl - 2025-ci ilin noyabrın 30-da isə Türkiyənin xarici işlər naziri Hakan Fidanın İrana səfərini və Tehranda keçirdiyi görüşləri də Qərb mediası və analitikləri məhz Türkiyə ilə İran arasında yaxınlaşmada "yeni səhifənin açılması" kimi qiymətləndirirdi.**

**Gerçəkdən də, Fidanın İran səfəri çox məhsuldar, uğurlu keçmişdi və iki ölkə arasında əməkdaşlığın genişləndiriləcəyinə dair hər iki cinahdan xoş ovqatla qarşılanacaq ciddi bəyanatlar səsləndirilmişdi.**

**Məsələn, İranın Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Laricaninin Hakan Fidana türkcə xitabən sosial şəbəkələrdə geniş yayılan belə bir paylaşımı olmuşdu: "Öz evinizə xoş gəlmisiniz! Türkiyə və İran arasında daha çox əməkdaşlığın baş tutacağına ümid edirəm".**

**Hakan Fidan isə həmkarı Abbas Ərakçi ilə birgə keçirdiyi mətbuat konfransında açıq şəkildə bəyan etmişdi ki, İsrailin genişlənmə siyasəti bölgə ölkələrinin təhlükəsizliyinə əsas təhdid mənbəyidir və bu təhlükəyə qarşı da Türkiyə və İran birgə hərəkət etməlidir.**

**Bu, İranın çoxdan gözlədiyi bəyanat idi.**

**Eyni zamanda, Hakan Fidan Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın İrana səfərinin hazırlandığını və geniş əməkdaşlıq üçün bu səfərin çox önəmli olacağının anonsunu vermişdi...**

**Ən önəmlisi, Fidanın səfərindən sonra belə bir gözlənti var idi ki, PKK-nın Suriya və İraqdakı bölmələrinin, həmçinin elə İranın öz daxilindəki əsas qolu olan PJAK-ın silahsızlaşdırılması üçün Türkiyə və İranın müvafiq qurumları birgə əməliyyatlara başlayacaqlar.**

**Birgə əməliyyatlar isə Suriyanı, İraqı, İranı və Türkiyəni "Böyük Kürdüstan" ideyasıyla zəhərləyən ABŞ və İsrailin maraqlarına ziddir.**

**Hazırda İranda sosial-iqtisadi zəmində başlamış etirazların kütləvi iğtişaşlara və hakimiyyət dəyişikliyi prosesinə çevrilməsində də məhz ABŞ və İsrailin dəstəklədiyi kürd silahlıları ciddi rol oynayır. ABŞ və İsrail məhz onların əliylə Türkiyə və İranın yaxınlaşmasının qarşısını daha bir müddət almağa çalışırlar.**

**İrandakı soydaşlarımızın bu iğtişaşlarda iştirak etməməsi də hadisələrin arxasında duran gerçəkləri, xüsusən də iğtişaşların genişlənməsinin təkcə İranın yox, elə Türkiyə və Azərbaycanın da zərərinə olacağını bilmələriylə bağlıdır.**

**Necə deyərlər, qonşunun evinə od düşübsə, sən də təhlükədəsən! Üstəlik, o ev həm də sənin qardaşınındırsa, deməli, sən o odun körüklənməsində yox, söndürülməsində hamıdan daha çox maraqlı olmalısan!**

## ÜST: Tənhalıq sağlamlığa ciddi zərbə vurur



**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, tənhalıq insan sağlamlığı üçün ciddi risklər yaradır.**

Adalet.az xəbər verir ki, tənhalıq ürək-damar xəstəlikləri, diabet, depressiya və narahatlıq hallarının artması ilə birbaşa əlaqəlidir. Böyük Britaniyada aparılan son araşdırma isə problemin iqtisadi tərəfini də ortaya qoyub. "PLOS One" jurnalında dərc edilən tədqiqata əsasən, tez-tez tənhalıq hissi keçirən şəxslər sosial cəhətdən aktiv insanlarla müqayisədə İngiltərənin Milli Səhiyyə Xidmətinə ildə orta hesabla 1024 avro daha çox xərc yaradır.

Araşdırma göstərib ki, tənhalıq psixi gərginlik, zəif psixi və fiziki sağlamlıq, eləcə də həyat keyfiyyətinin aşağı düşməsi ilə sıx bağlıdır. Eyni zamanda tənha insanlar xəstəxanalara daha tez-tez müraciət edirlər.



*Nizami NOVRUZOV,*
*texnika üzrə fəlsəfə doktoru*

# İnkişaf yolunun dəqiq konturları

**Prezident İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibə ölkəmizin yeni dövrdəki strateji hədəflərini müəyyən edən fundamental bir siyasi proqram xarakteri daşıyır. Dövlətimizin başçısının ötən il baş verən əsas hadisələr, xüsusilə Ermənistan-Azərbaycan müharibəsinə siyasi nöqteyi-nəzərdən son qoyulması, Zəngəzur dəhlizinin işə salınması, artıq sülh şəraitində yaşamağımız və digər qlobal məsələlər barəsində fikirləri böyük maraqla qarşılanmışdır.**

Bu tarixi müsahibə, sadəcə, keçən ilin hesabatı deyil, həm də qalib bir dövlətin dünyaya təqdim etdiyi sabitlik manifestidir. Məhz buna görə də dövlətimizin başçısının hər bir fikri analitik dərinliyi və milli mənafelərə söykənən qətiyyəti ilə seçilir.

Prezident İlham Əliyevin liderlik fəlsəfəsinin mərkəzində dayanan güclü dövlət konsepti müsahibədə özünün ən kamil ifadəsini tapdı. Dövlətimizin başçısının iqtisadi suverenliklə bağlı gətirdiyi arqumentlər Azərbaycanın maliyyə müstəqilliyinin hər hansı kənar təzyiq vasitəsini sıfra endirdiyini bir daha sübut etdi. Yəni, dövlət başçımız xüsusilə beynəlxalq maliyyə reytinqlərindəki yüksəlişi və qızıl ehtiyatlarının artırılmasını strateji bir zireh kimi xarakterizə etdi.

Ötən ilin yadda qalan prioritet məsələlərindən birinin də Azərbaycan-Amerika münasibətlərində irəliyə doğru atılan qətiyyətli addımın olduğunu vurğulamaq istəyirəm. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ABŞ-Azərbaycan əlaqələrinin üzərində qara bulud kimi 907-ci düzəliş fırlanırdı. Nəhayət 907-ci düzəliş 33 ildən sonra ötən il ləğv olundu. Azərbaycan dövlətinin, onun lideri İlham Əliyevin düzgün müəyyənləşdirdiyi xarici siyasət sayəsində Amerika-Azərbaycan münasibətləri yeni mərhələyə qədəm qoymuşdur. Azərbaycanın ədalətə və beynəlxalq hüquqa söykənən müstəqil xarici siyasətinin əsas tərkib hissələri olan müxtəlif dövlətlərlə ikitərəfli və beynəlxalq təşkilatlar daxilində əlaqələrin inkişafında mühüm uğurlara imza atıldı. Xarici siyasətlə bağlı digər önəmli nailiyyət ölkəmizin Mərkəzi Asiya Məşvərət Şurasına tamhüquqlu üzv seçilməsidir. Bağlantılar, nəqliyyat, logistika bu gün bir çox aparıcı beynəlxalq aktor üçün böyük önəm daşıyır və burada Mərkəzi Asiyanı Qərblə coğrafi nöqteyi-nəzərdən birləşdirə biləcək yeganə etibarlı ölkə Azərbaycandır. Eyni zamanda böyük əhəmiyyət daşıyan hadisələrdən biri də Çinlə olan strateji tərəfdaşlığımızdır. Çin ilə əmtəə dövriyyəsi 4 milyard dolları keçib. Ordu quruculuğu məsələsində səsləndirilən fikirlər dövlətimizin hərbi qüdrətinin kəmiyyət və keyfiyyət baxımından çatdığı zirvəni göstərir. Yerli müdafiə sənayesinin ixrac potensialının yüksəlməsi regionda sülhün ən böyük təminatçısının məhz Azərbaycan Ordusu olduğunu təsdiqləyir.

İşğaldan azad edilmiş ərazilərdəki bərpa prosesini Böyük Qayıdışın növbəti mərhələsi kimi təqdim edən dövlətimizin başçısı Qarabağın dünyanın ən modern bölgələrindən birinə çevriləcəyinə dair güclü iradənin olduğunu nümayiş etdirib. Zəngəzur dəhlizinin açılması və Orta Dəhlizin strateji əhəmiyyəti barədə verilən analitik şərhlər Azərbaycanın qlobal logistik qovşaq statusunu möhkəmləndirir. Prezident İlham Əliyev vurğuladı ki, bizim iştirakımız olmadan regionda heç bir strateji layihə reallaşa bilməz.

Müsahibədə sosial ədalət prinsiplərinə və vətəndaş rifahına ayrılan xüsusi yer xalq-iqtidar birliyinin nə qədər səmimi təməllər üzərində qurulduğunun bariz nümunəsidir. Milli-mənəvi dəyərlərin, xüsusilə Azərbaycan dilinin saflığının qorunması ilə bağlı çağırışlar liderin öz xalqının tarixinə və kimliyinə olan dərin bağlılığının təzahürüdür.

Dövlətimizin başçısının qlobal iqlim dəyişikliyi və COP29 sonrası Azərbaycanın yaşıl enerji strategiyası haqqındakı vizyonu ölkəmizin gələcək texnologiyalar dövrünə tam hazır olduğunu göstərir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan neft amilindən asılılığı minimuma endirərək intellektual resurslara əsaslanan yeni iqtisadi modelə uğurla keçid edir.

Bir sözlə qeyd etmək istəyirəm ki, müsahibənin hər bir cümləsi ölkəmizin güclü liderlik, aydın məqsədlər və milli maraqlara əsaslanan siyasət sayəsində inamla irəlilədiyini sübut edir. Bu müsahibə modern Azərbaycanın dövlətçilik tarixinin ən parlaq və ən mühüm sənədlərindən biri kimi yaddaşlara həkk olundu.

# Maduronun tutulması neftin qiymətinə necə təsir göstərəcək?

**"Venesuela Prezidenti Nikolas Maduronun tutulmasından sonra investorları düşündürən ən vacib suallardan biri də məhz bu hadisənin strateji məhsulların qiymətinə necə təsir göstərməsidir. Bu isə birbaşa zəngin ehtiyatlara malik olan Venesuelanın neft hasiltatçısı olması ilə bağlıdır".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib.




Onun sözlərinə görə, Nikolas Maduronun tutulmasının neftin qiymətlərinə təsirlərinə gəldikdə, bir neçə ssenari üzrə proqnozlar təqdim edilməkdədir:

"Venesuelanın gündəlik neft hasilatı ilə bağlı beynəlxalq təşkilatların fərqli göstəriciləri təqdim olunsa da, bütün rəqəmlərdə sözügedən dövlətin bazarda xüsusi mövqeyə malik olmadığı aydınlaşır.

ABŞ Enerji İnformasiya Administrasiyasının (EIA) məlumatına görə, gündəlik 1.098 milyon barel istehsalı ilə Venesuela neft hasilat edən ölkələr arasında 18-ci yerdədir. EİA bütövlükdə neft hasilatının 72 faizinin 10 ölkənin payına düşdüyünü açıqlayır.

"Trading Economics" eyni olmasa da, oxşar nəticəni bölüşür: 1.142 milyon gündəlik hasilat ilə siyahıda 17-ci pillə. Məsələnin digər tərəfi, Venesuelanın neft ixrac edən ölkələr arasında ilk iyyirmilikdə yer almamasıdır. Belə ki, bu ölkə dünya bazarına 438 min barel neft çıxarmaqla ixracatçı ölkələr arasında 22-ci pillədə qərarlaşıb. Neft ixracatının az olması isə, təbii ki, Venesuelaya tətbiq edilən sanksiyalar ilə bağlıdır. 2024-cü ildə dəyər ifadəsində neft ixracatının15.2 faizi Səudiyyə Ərəbistanının payına düşüb. İlk beşliyi Rusiya (9.7 %), ABŞ (9.4 %), Birləşmiş Ərəb Əmirliyi (9.1 %) və Kanada (8.5 %) tamamlayırlar. Amma, investorlar üçün bütün bunlardan daha vacib olan məqam Venesuelanın neft ehtiyatlarına görə dünyada birinci olmasıdır. Kəşf edilən neft ehtiyatlarının 18.2 faizi Venesuelanın payına düşür. Dördülüyü Səudiyyə Ərəbistanı (16.2 faiz), Kanada (10.4 faiz) və İran (9.6 faiz) tamamlayırlar. Bu isə o deməkdir ki, Venesuelanın neft ehtiyatlarının ABŞ tərəfindən istismar edilməsi yaxın gələcəkdə bazara böyük həcmdə neftin daxil olmasına və təklifin kəskin artmasına səbəb olacaq. Bu isə bazardakı qiymətlər üçün isti nə isə vəd etmir. Müqayisə üçün qeyd edək ki, ABŞ sərmayəsinin İraq neft sektoruna daxil olmasından sonra hasilatı kəskin artıran İraq hazırda dəyər ifadəsində ümumi neft ixracatının 8.0 faizini formalaşdırır. Bununla belə, kəskin təklif ssenarisinin reallaşmasının zaman alacağı istisna deyil. Çünki Venesuelanın neft infrastrukturunun texnoloji baxımdan yenidən qurulması sadəcə vəsait deyil, həmçinin zaman tələb edir. Bu isə, Venesueladan bazara daxil olacaq böyük neft kütləsi üçün əlavə vaxt deməkdir".

**Deputat qeyd edib ki, digər ssenari isə Venesuelada potensial xaos riskidir: "Bu halda neft bazarı proseslərə fərqli reaksiya verəcək. Bununla yanaşı, bu halda belə neft qiymətlərində kəskin artım gözlənilmir. Çünki Venesuelanın mövcud hasilat və ixracatı bazara xüsusi təsir etmir. Hətta o ixrac azalsa belə bu qiymət artımları üçün zəmin yaratmır. Bütün bunlar isə onu deməyə əsas verir ki, hətta qısa müddətdə olmasa belə, orta müddətdə neftin qiymətlərində hiss edilən azalmalar qaçılmaz olacaq. Bu isə neft gəlirlərinin iqtisadiyyatın diversifikasiya nəticəsində digər mənbələr ilə əvəzlənməsi prioritetliyini daha da artırır".**

**Nicat**

# "ABŞ-nin İrana hər hansı müdaxiləsi bu ölkədə dəyişiklik istəyənlərin əleyhinə..."

**"Vaşinqtonun Venesuellada həyata keçirdiyi hərbi əməliyyat ABŞ-nin çoxqütblü dünya ilə barışmadığını göstərir. Vaşinqton "Monro doktrinası"ndan (ABŞ Prezidenti Ceyms Monronun 1823-cü ildə qəbul etdiyi doktrinaya görə Şimali və Cənubi Amerika ABŞ-ın həyati maraqları çəvçivəsinə aid edilmiş və Avropa ölkələri bu qitələrin işlərinə qarışmamalıydı) çıxış edərək Venesuellanı ram etməyə qərar verib".**



Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

"Vaşinqton eyni prinsiplə 1973-cü ildə Çilidə yerli hərbçilərin əli ilə solçu Prezident Salvador Alyendeni devirmişdi. Salvador Alyende kimi Nikolas Maduro da Amerikaya meydan sulayırdı, ikisinin də sonu oxşar oldu. ABŞ-nin Venesuellada həyata keçirdiyi hərbi əməliyyata və Maduronun həbsinə iki növ reaksiyalar verilib. "Baş verənləri qınayırıq" - deyənlər ABŞ-nin hərbi əməliyyatından narahat olan dövlətlərdir. "Hadisələri diqqətlə izləyirik" - deyənlər isə ABŞ-nin tərəfdaşı və Vaşinqtondan çəkinənlərdir. Bütün hallarda heç bir dövlət, o cümlədən Rusiya və Çin Venesuella və onun artıq keçmiş lideri Maduroya görə, Donald Trampla qarşıdurmaya getməyəcək.Tramp dünənki açıqlamasında İran rejimini bu sözlərlə hədələmişdi: "Əgər İran dinc etirazçılara zorakılıqla atəş açsa və onları öldürsə, hansı ki bu onların adətidir, ABŞ etirazçıların köməyinə gələcək. Biz ora getməyə tam hazırıq". Veneseuladakı hadisələr göstərir ki, Tramp dediyini etməyə çalışır. Ancaq ABŞ-nin İrana hər hansı müdaxiləsi bu ölkədə dəyişiklik istəyənlərin əleyhinə, əksinə mühafizəkarların lehinə işləyəcək, ikincilər diqqəti daxili məsələlərin həllindən yayındıraraq cəmiyyəti ümumi düşmənə qarşı birliyə çağıracaqlar", - deyə o, bildirib.

**Sübhan**

# Əsgər ölümü faktına görə həkim məsuliyyətə cəlb olundu

**"N" saylı hərbi hissəsinin hərbi qulluqçusu əsgər Fariz İsayevin ölüm faktı əsasında başlanılmış cinayət işinin ibtidai istintaqı başa çatıb.**



Adalet.az Apa-ya istinadən xəbər verir ki, faktla bağlı əsgərin qulluq etdiyi hərbi hissənin həkimi, tibb xidməti baş leytenantı Vaqif Məmmədov cinayət məsuliyyətinə cəlb edilib.

O, Cinayət Məcəlləsinin 342.1-1-ci (Qulluğa səhlənkar yanaşma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddəsi ilə ittiham olunur. V.Məmmədov barəsində başqa yerə getməmək iltizam qətimkan tədbiri seçilib.

Cinayət işi baxılması üçün Bakı Hərbi Məhkəməsinə göndərilib. Xatırladaq ki, ötən ilin may ayında Oğuz rayonunun Xaçmaz kəndindən hərbi xidmətə çağırılan əsgər Fariz Sadiq oğlu İsayev hərbi hissəyə göndəriləndən üç gün sonra vəfat edib.

İddialara əsasən, yüksək hərarəti olan əsgərə antibiotik iynəsi vurulub.



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# "ÖMÜR NAĞILI"NIN İÇİNDƏKİ ƏKS-SƏDASI

**Bədii ədəbiyyat həm də sözün kağıza köçürülməsidir. Və uzun, bəzən də qərinələr aşan yaşam haqlı nümunəyə çevrilməsidir. Bəlkə də bu fikir hardasa kimlərisə razı salmayacaq. Amma mənə görə bu bir həqiqətdir. Çünki mən bu fikrimdə faktlara söykənirəm. Oxuduğum memuarlar, eləcə də sənədli-bədii nümunələr məndə bu fikri formalaşdırır. Ən çox sevdiyim əsərlərdən biri unudulmaz yazıçımız Manaf Süleymanovun qələmindən çıxan və Bakını mənə yenidən tanıdan möhtəşəm əsəridir. Bax, elə dəyərli və unudulmaz yazıçılarımız Həsən Seyidbəyli və İmran Qasımovun birlikdə yazdıqları xatirləri də, səfər təəssüratları da, Novruz Nəcəfoğlunun, Hüseynbala Mirələmovun Sinqapur, Çin səfərləri və digərlərinin bu mövzularda təəssüratları da məni qiyabi olaraq o yerlərə aparıb çıxarır...**

Bütün bunları yazmaqda məqsədim bədii ədəbiyyata olan baxışımın təsdiqlənməsidir. Və bu da mənim son vaxtlar oxuduğum, lap dəqiq desəm, ötən ilin sonuncu 10 günlüyündə oxuyub bitirdiyim bir xatirə-romanla bağlıdır.

Bəlkə də kimlərsə artıq oxuyubdur. Onların da özəl fikirlərinə hörmətim var. Amma bu məqamda öz düşüncələrimi kağıza köçürmək istəyirəm. Özü də minnətdarlıqla.

"Ömür nağılı" xatirə-romanının müəllifi tanınmış yazıçı-publisist, şair Şövkət Zərin Horovludur. Elə buradaca vurğulayım ki, mən hörmətli Şövkət xanımın şeir kitablarının bir neçəsini zamanında oxumuşam və kitab rəfimdə də öz yerini tutub. Onun şeirləri barədə oxucu fikirlərimi mətbuatda yayımlamışam. İlk dəfə idi ki, mən bu xanım müəllifin iri həcmli nəsr əsərini oxuyurdum. Bu da səbəbsiz olmadı. Kitabın adı məni özünə çəkdi:

- "Ömür nağılı". Özü də xatirə romanı!!!

Adətən "ömür" sözü, "ömür" fikri cəlbedici olur. Şəxsən mən bu sözlə bağlı olan fikirlərə həmişə maraqla yanaşıram. Bu günə qədər də yanılmamışam. Oxuyanda görmüşəm ki, müəllif ömrünün hansısa bir fraqmentini bir anlıq sərgiləyir. Məhz elə bu kitabı oxuyanda da mən bir daha öz hissiyyatıma təşəkkür etdim. Axı həqiqətən bu kitab təkcə müəllifin yox, həm də onun aid olduğu nəslin, soyun, obanın, elatın ömür nağılı idi. Hardan-hara gəldiyini bütün ləngəri ilə, bütün dolamaları ilə, bütün qədəri ilə danışan nağılvari, amma nağılın içindəki həyat gerçəkliyi idi. İndi vurğulamasam, özümü qınayaram. Bilirsiniz nəyi? Yəqin ki, təxmin etdiniz. Etmədinizsə, deyim.

Mən Şövkət xanımın yaddaşına, onun arxiv bilgisinə heyran qaldım. Çünki bu xanım bir elatın demək olar ki, bütün məhlələrini, bütün ailələrini, tayfalarını, böyüklü-kiçikli o qədər xırdalıqla, o qədər həssaslıqla oxucuya danışır ki, şəxsən mən bəzən oxuduğum səhifəni və ya abzası təkrar oxuyurdum ki, görüm müəllif hardasa nəyisə qarışdırırmı? Amma yox, rast gəlmədim! Ona görə də marağım bir az da artdı, daha da həvəsləndim. Romanın sonuncu nöqtəsinə çatmaq üçün tələsdim.

"Ömür nağılı" xatirə-romanı müəllifin həm şahidi, həm iştirakçısı olduğu, həm də özünün ata-anasından, nənə-babasından daha yaşlı qohum-əqrəbasından, doğulub boya-başa çatdığı Cəbrayıl rayonunun Horovlu kəndinin dünya görmüş insanlarından yaddaşına köçürdüyü faktların, bilgilərin, xatirələrin sanki lentə alınmış bir formasıdır. Oxuduqca insan, xüsusilə, köçkünlük həyatını yaşamış insan, Qarabağ savaşının iştirakçısı olan insan Bakıdan çıxıb gedir Araz qırağına. Keçir hələ də yolumuzu gözləyən İrəvana, ordakı yurdlarımıza nəzər ye-




tirir. İlk erməni köçünün Qarabağda məskunlaşdığı günə. İlk erməni fitnəsinin baş qaldırdığı zamanlara... Və beləcə unutqanlığımızla yanaşı xeyirxahlığımızın, qonaqpərvərliyimizin, bir də bəzən həddindən çox insanseverliyimizin bizə yaşatdıqlarına...

Bax, bütün bu dediklərim xanım yazarın ömründən gəlib keçib. Sonda da romana çevrilib. Sadəcə olaraq Şövkət xanım təkcə öz ömründən yox, aid olduğu şəcərənin ömründən, doğulduğu tayfanın, kəndin ömründən keçənləri də bir zəncirin həlqələri kimi birləşdirib pərən düşən xatirələri, faktları, gerçəklikləri bir romanın damı altında oxucu qarşısına çıxardıb.

Mən "Ömür nağıl"nın canlı qəhrəmanı olan Şövkət xanımın bu romanını oxuduqca yaxşı bələd olduğum Cəbrayıl, Hadrut bölgəsini sanki yenidən tanıdım.

Bu coğrafiya sanki göz önümdə canlandı. Horovludan atlanıb Hadrutdan, Tuğdan keçib Şuşa qalasına gedən Kəlbalı ilə birlikdə mən də suvar oldum. Dərədən- təpədən, meşələrdən keçib, Şuşaya dərdimi danışmağa, haqq tələb etməyə getdim. Düşündüm ki, Rus çarının ordakı nümayəndəsi haqq-ədalətə işıq salacaq. Amma...

Torpaqlarımızı yağmalamaqda, ona sahiblənməkdə heç nədən çəkinməyən Rus İmperiyasının əl tulaları olan ermənilərin onda da, indi də etdikləri xəyanətlər, törətdikləri qətliamlar bircə nüansda fərqləndilər. Onda xəncərlə vurmuşdular, indi silahla vurdular. Onda yollara tələ qurmuşdular, indi mina basdırmışdılar. Tam oxşarlıq onda da arxadan vururdular, indi də.

Romanda məni bir oxucu kimi sarsıdan, daha çox ağrıdan var-dövlət, əmlak üstündə ailədaxili, nəsildaxili çəkişmə məqamları oldu. Və bu gün də mala-pula, mülkə görə bir-biri ilə düşmən olan doğma qardaş-bacıların atadan qalan mirasa görə bir-biri ilə küsülü qalanların nəfsi mənə çox acı təsir yaşatdı. Bildiyim bu cür halların kökünün hələ 200 il bundan öncə də olduğunu bir daha bu roman mənə nağıl dili ilə olsa da danışdı.

Xanım müəllifin öz nəslinin, öz kəndinin oxucuya təqdimatındakı səmimiyyəti o qədər inandırıcıdır ki,




şübhəyə iynə ucu qədər də yer qalmır. Kəndin sayılan adamlarının, başbilənlərinin, həqiqi bəy oğlu bəylərin necə qılınc kəsərli sözə malik olduqları, hər kəsin qaydına qalmaları, hətta xeyir-şər mərasimlərində də tutduqları mövqe milli dəyərlərimizin çalarlarıdır. Qız qaçıranın, mal-qarası tələf olanın yanında olmaq, ona dəstək vermək kimi nümunələr xalqımızın genefondunun bir detalıdır. Romanda müəllif özünün həyatı, ağacdan yıxılması, lap elə ailə qurması üçün valideyn istəyinə qarşı gedə bilməməsi gənc ailənin kirayələrdə yaşadığı məşəqqət sonra böyüyən uşaqlarla bağlı yaşadıqları, bir sözlə, bu roman həyatın dibindən bu günə gələn bir yoldur. Həmin yolu Şövkət xanım demək olar ki, hər gün bir iynə boyu gəlməklə mən adlı oxucusunu da yanında gətirib.

Ona görə də birinci hissəsini oxuyub başa çatdığım bu romanın ardını da səbrsizliklə gözləyirəm. Çünki müəllifin hələlik nöqtəsini qoyduğu 1968-ci ilin 30 noyabrından sonra nələrin baş verdiyini bilmək çox maraqlıdır. Burda söhbət Şövkət xanımın özəl həyatında nələrin baş verdiyindən gedir. Çünki mən həmin tarixdə artıq 9 yaşında idim. Və bir məktəbli kimi müəyyən bilgilərdən xəbər tuturdum. Qalanını isə böyüdükcə eşitdim, oxudum, öyrəndim. Bunlar mənim üçün ümumi bilgilərdir. Oxucu olaraq "Ömür nağılı" romanının özündə ehtiva etdiklərini isə Şövkət Zərin Horovlunun ardını yazacağına söz verdiyi romanından oxumaq istəyirəm. Və...

**Sizə can sağlığı, həm də tezliklə "Ömür nağılı"nın ardını oxucuya çatdırmağı arzu edirəm, əziz Şövkət xanım!**

## Pensiya alanlara şad xəbər - Gələn aydan artımlar veriləcək



**"2024-cü ildə respublika üzrə orta aylıq əməkhaqqı 8.1 faiz artmışdırsa, ötən ilin ilk 10 ayında artım 9.4 faiz olub. 2025-ci ilin yekun nominal orta aylıq əməkhaqqı artım fazinin fevral ayının əvvəllərində rəsmi elan ediləcəyi gözlənilir. İlkin gözlənti 9.2 faiz maaş artımıdır". Adalet.az xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. O bildirib ki, bu aydan etibarən bütün növ pensiyaların indeksləşdirilərək artırılması baş verəcək.**

"Bu o deməkdir ki, 540 manat məbləğində orta pensiya alan vətəndaşımızın pensiyasında bu aydan 50 manata yaxın artım olacaq. Yanvar ayının artımı fevral ayını artımı ilə birlikdə ödəniləcək. Nəticədə, 2026-cı ildə Azərbaycanda orta aylıq pensiyanın təxminən 590 manat olacağı proqnozlaşdırılır, yaşa görə orta pensiya isə 629 manata çatacaq və bu məbləğ 2025-ci illə müqayisədə 7.9%-dən çox artım deməkdir".

## Kasıb yatdı, zəngin oyandı - Bir gecədə dəyişən həyat



**Kaliforniya ştatının şimal hissəsindəki kənd ərazidə sadə bir səhər gəzintisinə çıxan cütlük dəyərli sərvətin sahibi olublar.**

Adalet.az xarici KİV-ə istinadən xəbər verir ki, cütlüyün itləri ağac dibində torpağı qazmağa başlayıb. Onlar ağacın dibindən təsadüfən Amerika tarixinin ən böyük nümizmatik xəzinəsi hesab olunan "Saddle Ridge Hoard"u tapıblar.

Daha sonra ərazidə aparılan qazıntılarda ümumilikdə 8 metal qutu və 1847-1894-cü illərə aid 1 427 qızıl sikkə aşkarlanıb. Sikkələr ilkin baxışda təxminən 27 000 dollar dəyərində olsa da, nadir və əla vəziyyətdə olmaları səbəbindən onların bazar dəyəri 10 milyon dollardan çox qiymətləndirilir. Mütəxəssislər bu sikkələrin yaxşı qorunmasının səbəbinin qutuların hava keçirməməsi və torpağın uyğun şəraitdə olması olduğunu bildiriblər.

Tarixçilər buna dəyərli sərvətləri bankda deyil, torpaqda gizlətmək ənənəsinin 19-cu əsrdə yayılmış bir davranış olduğunu deyirlər. Lakin bu pulun kimə məxsus olduğu və nəyə görə bu şəkildə basdırıldığı hələ də müəmmalı qalır.

ABŞ qanunlarına görə, öz mülklərində tapdıqları xəzinəyə sahib olan cütlük sikkələri mərhələli şəkildə satışa çıxararaq böyük gəlir əldə edib. Gəlirin bir hissəsini muzeylərə bağışlayaraq tarixi əhəmiyyətə malik kolleksiyaların sərgilənməsinə dəstək olublar.

## Azərbaycanda 74 stomatoloqun qanunsuz fəaliyyəti aşkarlanıb



**Azərbaycanda ötən il ərzində 74 stomatoloqun qanunsuz fəaliyyəti aşkarlanıb.**

Bu barədə Adalet.az-a Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzindən məlumat verilib.

Bildirilib ki, həmin müddətdə 33 lisenziya şərtləri sualı üzrə, 16 lisenziya olmadan iş və fəaliyyət, 8 lisenziyadan kənar iş və fəaliyyət, 9 sertifikasiya şəhadətnaməsi olmadan özəl tibb fəaliyyəti ilə məşğul olma faktı, 2 lisenziya olmadan iş və fəaliyyət, Sertifikasiya şəhadətnaməsi olmadan və lisenziyadankənar özəl tibb fəaliyyəti ilə məşğul olma faktı, 5 sertifikasiya şəhadətnaməsi olmadan və lisenziyadankənar özəl tibb fəaliyyəti ilə məşğul olma faktı aşkarlanıb.

Bir nəfərdə isə sahibkar tərəfindən yoxlama prosesində yoxlamaya aid sənədlərin yoxlayıcıya təqdim edilməməsinə, yoxlama zamanı yaranan suallara şifahi və (və ya) yazılı izahatlar verilməməsinə, təhrif olunmuş, yanlış məlumatın verilməsinə və ya sahibkarlıq fəaliyyəti üçün istifadə olunan əraziyə, istehsal və emal müəssisələrinə, anbarlara, satış sahələrinə, nəqliyyat vasitələrinə, habelə sahibkarlıq fəaliyyəti üçün istifadə olunan digər yerlərə baxış keçirilməsinə mane olma faktı aşkarlanıb.

**VAQİF YUSİFLİ**
**Filologiya elmləri doktoru**



# AQİL ABBASIN RƏMİŞ HEKAYƏTİ

**RƏMİŞ... Bütün Azərbaycan və onun hüdudlarından kənarda da bu istedadlı, son dərəcə virtuoz sənətkarı - Rafiq Hüseynovu hamı Rəmiş kimi tanıyırdı. Hər hansı bir insana bir ayama qoşanda bəzən onun əsl adı da az qala unudulur. Rafiq Hüseynov da Rəmiş kimi tanınırdı və illər keçəcək, onun ölümsüz sənətindən söz düşəndə Rəmiş yada düşəcək, Rafiq Hüseynov yox.**

Yazıçı Aqil Abbas "525-ci qəzet"də (4-7 noybr saylarında) "Rəmiş" povestini çap etdirib. Mən bilən onların dostluğu adi dostluq səviyyəsini xeyli ötüb keçmişdi. Bu iki insanın münasibətində iki ağdamlının yox (bu vacib şərt deyil), bir-birinin mahiyyətini dərk edən iki insanın -iki ruh adamının "vəhdəti-vücud"undan xəbər verir.

Aqil Abbas Rəmişi Rəmiş qədər tanıyırdı desəm, bəlkə də ifrata vararam, çünki Rəmişin də okeanların dərin qatlarında olan və çox hissəsi suyun altında olan asberqlərə bənzərliyi var. Amma Aqil Abbas o povestdə özünün çox yaxından tanıdığı (bəlkə çoxlarının tanımadığı) Rəmişin obrazını yaradıb və şəxsən mən=Rəmişlə heç bir münasibəti olmayan bir adam ONU Aqil Abbasın tanıdığı və sevdiyi kimi tanıdım və sevdim.

Aqil Abbas əksər nəsr əsərlərində müxtəlif bədii priyomlardan istifadə edir. Onun mümkün qədər həyat həqiqətlərini şablon və ənənəvi üsullarla əks etdirməkdən uzaqlaşıb özünün bildiyi, mükəmməl yiyələndiyi təsvirlərdən istifadə etməsi elə bu povestdə də nəzərə çarpır. Yeri gələndə ciddi, sırf realist təsvirlərə meyl edir, bəzən lirika, bəzən də ironiya, yumor bu təsvirlərə qatılır. "Rəmiş" povestində həm mistikadan, həm yumordan, həm də adi təhkiyədən istifadə olunur və təbii ki, birnəfəsə oxunan bu əsərdə bütövlük itmir.

Povestin başlanğıcında da, sonluğunda da müəllif Rəmişin ölüm səhnəsini təsvir edir. "Mələklər yığılmışdılar Rəmişin başına. O isə ağır-ağır nəfəs alırdı, əgər buna nəfəs almaq demək mümkün idisə, rəngi-rufu qaçmışdı, mələklərin gözü qabağında sönürdü. Vaxtilə Rəmişin ürəyini sinəsindən qoparıb həmin ürəkdəki qanı təmiz çıxıb çıxararaq öpüb, sonra da dodaqlarını yapışdıraraq öz qanıyla dolduran mələk də əlacsız qalmışdı. ...Bu, Rəmişin sonuydu". Qara Niqablı Mələk- mistik obraz.O, Rəmişi aparmağa gəlib.Təbii ki, insan ölüm ayağında nəyisə arzulaya, nəyisə istəyə bilər. Və bütün varlığı ilə gitarasına bağlı idi Rəmiş- "Gitaramı istəyirəm" deyir Rəmiş. Tibb bacısı gitaranı gətirib qoyur Rəmişin sinəsinə. "Ən əziz sevgilisini sinəsində görəndə nəfəs almağı bir az da rahatlaşdı və başladı gitaranı sığallayıb əzizləməyə". Povestin sonunda isə Qara Niqablı mələk Rəmişi qucağına alab qalxdı göylərə.Uçuş başlanır. Son dəfə Rəmiş Qara Niqablı Mələkdən xahiş edir ki, sonuncu dəfə çalsın. Və





çalır, "gitaranın səsi kainatı götürdü başına" "Rəmiş uymuşdu, bütün kainatı da uyutmuşdu".

Bir haşiyə. Rəmiş və gitara. Gitaranın Azərbaycan musiqi alətləri sırasına nə vaxt qoşulduğu haqda dəqiq heç nə bilmirəm. Amma onu bilirəm ki, gitara deyəndə, bu bizə yad olan musiqi alətini bizə doğmalaşdıran ilk ifaçı Rəmiş olub. İndinin özündə də gitarada gözəl ifaçılar var, sonralar da olacaq.Amma Rəmiş birinci idi, Rəmiş əfsanə idi, əfsanəni isə təkrar eləmək mümkünsüzdü.

Povestdə bu başlanğıcla sonluq arasındakı hissədə Rəmişin həm özünəməxsus bir insan, həm də virtuoz gitara ifaçısı kimi obrazı həm real, həm də qeyri-real hadisələrlə diqqəti cəlb edir. Real hadisələr deyəndə Rəmişin elə uşaqlıqdan qeyri=adi musiqi istedadı və harada olursa-olsun (konsertlərdə, restoranlarda, xalq arasında) gitara ilə hamını sehirləndirməsi ayrhələsini ayrı-ayrı təsvirlərdə nəzərə çarpır. Rəmişin böyük musiqi təhsili olmasa da, ilahidən gələn o İŞIQ onu bütün varlığı ilə sehirlədi. Və Rəmiş sübut elədi ki, musiqini hamının sevə biləcəyi, duya biləcəyi, varlığında yaşada biləcəyi əbədi hissə çevirmək üçün gərək kamil olasan.. Kamil sənətkar üçün məhdudluq deyilən anlayış yoxdur. Və bu mənada Rəmişi təkcə gitaraçı kimi tanıtmır Aqil Abbas: "Səhnəyə stul qoydular, amma Rəmiş stulda oturmadı. Sol ayağını qaldırıb qoydu stulun üstünə, sonra simləri sığalladı və başladı Fikrət Əmirovun "Kürdovsşarı"nı çalmağa. Sonra keçdi Azərbaycan kapriççosuna, ordan da qayıtdı filmdə Koqanın çaldığı Paqaninin əsərlərinə. Və uydu getdi. Necə uymuşdusa, zalı da elə uydurmuşdu".

Aqil Abbas Rəmişin çalğılarının insanları necə heyran etməsini təsvir edir, inandırıcıdır bütün bu səhnələr. Onun rus lyonla ilə bağlı görüşləri Rəmişin təkcə yaşadığı məmləkətdə deyil, ondan kənarda da hüsn-rəğbət qazanması da uydurma deyil. "lyonya üzünü tutdu zala və dedi: -Əziz dostlar, bu oğlan bakılıdı. Dünyada bundan böyük gitarist tanımıram...Volodyaya dedim ki, əsl Paqanini budu, bunun yerişini, duruşunu, əl hərəkətlərini, jestlərini öyrən. Yəni bu filmin belə gözəl alınmasında Rameşin də böyük rolu var".

Aqil Abbas Rəmişi Paqanini ilə qarşılaşdırır. Əlbəttə, bu olmayan və ola bilməyəcək qeyri-real bir görüşü təsvir etməkdən məqsəd heç də Rəmişin Paqaniniyə oxşamasını sübut etmək deyil. Oxşarlıq təqlidçiliyə də çevrilə bilər. Məqsəd odur ki, Rəmişin sənət aləmindəki etiketləri müəyyənləşsin. Dahi Paqanini skripkada əvəzolunmaz idi. Dünyaca. Amma əsrlər ötdükcə hər məmləkətdə yeni virtuoz ifaçılar yetişir. Rəmiş də belə ifaçılardan biri.. "Paqaninin köməkçisinin gözləri çıxmışdı kəlləsinə. Ömründə belə gitara səsi eşitməmişdi. Melodiya onu dəli etmişdi. Axırda Paqanini skripkanı qoydu stolun üstə. Rəmiş isə hələ də çalırdı. Paqanini soruşdu:-Hə, necədi? Rəmiş siqaretindən bir qullab vurub dedi: "Böyük sənətkarsan. Məndən də böyük sənəftkarsan. Deyilən kimi varsan, sən insan deyilsən, doğrudan da şeytansan. Paqanini gülüb dedi:-Mənə şeytan deyən az idi, biri də göylərdən gəldi. Sən də mələk deyilsən!"

Aqil Abbasın məqsədi o deyil ki, bir Azərbaycan sənətçisini dünyanın dahi bir sənətçisi ilə tay tutsun. Sadəcə olaraq bu qeyri-real bir səhnəni təsvir etməklə bütün əsrlərdə musiqinin ilahi gücünün hər şeyə qadir olduğunu sübut eləməkdir.Rəmişin təkcə Paqanini ilə deyil, dünyaya meydan oxuyan, cahangirlər cahangiri Əmir Teymurla da "görüşü" məhz elə bu məqsədə xidmət edir.Əmir Teymurla "görüş"də Qədir Rüstəmov da var. "Rəmiş keçdi "Ağ Segah"a. Qədir bir dəfə ağzını yumub açdı, ikinci dəfə də ağzını yumub açdı və sonra Rəmişin çaldıqları sözə çevrilib ağzında bulaq kimi qaynayıb çay kimi tökülməyə başladı. Əmir Teymur da, çadırdakılar da qaldılar bu çayın altında. Qədir bir az "Ağ Segah"da gəzişəndən sonra keçdi "Sona bülbüllər"ə. Sonra da özü Rəmişə ayaq verdi ki, Rəmiş çalsın. Rəmiş yenə dağı arana, aranı qatdı dağa, gah yağış yağdırdı. Onu kürəyindən vuran döyüşçü hönkür-hönkür ağlayırdı".

Heç bir böyük sənətkarı onun çevrəsi, mühiti olmadan təsəvvür etmək olmaz. Rəmişin sənət aləmində onun təqdir etdiyi və onu təqdir edənlər heç də az deyildi. Rəmiş ilk növbədə Qarabağ musiqi aləminin yetirməsiydi, ilk çalğını böyük tarzən Qurban əminin tarında səsləndirmişdi. Xan əmi, Mütəllim Mütəllimov, Zülfü Adıgözəlov, Yaqub Məmmədov, Şahmalı Kürdoğlu, Arif Babayev, Qədir Rüstəfmov və onlarla çalıb-çağıran sənətkarlar aləmində dünyaya göz açmışdı. Bu sırada onun Qədir Rüstəmovla çox yaxın dostluğu və sənət müttəfiqi olmasını Aqil Abbas illərdən bəri seyr edib və povestdə "ölmüş" Qədirlə Rəmişi Əmir Teymurun hüzuruna aparmasını da təsadüfü saymaq olmaz. Xatırladım ki, Qədir Rüstəmov haqqında ilk povesti də Aqil Abbas yazıb. Qədir Rüstəmov sənəti möcüzə deyildimi? Və bu iki sənətkarın -Rəmişin və Qədirin bir toyda ya bir konsertdə ifalarına qulaq açanlar deyirlər ki, Allah da göydən yerə enib onlara qulaq asırmış. Rəmişin musiqi zövqü, özü kimi hər hansı istedadlı ifaçıya sevgisi Aşıq Ədalətlə bağlı bir səhnədə təcəssümünü tapır.

Povestdə yumorlu səhnələr az deyil və şirin Ağdam ləhcəsinin Aqil Abbas dili ilə əksər təsvirlərdə səslənməsi də təsadüfi deyil. Bu danışıq tərzi povesti daha da oxunaqlı edir.

Təbii ki, Aqil Abbas Rəmişin təkcə ifaçılığını, bir sənətkar kimi özünəməxsusluğunu, ağıllı, düşünülmüş hərəkətlərini, insanlarla səmimi rəftarını deyil, həm də insan kimi keçirdiyi hissləri, duyğuları, ağrıları-acıları da unutmur. Aqil Abbas yazır ki: Rəmiş "Ömründə heç kimi sevməmişdi. Onda sevgi hissi yox idi. Birinci-ikinci sinifdə oxuyanda müəlliməsindən xoşu gəlirdi, xüsusilə onun saçlarını sığallamasından. Sonra Ağdama köçdülər, bir də o müəlliməni görmədi. Amma müəlliməsinin barmaqlarının ətrini həmişə burnunda hiss edirdi. Pəncərədən baxan qıza isə sadəcə vurulmuşdu". Əlbəttə, müəlliflə mübahisə etmək də olar.Vurulmaq, kimi isə sevməyin başlanğıcıdır.

Rəmişin çox həssəs bir insan olduğunu Aqil Abbas hər bir təsvir etdiyi səhnədə nəzərə çarpdırır. Dostları ilə də, sənət yoldaşları ilə də o "dəli-dolu" Rəmiş həmişə səmimidir,bir yerdə özünü böyük sənətkar adlandırsa da, o səmimilik itmir. Amma baxın, o da bu sənətin ona gətirdiyi şöhrətdən yorulur, o da asudəlik arzulayır. "Yorulmuşdu, çox yorulmuşdu. Əslində, buna yorulmaq demək olmaxdı bezmişdi. Hər şeydən bezmişdi, şöhrətdən də, dostlarından da, qadınlardan da. Elə Rəmiş olmaqdan da bezmişdi. Tıncıxırdı. Nə qədər belə yaşmaq olar? Yaşamaq ona çox mənasız olmuşdu. Özü də tez-tez baş verirdi. Belə olanda oturub maşina qaçırdı kəndlərinə". Və kənd onun sıxılmış ürəyinə dərman idi...

Yazını başa çatdıranda sufilərin məhşur təlimi yada düşdü. Məncə, Rəmiş də bir sufi ömrü yaşadı. kamilləşdi,şəriət, təriqət, mərifət və həqiqət mərhələlərini keçdi. Allahı dərk və qəbul edib həqiqət mənzilinə yetdi, öz Allahına yetişdi. Ruhu şad olsun.

**Aqil Abbasa da Rəmişi bizə daha yaxşı tanıtdığına görə təşəkkür...**



Çingiz Nağıyev,
"Qızıl qələm" mükafatı laureatı

# BƏXTİYAR NEFTÇİNİN 100 İLLİYİ

**Qədim Şəki ölkəmizin tarixinə bir çox şəxsiyyətlər bəxş etmişdir. Onları saymaqla qurtarmaq çətindir. Dediyim fikri təsdiq etmək üçün bir neçə şəxsiyyətin adını çəkmək istəyirəm. Azərbaycan dramaturgiyasının təməlini qoyan dahi mütəfəkkir Mirzə Fətəli Axundzadə, dilçilik tarixinin karifeylərindən akademik Əzəl Dəmirçizadə, şərqin ilk bəstəkar qadını Şəfiqə Axundova, yazıçı-dramaturq Sabit Rəhman, akademik Yaşar Qarayev, dahi şair Bəxtiyar Vahabzadə və başqaları. Azərbaycan neft sənayesi sahəsində də görkəmli şəxsiyyət Bəxtiyar Məmmədov öz adını tarixə yazdırmışdır.**

Şəkidə tarixən dəniz və göl olmadığına görə həmişə deyirlər ki, şəkililər üzgüçülük bacarmır. Amma şəkili neftçi Bəxtiyar Məmmədov Xəzərdə üzə-üzə neft daşları kimi nəhəng bir şəhər yaradıb. Bu neft sənayesində dünyada bir ilk idi və sonralar Bəxtiyar Məmmədovun təcrübəsi bir çox xarici ölkələrdə də reallaşmışdır. Bugünkü mövzumuzun qəhrəmanı da gözəl insan, mətin iradəli şəxsiyyət, sevdiyi neftçi peşəsinin fanatı Bəxtiyar Məmmədovdur. Bəxtiyar Məmmədovun anadan olmasının 100 illiyinə həsr edilmiş toplantı Şəkidə fəaliyyət göstərən Çingiz Mustafayev adına klubda baş tutan bu toplantının aparıcısı Şəki şəhər Nakam adına Mərkəzi Kitabxananın şöbə müdiri, bədii qiraət ustası Dilbər xanım Yaqubova toplantı iştirakçılarını salamladı və Bəxtiyar Məmmədovun həyatı, qəhrəmanlıq təcəssümü olan neftçi fəaliyyəti haqqında danışarkən dedi:

*Neft daşları - ürəyimin parası,*
*Qara qızıl səltənətim, sərvətim,*
*Qara daşlar - gözlərimin qarası,*
*Neft daşları - şeiriyyətim, söhbətim,*
*Dalğalarda ağ qanadlı kəhərim,*
*Zülmətlərə nur paylayan şəhərim,*
*Neft daşları - qəhrəmanlar diyarım,*
*Neft daşları - məhəbbətim, şöhrətim.*
*Məftun edən həm doğmanı, həm yadı,*
*Mavi gözlü Xəzərimin övladı.*
*Neft daşları - xəyalımın qanadı,*
*Neft daşları - əzəmətim, qüdrətim.*
*Ümman üstə poladlaşan izlərim,*
*Hüsnündən doymadı mənim gözlərim.*
*Neft daşları - nağıllaşan sözlərim,*
*Neft daşları - dizlərimdə taqətim.*
*Neft daşları - ürəyimin aparas,*
*Möhtəşəmlik abidəmsən, zəhmətim,*
*Qara daşlar gözlərimin qarası.*

-Bəxtiyar Məmmdrza oğlu Məmmədov 1925-ci il 18 oktyabr tarixində Şəkidə anadan olub. O, 10 nömrəli məktəbdə orta təhsilini başa vurduqdan sonra 1943-cü ildə o dövrün ən nüfuzlu ali məktəblərindən biri olan Azərbaycan Sənaye İnstitutuna daxil olmuş və 1949-cu ildə həmin institutu bitirərək Dağmədən mühəndisliyi ixtisasına yiyələnmişdir. Bəxtiyar Məmmədov Neft-qazçıxarma sənayesində əmək fəaliyyətinə institutun sonuncu kursunda olarkən başlamışdır. Belə ki. o, 1948-ci ildə "Orconikidzeneft" Neft Mədən İdarəsinin neft hasilatı üzrə usta köməkçisi, usta, sonra mədən rəisinin köməkçisi və böyük mühəndis işləmişdir. 1951-1952-ci illərdə "Qobustanneft" trestinin baş mühəndisi, Umbakı mədəninin rəisi, 1952-1955-ci illərdə "Gürganneft" Neft Mədən İdarəsində birinci və ikinci mədənlərin müdiri, 1955-1962-ci illərdə Neft daşları neft-qaz çıxarma idarəsində rəis, 1962-1963-cü illərdə "Azneft" Birliyinin rəis müavini, baş mühəndis, 1963-1965-ci illərdə "Dənizneft" Baş İdarəsinin rəisi, 1965-1970-ci illərdə Azərbaycan SSRİ-nin Neft Sənayesi Naziri olmuşdur. Bundan sonra Bəxtiyar Məmmədov 1970-1972-ci illərdə "Xəzərdənizneft" İstehsalat Birliyinin rəisi, 1972-1974-cü illərdə "26 Bakı Komissarı" adına Neft-Qazçıxarma İdarəsinin rəisi işləmişdir. 1974-1976-cı illərdə xaricə ezamiyyətə göndərilmiş, Nigeriyada dənizdən neft çıxarma layihə rəhbərinin baş məsləhətçisi olmuşdur. Yəni orada bütün işlər Bəxtiyar Məmmədovun təcrübəsi əsasında təşkil edilmiş və dənizdən neft çıxarılmışdır. 1976-1982-ci illərdə "Dənizneftqazlayihə" Dövlət Elmi Tədqiqat Layihəsi İnstitutunun elmi işlər üzrə direktor müavini, 1982-1986-cı illərdə SSRİ-nin 50 illiyi adına Neft-Qazçıxarma İdarəsinin rəisi, 1986-1989-cu



illərdə "Dənizneftqazlayihə" İnstitutunda şöbə rəisi işləmişdir.

30 yaşında olarkən Bəxtiyar Məmmədov dənizdə yeni yataqlar aşkar edilən bir zamanda, yəni 1955-ci ildə "Gürganneft" - indiki Neft daşlarında neft mədənləri idarəsinə rəis təyin edilmişdir. Bəxtiyar Məmmədovun rəhbərlik etdiyi dövrdə Neft daşları da gündən-günə şöhrətlənirdi. Onun bilavasitə rəhbərliyi və iştirakı ilə yüzlərlə neft quyuları qazılıb mənimsənilmiş, 10 kilometrlərlə estakadalar salınmış və həmin estakadalar üzərində yüzlərlə meydançalar, iki yaşayış qəsəbəsi, gəmiyanalma körpüləri, şirin su təchizatı ilə əlaqədar müasir qurğular, 300 yerlik mədəniyyət sarayı, yeməkxanalar, dəniz suyunu mexaniki qarışıqlardan təmizləyən sutəmizləyici qurğular, yanğınsöndürmə nasos stansiyaları, elektrik enerjisi paylayan yarımstansiyalar, 100 kilometrlərlə aşağı və yüksək gərginlikli kabel xətləri, aşağı və yüksək təzyiqli qaz, su, neft xətləri yaradılmış və istifadəyə verilmişdir.

Həmin illərdə Bəxtiyar Məmmədovun təşəbbüsü ilə Neft daşlarında işləyən gənc fəhlələr estakadalar üzərində tikilmiş texnikumda təhsil alırdılar. Eyni zamanda Neft daşlarında bir çox mədəni məişət obyektləri, kitabxanalar, mağazalar və sair tikilib istifadəyə verilmişdir. O zaman çoxlarına möcüzə kimi görünən Neft daşlarının mərkəzində 6000 m2 sahəsi olan süni ada yaradılmış, gücü sonralar 30 000 kilovat saata çatdırılan buxar turbinli elektrik stansiyasının birinci mərhələsi işə salınmışdır.

Bəxtiyar Məmmədovun rəhbərlik etdiyi dövrdə Neft daşlarında həlli çətin olan məsələlərdən biri də həmin əraziyə vertolyot enişi meydançası idi. Eyni zamanda "Volqoqrad" sərnişin gəmisi ilə neftçilərin dənizə və sahilə daşınmasında gəmiyanalma meydançasının tikilməsi də öz həllini tapmışdır. Bəxtiyar Məmmədov rəis təyin edildikdən sonra bütün bunların öhdəsindən məharətlə gəlmiş və bir çox məsələlərdə neftçilərin həyatının təhlükəsizliyinin təminatçısına çevrilmişdir.

1955-ci ildə Bəxtiyar Məmmədov Neft daşları idarəsinə rəis təyin edilərkən neft hasilatı 2 milyon 404 min ton laylara vurulan suyun həcmi 3 milyon 736 min ton, elektrik enerjisi istehsalı 5,9 min kilovat saat olduğu halda, o, öz rəhbərliyi illərində bu göstəriciləri 3-4 dəfə artırmışdır. Dünyada neftli laylara süni təsir metodlarının ilk təşəbbüsçüsü olan Bəxtiyar Məmmədov Neft daşları yataqlarında hasilatları dəfələrlə artırmağa nail olmuşdur.

Ümumiyyətlə, Xəzər dənizində neft və qaz ehtiyatlarının kompleks mənimsənilməsində Bəxtiyar Məmmədovun gördüyü işlər əvəzedilməzdir. Qısa bir vaxtda açıq dənizdə Neft daşlarının nəhəng neft mərkəzinə çevrilməsində Bəxtiyar Məmmədovun misilsiz xidmətləri vardır. Onun bir rəhbər kimi mədəni səviyyəsi də çox yüksək olmuş və kollektiv onu təkcə yaradıcı, təşəbbüskar, mehriban rəhbər kimi deyil, qayğıkeş insan kimi də sevmiş və hörmət etmişlər.

Bəxtiyar Məmmədov "Azneft" Birliyinin rəisi, "Başdənizneft" İdarəsinin rəisi, Azərbaycan SSRİ-nin Neft Sənaye Naziri işləyəndə də öz mənəvi keyfiyyətləri ilə çoxlarına nümunə olmuşdur. O, sanki hər addımbaşı onu əhatə edən xoşbəxtliyi ətrafındakılara paylamaqdan zövq alırdı. Bəxtiyar Məmmədov neftçilərin qəlbində daim yaşamış və yaşamaqdadır.

Bəxtiyar Məmmədov eyni zamanda neft və qaz yataqlarının istismarı sahəsində tanınmış alim idi. O, ixtiralarına görə 9 müəlliflik şəhadətnaməsi almışdır. Məsul vəzifələrdə olarkən dəfələrlə Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsinin tərkibinə daxil edilmiş, o istedadlı mühəndis və təşkilatçı kimi qeyri-adi bacarığına görə respublikanın dənizdə neft hasilatının inkişafı və təşəkkül tapmasında misilsiz xidmətlərinə görə"Sosialist əməyi qəhrəmanı", Azərbaycanın Dövlət mükafatı laureatı adlarına layiq görülmüşdür. O, eyni zamanda "Azərbaycan neft ustası", "Azərbaycanın əməkdar mühəndisi", "SSRİ-nin fəxri neftçisi" adlarına layiq görülmüşdür. Bəxtiyar Məmmədov ən yüksək olan "Lenin" ordeni, "Oktyabr inqilabı", "Qırmızı əmək bayrağı" ordeni və başqa medallarla təltif edilmişdir. Bəxtiyar Məmmədov 4 çağırış Azərbaycan SRİ-nin və 1 çağırış SSRİ-nin Ali Sovetinin deputatı olmuşdur. O, 60-dan çox elmi məqalənin, onlarla ixtiraya və səmərələşditici təklifə görə patent almışdır. Onun bu sahədə yazdığı elmi məqalələr bu gün də neftmilərin stolüstü kitabıdı.

Toplantı iştirakçılarına Bəxtiyar Məmmədovun həyat və fəaliyyətinə həsr edilmiş sənədli qısametrajlı film də təqdim edildi. Sonra Şəki ağsaqqallarından Lütvəli Əliyev, Fərahim Qarayev, Töhrab Hüseynov, İbrahim Məmmədov, "Əməkdar jurnalist", " Şəki" qəzetinin baş redaktoru Akif salam və başqaları çıxış edərək onun Şəki ilə əlaqələrindən və bir çox şəxsiyyətlərlə dostluq münasibətlərindən danışdılar.

**Bəxtiyar Məmmədovun ailəsi adından oğlu Yaşar Məmmədov, qızları İntizar və Yeganə videogörüntü vasitəsilə və yaxın qohumu Seyran Məmmədov. Həkim Gülnarə xanım toplantı iştirakçılaran və tədbirin təşkilatçılarına öz təşəkkürlərini. Minnətdarlıqlarını bildirdilər. Tədbirdə neftçilərə həsr edilmiş mahnılar və şeirlər səsləndirildi.**

**Şəki**

## *Həcc ziyarətinə getmək istəyənlərin nəzərinə!*

**Qafqaz Müsəlmanları İdarəsi Həcc ziyarəti ilə bağlı çağırış edib.**



Adalet.az xəbər verir ki, bu barədə QMİ-nin Xarici Əlaqələr şöbəsinin müdiri, Həcc elektron sistem rəhbəri Vüsal Cahangiri məlumat yayıb. Onun sözlərinə görə, Səudiyyə Ərəbistanı Həcc və Ümrə nazirliynin dünyadakı bütün Həcc missiyalarına Həccə qeydiyyat prosedurlarının erkən bitirilməsini ciddi şəkildə tələb edir:

"Belə ki, Ramazan ayının 1-dən vizaların verilməsi prosesinə start veriləcək və ay yarım ərzində yekunlaşacaq. Ona görə, Həccə niyyətli olan vətəndaşlarımızdan xahiş edirik ki, yubanmadan gəlib qeydiyyata alınsınlar. Kvotanın dolub-dolmamasınsan asılı olmayaraq sənədlərin qəbulu 15 fevral tarixində bitəcək".

## *Yaşından 20 il gənc görünənlərin imtina etdiyi 6 vərdiş*

**Bəzi insanlar sanki qocalma prosesinə meydan oxuyur və yaşlarından onilliklər daha gənc görünürlər.**

Adalet.az xəbər verir ki, vegoutmag.com-un yazdığına görə, yaşdan cavan görünmək əbədi gənclik mənbəyi tapmaq və ya prosedurlara minlərlə pul xərcləmək demək deyil. Bunun əvəzinə, çoxumuzun fərqinə varmadan gündəlik həyatında saxladığı və bizə əlavə illər qazandıran bəzi populyar vərdişlərdən imtina etmək vacibdir.

**1. Saatlarla hərəkətsiz oturmaq**

Xeyli gənc görünən insanlar adətən saatlarla bir yerdə oturmurlar. Onlar iclasları gəzərək keçirir, ayaqüstü işləmək üçün masalardan istifadə edir və ya gün ərzində qısa "hərəkət fasilələri" edirlər.

Araşdırmalar da bunu təsdiqləyir. Uzun müddət oturmaq hüceyrələrin qocalmasını sürətləndirir və duruşdan tutmuş dərinin elastikliyinə qədər bir çox amillərə mənfi təsir göstərir.

**2. Nəzarət edə bilmədikləri şeylərə görə davamlı stress keçirmək**

Daim yorğun və tükənmiş görünən insanlar çox vaxt gecələri xəbər başlıqları üzündən yata bilməyən, başqalarının fikrinə həddən artıq önəm verən və ya hipotetik fəlakətlər barədə narahat olan şəxslərdir.

Yaşından 20 il cavan görünən insan isə, əlbəttə ki, vacib məsələlərə görə narahatlıq ifadə edə bilər, amma bu gərginliyi nə çiyinlərində, nə də üzündə daşıyır. Onlar anlayıblar ki, xroniki stress hüceyrə səviyyəsində qocaldır.

**3. Enerji mənbəyi kimi əsasən emal olunmuş qidalarla qidalanmaq**

Bu insanlar mütləq son dəbdə olan pəhrizə əməl etmir və ya hər kalorini saymırlar. Amma onların qidasının böyük hissəsi uzun tərkib siyahısı olan qablaşdırmalarda satılmır.

Dərinizin hüceyrələri, beyninizin hüceyrələri - hər şey sizdən aldığı materiallar əsasında yenilənir. Orqanizmi konservantlar, süni boyalar və naməlum kimyəvi maddələrlə qidalandırırsınızsa, özünüzün də qurumuş və sağlam olmayan görünüş almasına təəccüblənməyin.

**4. "Məhsuldarlıq" naminə yuxuya qənaət etmək**

Özünüzə illər əlavə etməyin ən sürətli yolu bir neçə yuxusuz gecə keçirməkdir. Amma yaşından cavan görünən insanlar yuxunu qiymətli resurs kimi qoruyurlar.

Yuxu zamanı orqanizm böyümə hormonu ifraz edir, zədələnmiş hüceyrələri bərpa edir və yaddaşı möhkəmləndirir. Müntəzəm olaraq gecə yeddi-doqquz saat yatan insanlar təkcə daha gənc görünmür. Onlar daha aydın düşünür, daha yaxşı hərəkət edir və stressin öhdəsindən daha asan gəlirlər.

**5. Diskomfortdan hər vəchlə qaçmaq**

Paradoksal səslənsə də, daha gənc görünən insanlar tez-tez şüurlu şəkildə diskomfortu seçirlər. Soyuq duşlar, çətin məşqlər, onları yenidən "başlayan" vəziyyətinə salan yeni bacarıqların öyrənilməsi buna daxildir. Onlar komfort zonasından çıxaran təcrübələr axtarırlar.

Özünüzə müntəzəm çağırış etdikdə bədəniniz və zehniniz adaptiv qalır. Tədqiqatçıların "koqnitiv elastiklik" adlandırdığı qabiliyyəti qoruyursunuz. Hüceyrələrinizə sözün əsl mənasında hələ də inkişaf etdiyiniz, hələ də canlı və enerjili olduğunuz mesajını göndərirsiniz.

**6. Keçmişdə və ya gələcəkdə yaşamaq**

İnsanları vaxtından əvvəl qocaldan son vərdiş zehni "zaman səyahətidir".

Bu, elmi-fantastik yox, davamlı olaraq keçmiş uğur və səhvlər üzərində düşünmək və ya heç vaxt baş verməyə biləcək gələcəkdən narahat olmaqdır.

Tam şəkildə indiki ana fokuslandıqda isə insan özünü peşmanlıq və ya qorxu ilə tükətmir. Üzdə gələcəklə bağlı narahatlıq qırışları və ya keçmiş incikliklərin izləri olmur. Belə insanlar real zamanda qocalır, xəyali zaman səyahəti ilə prosesi sürətləndirmirlər.

# C.Marinaj: "Qaranlıq aydınlığın yonulduğu materialdır"

*Hörmətli oxucular! Tanınmış özbək şairi və jurnalisti, Azərbayan ədəbiyyatının tədqiqatçı və təbliğatçısı Cahangir Namazovun müasir dünya ədəbiyyatının ünlü nümayəndələrindən alban əsilli amerikan şairi Cek Marinajla müahibəsini sizə təqdim edirik. C.Marinaj şair, yazıçı, ədəbi tənqidçi, naşir, fəlsəfə doktoru və tərcüməçidir. O, müasir dünya ədəbiyyatnda "protonizm nəzəriyyəsi" kimi tanınan bədii tənqid üsulunun banisidir.*

**Cahangir Namazov: Müsahibəmizin Azərbayanda dərc olunacağını nəzərə alıb, gəlin söhbətimizə Azərbaycan ədəbiyyatından başlayaq.**

**Cek Marinaj:** Azərbayan ədəbiyyatının da bir çox xalqların ədəbiyyatı kimi, məncə, əyalət çərçivələrini qıraraq, dünya ədəbiyyat meridianlarına çıxmasına ehtiyac var. Bugünkü dünya qlobal dünyadır. Gərək yazarlar öz əsərlərini dünya oxucusuna hesablasınlar, dünya insanını maraqlandıran mövzular və üslublara üz tutsunlar.

**C.N: Albaniyada keçirdiyiniz uşaqlıq illəri ilə ABŞ-dakı yaradıcı həyatınızı müqayisə etdikdə, daxili aləminizdə hansı fərqləri hiss edirsiniz?**

**C.M:** İçimdə iki mənzərə var. Birincisi, doğma dağların daş sükutudur. Bu sükut özünəməxsus sintaksisə malikdir. Külək isə gənc şairin ilk poetik ifadələrinin redaktoru funksiyasını yerinə yetirir. O dövrün Albaniyası məhdudiyyətlər məktəbi idi - siyasi, iqtisadi və leksik məhdudiyyətlər. Ehtiyatlılıq nitqimizi formalaşdırırdı, metafora isə yalnız bədii seçim deyil, həm də sığınacaq idi. İlk açıq risklərim - "Atlar" şeirimdə olduğu kimi - tarixə toxunma cəhdlərim hər cümlənin arxasında at nallarının səsini eşitməyi, bir obraz üzərində tarixin təzyiqini duymağı mənə öyrətdi. İkinci mənzərə isə Amerika səhifəsidir - geniş, çoxsəsli və bəzən çaşdırıcı dərəcədə sərbəst. Burda "mən" anlayışının öz lüğəti, öz dialektləri var. Xarici senzorlardan azad olan daxili dünya artıq öz diqqət və məsuliyyət etikası ilə yaşamalıdır. Mən bunu "Protonizm intizamı" adlandırıram. İstər mətn, istər həyat, istər mədəniyyət olsun - başlanğıcı canlı olandan götürməli, inkarın elektron"undan çox, "möhkəm proton"u üstün tutmalı, sorğudan həqiqətə doğru, dağıtmaq yox, qurmaq niyyəti ilə irəliləməlidir. Albaniya mənə şifahi yaddaşın ritmini və hər sözdəki mənəvi məsuliyyəti, Amerika isə həmin ritmi müxtəlif səslərlə yoxlamaq və üfüqü genişləndirmək imkanı verdi. Əslində, daxili dünyam iki hal arasında hərəkət edir: dağların sərt işığından öyrəndiyim ayıqlıq və sinif otaqlarında, redaksiya masalarında formalaşan səxavət. Son işlərimdə hər iki coğrafiya var: Əgər bir cümlə ilə ifadə etməli olsam, belə deyərdim: **albaniyalı uşaq mənanın içində sağ qalmağı öyrəndi, amerikalı yazıçı isə onu böyütməyi öyrənir.**

**C.N: Sizcə, bugünkü dünyada insanlığın ən böyük mənəvi problemi nədir?**

**C.M:** Ən çox rastlaşdığım şey diqqət aclığıdır. Bizdə fikir və istəklərin çatışmazlığı yoxdur; əksinə, çatışmayan şey, bir başqasına yetərincə diqqətlə baxa biləcək, beləliklə də şəfqətin məsuliyyətə çevrilməsinə imkan verəcək intizamlı baxışdır. Elə buna görə də, protonizmə görə, söhbət əvvəlcə bir əsərdə və ya bir insanda estetik, intellektual və əxlaqi baxımdan baş verən nələr varsa, onlardan başlamalıdır, sonra isə çatışmazlıqları sadalamaq lazımdır. Boşluq sadəcə iman və ya sevgi yoxluğunda deyil; bu, baxmaq, dinləmək və sonra qurmaq bacarığını itirmiş bir etik duyğunun solmasıdır.

**C.N: Belə demək olarmı ki, məhz bu həyat təcrübələri sizi protonizm nəzəriyyəsini formalaşdırmağa sövq edib?**

**C.M:** Əlbəttə, çünki protonizm seminar otağında yaranmayıb. O, böhranlardan süzülüb ortaya çıxıb. Postkommunist Albaniyasında mən sözün həm bədəni necə təhlükəyə atacağı, həm də bir xalqı oyada biləcəyini öyrəndim. "Atlar" şeirim çıxanda onun avtoritar "sürü instinkti"nə qarşı satirası həm gizli alqışlar, həm də rəsmi qəzəblə qarşılandı. O göstərdi ki, dil insan ləyaqətini ya əsərətdə saxlaya, ya da azad edə bilər. Sonra dağlardan qaçdım. Qorxu, qətiyyət və "biz" deməyin qiymətini öyrədən bir təhsil məni bir sualla üz-üzə qoydu: hansı tənqid həyatın yaşamasına kömək edir? Amerikaya çatanda mən başqa bir qütblə qarşılaşdım - burda intellektual müzakirələrdə bəzən hər şeyi tənqid etmək və dağıtmaq dərinlik hesab olunurdu. Çoxlu rəy və məqalə gördüm - ritorik baxımdan parlaq, amma sosial baxımdan son dərəcə sönük. Belə tənqidlər tənqidçinin parıltısını artırır, amma əsərin oxucu və mədəniyyət üçün mümkün xidmətini azaldırdı. Protonizm bu vəziyyətə bir düzəliş kimi meydana gəldi: tənqidçidən tələb olunan metod əvvəlcə mətnin həyatverici elementlərindən başlamaq, sonra tənqid sərhədlərinə keçmək, beləliklə, verilən hökmü nümayişə deyil, mədəni məsuliyyət aktına çevirməkdir. Formal olaraq, protonizm beş əsas istiqamət üzərində formalaşıb: protonimotika, bərpa, araşdırma, həqiqət və əxlaq. Bunların hər biri əsərdə estetik, intellektual və əxlaqi baxımdan həyatvrici elementlərə diqqəti yönəltmək üçün nəzərdə tutulub, yalnız bundan sonra çatışmazlıqlar qeyd olunur. Amma bundan məqsəd əsla sadəlövh tərif deyil. Məqsəd inkarın asan cazibəsinə qarşı duran ardıcıl diqqətdir.

**C.N: Bununla belə, müxtəlif mədəniyyətlərdən olan oxucular protonizmi fərqli qəbul edir. Nəzəriyyəniz Şərq və Qərbdə necə qarşılanır, fərqlər varmı?**

**C.M:** Əslində, cazibə mərkəzi eynidir, fərq yalnız orbitlərdədir. Əgər bir fərqdən danışmaq lazımdırsa, bu, ton fərqidir, mahiyyət fərqi deyil. Şərqdə protonizm çox vaxt tədris və davranış etikası kimi qəbul olunur. Qərbdə isə o, çoxsəsli tənqid içində fəlsəfi bir mövqe kimi müzakirə edilir. Hər iki yol eyni məqsədə xidmət edir - **mətndə həyatın başladığı nöqtədən başlamaq və ehtiyatla həqiqətə doğru irəliləmək.**

**C.N: Məncə, oxucularımızın çoxu bilir ki, protonizm ədəbiyyatda "müsbət" anlayışını vurğulayır. Amma qaranlıq, ağrı və facie ilə üzləşmədən böyük sənət mümkündürmü?**

**C.M:** Protonizmdə "müsbət" heç də qaranlığı inkar etmək deyil. O, **intizamlı işıqla qaranlığa daxil olmaqdır.** Böyük sənət əzabdan üz çevirmir - o, predmetə daha uzunmüddətli, daha dəqiq və daha məsuliyyətlə baxır. Az öncə dediyim kimi, protonizm tələb edir ki, tənqidin ilk addımı əsərdə uğursuzluqdan öncə, həyatverici cəhətlərə yönəlmək olmalıdır. Qaranlıq hər mərhələdə mövcuddur, amma heç vaxt son məqsəd deyil; o, aydınlığın yonulduğu materialdır.

**C.N: Ədəbiyyat üzrə Nobel mükafatına bir neçə dəfə namizədliyiniz irəli sürülüb. Bu gün də potensial namizədsiniz. Bəzi tənqidçilərin fikrincə, bu mükafatın verilməsinə siyasi amillərin təsiri var. Fikrinizcə, siyasi amil ədəbi faktın dəyərini verməyə qabildirmi?**

**C.M: Mükafatlar hava hadisəsidir, ədəbiyyat isə iqlim.** Mən bu sürət əsrində kitabları yaddan çıxarmayan hər bir quruma minnətdaram, amma ədəbiyyatın dəyərinin institutların küləyindən asılı bir referendumla verilməsini istəmirəm. Bununla belə, mədəni institutların tarixdən kənarda dayandığını iddia edə bilmərik, onlar həm işıq saçır, həm də kölgə salır. Bəs, ədəbiyyatın gücünü necə ölçməliyik? Əvvəlcə əsərin oxucu düşüncəsi və cəmiyyətdə **nələr elədiyinə** baxmaq lazımdır. Qavrayış aydınlaşmalı, vicdan genişlənməli, düşüncə daha tələbkar olmalıdır. Sonra bu qazancları **həqiqət və zaman qarşısında sınamalıyıq.** Siyasi təsir bəzən görüntünü sürətləndirə bilər, amma **davamlılığı təmin edə bilməz.**





**C.N: Müasir ədəbi mənzərədə romanlar və hekayələr daha çox oxucu cəlb edir, poeziya isə daha dar bir çevrəyə xitab edir. Sizcə, poeziyanın gələcəyi necə olacaq?**

**C.M.** Poeziyanın heç vaxt çoxluğa ehtiyacı olmayıb. Onun ehtiyacı **intensivliyədir.** Roman çox zaman izdiham toplayır, **şeir isə vicdanı tərbiyə edir.** Mən poeziyanın gələcəyini **dəqiqlik və mövcudluğun birliyində** görürəm. O elə bir dil olmalıdır ki, sürətlə səs-küyləşən dünyada insanlıq ölçüsünü bərpa edə bilsin. Bu gələcəyi üç meyl formalaşdıracaq: **səsə qayıdış; formanı itirmədən formatlararası keçid; etik tənqidin mədəni oksigenə çevrilməsi.** Məncə, poeziyanın oxucu auditoriyası az qalacaq, amma onun **təsiri daha dərin və nəticəli** olacaq. Onun "səlahiyyət dairəsi" hələ çox genişdir.

**C.N: Yapon haykusu, ərəb qəsidəsi, türk dastanı, yunan faciəsi - bu qədim janrlar müasir poeziyanı necə zənginləşdirə bilər?**

**C.M:** Bu formaların hər biri hələ də **insan ovqatına mükəmməl köklənmiş qədim musiqi alətidir.** Hayku qısalığı idrak forması kimi təqdim edir - **dəqiqlik və mövsümi şüur** vasitəsilə.

Ərəb qəsidəsi əvvəl itkidən danışır, sonra yol göstərir və sonda **insanları birləşdirən fikrə gətirən** hərəkət modelidir. O bizə göstərir ki, məhdudiyyət bəzən genişlik yarada bilər.

Türk dastanı **soy, təbiət və qanunu** birləşdirir, müasir poeziyaya "biz" sözünü "mən"i itirmədən saxlamağı öyrədir. Yunan faciəsi isə xorun qarşılıqlı oyunu, tanıma, katarsis kimi elementlərlə bağlı dramaturji zəka və **ziddiyyətləri səhnəyə çıxarmaq cəsarətinə** sahibdir.

**C.N: Müasir ədəbiyyatşünaslığın ən böyük zəifliyi nədir?**

**C.M:** Üç təkrarlanan qüsur var: **inkarı metod kimi qəbul etmək; qavrayışdan çox nümayişə yönəlmək; məsuliyyətsiz etika.** Çoxlu tənqid mətndəki ən zəif nöqtədən başlayır, orda tonqal yandırır, şəxsiyyət oyununu qavrayışla səhv salır, mənəvi dili qayğıdan ayırır. Çarə isə **intizamlı diqqət ardıcıllığıdır, yəni** mətndə həyatın başladığı yerdən başlamaq, onun ən yüksək cəhdini bərpa etmək, sorğulamaq, həqiqətə qarşı sınamaq və yalnız bundan sonra etik mühakiməyə keçmək.

**C.N: Müasir oxucular ədəbi əsərlərdə ən çox nə axtarır: mənəvi sakitlik, həqiqət, yoxsa süjet?**

**C.M:** Oxucular **istiqamət tapmaq** üçün gəlirlər. Süjet - **zaman içində ardıcıllıq,** həqiqət - **reallıqla təmas,** mənəvi sakitlik - **insani sükutun təzyiqidir.** Ən təsirli kitablar bu üç elementi **bir-birinə hörür,** elə bir diqqət nizamı yaradır ki, qavrayış **yaşanıla bilən** bir hal alır.

**C.N: Gələcəkdə bəşəriyyətin Sizdən hansı ədəbiyyatı gözlədiyini düşünürsünüz?**

**C.M:** Əgər mən insanlığa faydalı olmaq istəyirəmsə, gələcək kitabların aydınlıq gətirməli, təsəlli verməli, mürəkkəblik qatmalı və öhdəlik daşımalıdır. Aydınlıq - dəqiq cümlələrlə, təsəlli - cəsarəti möhkəmləndirməklə, mürəkkəblik - incəlikləri bərpa etməklə, öhdəlik - dili ictimai xidmət kimi dəyərləndirməklə baş verir. Formal baxımdan bu o deməkdir ki, şeirlər həm qulaqda, həm səhifədə yaşamalıdır; nəsr parıltısız, lakin istiliklə dolu olmalıdır; tənqid isə bir növ qəyyumluq kimi davranmalıdır.

**C.N: Fikrinizcə, XXI əsrin ən böyük mənəvi böhranı nədədir?**

**C.M:** Ən dərin böhran diqqətsizlikdir, yəni insan baxışının o qədər zəifləməsi ki, artıq heç nə onun diqqətini yetərincə cəlb edə bilmir və məna daşımır. Diqqət dağılarsa, vicdan da onunla birlikdə çökməyə başlayır. Bunun dərmanı görmək və demək vərdişlərini elə tərbiyə etməkdir ki, diqqətin ölçü və dəyəri təcrübəyə yenidən qaytarılsın. Ədəbiyyatın vəzifəsi bu diqqəti vicdanla birləşdirərək öyrətməkdir.

**C.N: Sufi ədəbiyyatının əsas ideyası "nəfsin saflaşdırılması və mənəviyyatın ucaldılması"dır. Müasir ədəbiyyat bu sufi ruhundan məhrumdurmu?**

**C.M:** Əgər sufi ruhundan məqsədimiz qəlbin aydınlığına doğru nizamlı bir səyahətdirsə, bəli, müasir ədəbiyyat bəzən bunu səs-küy və nümayiş arasında unudur. Sufi modelinə görə dil xatırlamaq və məsuliyyət daşımaq vasitəsidir. *Protonizm* isə bu meyli əsərdə həyatverici nöqtədən başlayaraq, araşdırma yolu ilə həqiqətə doğru irəliləmək və qayğı etikası ilə davranmaqla birləşdirir.

**C.N: Qloballaşan dünyada gənclər sürətli informasiya axınında yaşayırlar. Onları necə yenidən klassik, əbədi ədəbiyyatla birləşdirmək olar?**

**C.M:** Klassikanı daha gur səsləndirməyə ehtiyac yoxdur - onu daha yaxın etmək lazımdır. Həyatdan başlayın, bioqrafiyadan yox. Qədimi olanı təcili olanla qoşalaşdırın. Formanı düşüncə üsulu kimi öyrədin. Böyük evlərə kiçik qapılardan daxil olun. Protonist oxumağı məşq edin. Yaddaşı yenidən dəbə çevirin. Tərcümə edin. İctimai ayinlər qurun. Axına uyğun dizayn edin, amma dərinliyi çatdırın. Və həqiqətən vacib olanı öyrənin, ötərini, xırdaçılığı deyil.

**C.N: Bu gün süni intellekt həyatımızın demək olar ki, hər sahəsinə nüfuz edib. Sizin fikrinizcə, bu texnoloji inqilab insan yaradıcılığı və düşüncəsinin mənəvi dərinliyini necə dəyişir?**

**C.M:** Hər yeni alət diqqətin öyrənilmə qaydasını yenidən yazır. Süni intellekt - ən yaxşı halda baxış dairəmizi genişləndirə bilər. O, səsləri yenidən üzə çıxarmaq, arxivləri yan-yana düzmək, fərqinə vara bilməyəcəyimiz nümunələri modelləşdirmək imkanı yaradar. Bu şəkildə o qavrayışı əvəz eləmir, onun dayağı olur - kitabxana və ya mikroskop sayağı duyğularımızı genişləndirən vasitə kimi çıxış edir. Təhlükə maşının ağlında deyil, bizim görmək və demək əzələlərimizi tənbəlliyə təhvil verməyimizdədir. Rahatlıq bizi mühakiməni cilalayan zəhmətdən imtina etməyə sövq edir. Yaradıcılıq baxımından süni intellekt qədim bir həqiqəti kəskinləşdirir: forma təzyiq altında verilən seçimdir. Qaralamalar sonsuz və ani olduqda sənətkarın işi daha çox seçmək və vicdanla davranmaq üzərində cəmlənir. Nəyi saxlayacaqsınız və niyə? Hansı cümlə reallığın ağırlığını daşıyır, hansı isə ehtimalın parıltısını? Mətn bollandıqca etik məsuliyyət də bir o qədər dəqiqləşməlidir. Böyük əsərləri fərqləndirəcək şey artıq yenilik deyil, seçimin dürüstlüyü olacaq, yəni insan ağlının alətlərin çağırdığı materialı necə və nə məqsədlə düzənləməsi. Ruhani baxımdan bu inqilab varlığın sınağıdır. Əgər süni intellektə büt kimi yanaşsaq, ikinci dərəcəli baxışların toplayıcısına çevriləcəyik, daxili dünyamız xəbər lentinə bənzəyəcək, məşğul, məlumatlı, amma çəkisiz. Ona nizamlı alət kimi yanaşmalıyq. Yəni tələsmədən oxumaq, cümlə həqiqəti deyənədək düzəliş etmək, bir insanı o qədər dinləmək ki, qayğı məsuliyyətə çevrilsin. Protonist baxımdan: alətin dəstəklədiyi bildiyi həyatverici tərəfdən başlayın, sonra sorğu ilə həqiqətə doğru gedin və sonda yalnız insanın verə biləcəyi etik hökmə çatın. Ona görə də mən maşından qorxmuram, unutqanlığımızdan qorxuram. **Çəkic heykəli yaratmır, o, sadəcə, onun yaranmasına şərait yaradır. Süni intellekt çəkic kimidir. İnsan isə hansı fiquru, kim üçün və hansı bahaya oyacağını bilən əldir.**

**C.N: Azərbayan ədəbiyyatının gələk inkişafını necə görürsünüz?**

**C.M:** Azərbaycan ədəbiyyatı dünya ədəbiyyatı xəzinəsinə zəngin mənəvi pay verib. Bu fikrin təsdiqi kimi orta çağ intibah poeziyasının böyük nümayəndəsi Nizaminin yaradıcılığını yada salmaq yetərlidir. Şərq şeiri və hətta romançılığı son min ildə Nizami Gəncəvi yaradıcılığı ilə qırılmaz surətdə bağlı olub. Özündən sonrakı bütün böyük Şərq şairləri onun yoluyla gediblər. Əminəm ki, müasir Azərbaycan ədəbiyyatının yeni yüksəlişi məhz bu özül üzərində baş tuta bilər.

**Müsahibəni ingilis dilindən**
**Əsəd Cahangir tərcümə edib**

# ONU TORPAQ ÇAĞIRIRDI

## *İki yurdun oğlu, bir xalqın ziyalısı Elxan Ağayevin işıqlı ömür yolu*

**İnsanlar var ki, yaşadıqları illərin sayı ilə deyil, yaşatdıqları dəyərlərlə ölçülür. Elə insanlar da var ki, torpağa tapşırılsalar da, xatirələri ilə yenidən dirilirlər. Elxan Ağayev məhz bu cür ömür sahiblərindən idi- aqrar elmin işığında böyüyən, torpağın nəfəsini duyan, insan sevgisini peşəsinə çevirən bir ziyalı ömrü yaşadı.**

Elxan Təzəxan oğlu Ağayev 1957-ci il oktyabrın 17-də Biləsuvar rayonunda dünyaya göz açmışdı. İlk ibtidai təhsilini 1965-ci ildə Biləsuvar rayonunun (keçmiş Puşkin) 8 nömrəli məktəbində alıb. Burada Kiçikxan baba və Gülnaz nənənin doğma ocağında boy atıb və ömrü boyu baba ocağına bağlı nəvə olub. Sonra tale yolları onu ata-baba yurdu Cəlilabada gətirib. Məhz buradamünbit torpağın, zəhmətkeş insanların, əkin-biçinin içində formalaşıb, böyüyüb, həddi-buluğa çatıb. 1975-ci ildə Cəlilabad şəhər 7 nömrəli tam orta məktəbi bitirən Elxan, elə həmin il Gəncə Aqrar Universitetinə qəbul olunub.

Orta məktəb illərindən kənd təsərrüfatına dərin maraq göstərən gənc Elxan tələbəlik dövründə sanki qoynunda böyüyüb boya-başa çatdığı Biləsuvarın və Cəlilabadın təbiətindən ilham alırdı. Bitkiçiliyi sadəcə ixtisas yox, həyat fəlsəfəsi kimi qəbul edirdi. Bu yanaşma onu universitet müəllimlərinin- professor və dosentlərin sevimlisinə çevirmişdi. Elxan Ağayev təkcə biliyi ilə deyil, məsuliyyətli davranışı, ictimai fəallığı ilə də seçilirdi. Universitet tədbirlərində fəal iştirak edir, ona etibar olunan vəzifələri layiqincə yerinə yetirirdi.

1980-ci ildə ali təhsilini başa vurduqda rektorluq onun universitetdə qalıb müəllim kimi fəaliyyət göstərməsini istədi. Bu, yenicə diplom almış məzun üçün qürurverici təklif idi. Amma Elxan Ağayev bu təklifdən imtina etdi. Çünki onu torpaq çağırırdı.Cəlilabadın əkin sahələri, zəhmətkeş kəndliləri yolunu gözləyirdilər. O, kənd təsərrüfatına elmi kürsüdən deyil, qızmar günəş altında- torpaqla həsb-halda xidmət etməyi seçdi. Burada istər-istəməz böyük türk şairi Aşıq Veysəlin məşhur misraları yada düşür:

*Qarnın yardım qazmağınan, belinən,*
*Üzün yırtdım dırnağınan, əlinən.*
*Yenə məni qarşıladı gülünən,*
*Mənim sadiq yarım qara torpaqdı.*



Əmək fəaliyyətinə Cəlilabad rayonundakı R.Axundov adına sovxozda aqronom kimi başlayan gənc mütəxəssis qısa zamanda bilik və bacarığı ilə fərqləndi. Onun gərgin fəaliyyəti nəticəsində sovxozun istehsal göstəriciləri ilbəil artdı, raykom iclaslarında təsərrüfatın adı qabaqcıllar sırasında çəkildi. O, həm rəhbərliyin, həm də sadə əmək adamlarının dərin hörmətini qazandı. Elxan müəllim üçün aqronomluq kabinet işi deyildi- o, sahədə idi,



torpağın içində idi, kəndlinin qayğılarını dərindən anlayırdı.

Kolxoz-sovxoz sisteminin ləğvindən sonra fərdi təsərrüfatların formalaşdığı çətin illərdə Elxan Ağayev bölgədə çoxlarının pənah yerinə, məsləhət ünvanına çevrildi. Onun zəngin təcrübəsi onlarla gəncin aqrar sahəyə inamla addımlamasında mayak rolunu oynadı.

Cəmiyyətə xidmət Elxan Ağayevin həyat prinsipinə çevrilmişdi. Bu xidmət onu bələdiyyə fəaliyyətinə də gətirdi. Cəlilabad şəhər seçicilərinin yekdil səsi ilə bələdiyyə üzvü seçilən Elxan Ağayev 2000-ci ildən sonra şəhər bələdiyyəsinin aparatında məsul vəzifə daşıdı və bu işi də ləyaqətlə yerinə yetirdi.

2015-ci ildən isə o, yenidən canı qədər sevdiyi torpağa, kənd təsərrüfatına qayıtdı. Cəlilabad Dövlət Aqrar İnkişaf Mərkəzində (DAİM) böyük hörmət və ehtiramla işə qəbul olundu. Bitkiçilik sektorunda böyük məsləhətçi kimi fəaliyyəti illərlə bölgə fermerlərinin dayaq nöqtəsinə çevrildi. DAİM-in direktoru Rahib Kərimov Elxan Ağayev haqqında danışarkən deyirdi: "Elxan müəllim bizim üçün təkcə mütəxəssis deyildi. O, sahənin vicdanı idi. Onun məsləhətləri elmi olduğu qədər də səmimi idi. Torpağa canı qədər bağlı, onun dilin bilən, peşəsini dərindən sevən insan kimi, ziyalı kimi tanıdım Elxan müəllimi bu illər ərzində. Onun əziz xatirəsi kollektivimizdə hər zaman böyük hörmət və ehtiramla anılacaq".

Təəssüf ki, amansız xəstəlik bu möhkəm iradəli, iti zəkalı insanın ömrünü yarıda qoydu. Dostları onun xəstəliyinə inanmaq istəmirdi- Elxan xəstəliyə bac verən adam deyildi. Amma tale öz hökmünü verdi. 2025-ci il dekabrın 28-də Elxan Ağayev bu dünyaya əbədi gözlərini yumdu. O, ruhlar dünyasının sakininə çevrildi, amma xatirələri ilə yenidən aramızdadır.

Elxan Ağayev iki doğma yurdun oğlu idi- Biləsuvarda doğulmuş, Cəlilabadda formalaşmışdı. Onun şəxsiyyətinin kökündə isə bir böyük ziyalı missiyası dayanırdı- Dadaş Ağayev məktəbi. Ağayevlər nəslinin ilk ali təhsilli ziyalısı olan Dadaş əmi bu ailə üçün yaşıl işıq, istiqamət, yol olmuşdu. 60-cı illərin çətin sosial şəraitində Gəncədə rus dilli baytarlıq fakültəsində təhsil alması, hər bir qardaşı oğlunun savadı üçün göstərdiyi fədakarlıq bu nəslin taleyini dəyişmişdi. Xalidə Ağayeva, Ağabəy, Balabəy, Qalabəy, Şəmsi, Cəbrayıl Ağayevlər və onlarla başqası kimi, Elxan Ağayev də məhz bu ziyalı nurundan qidalanmışdı. O, sağlığında da bunu hər zaman fəxrlə dilə gətirirdi.

Bu gün Elxanı sözlə ifadə etmək, onun haqqında keçmişdə danışmaq çox çətindir amma xatirələr bunu deməyə, danışmağa məcbur edir məni də. Mən bölgə müxbiri kimi Cəlilabada aqrar sahə ilə bağlı çəkilişlərə tez-tez gedirdim. Bu zaman DAİM əməkdaşı olaraq, təbii ki, ümumi məlumatı verəcək bir mütəxəssis lazım olurdu. Hər dəfə ürəyimdən Elxan müəllimi danışdırmaq keçirdi.

Çünki o, doğrudan da savadlı mütəxəssis idi- onun hər kəlməsi, cavabı o qədər dəqiq cilovlanmış idi ki, sanki bunu mənə solğunluğu yaxud təravəti ilə "dili-ağzı olmayan" bitki özü nəql edirdi. Amma Elxan müəllim elə təvazökar insan idi ki, hər dəfə səmimi şəkildə imtina edirdi: "Məni çəkmə, Samir, minnətdaram. Efir mənlik deyil."

Bütün fəaliyyətim ərzində onu cəmi iki dəfə efirdə danışdıra bildim. O iki müsahibə isə bu gün də aqrar jurnalistikanın təmiz nümunəsi kimi yaddaşımdadır. Son günlərində böyük qardaşım İman və Sabir dayı ilə ziyarətinə getmişdik. Hiss etdim ki, bu, əvvəlki Elxan müəllim deyil. Xəstəlik onu sürətlə geriyə aparırdı. Mən qeyri-ixtiyari kövrəldim. Amma o, yenə zarafatından qalmadı. Gülümsəyərək dedi: "Ay Samir, axır ki, məni qova-qova iki dəfə müsahibə aldın." Yenə güldük, şən söhbət etdik. Ayrılarkən dedim dekabrın 31-də yeni il təbrikinə gələcəyik. O isə zəifləmiş vücudu ilə özünü yenə möhkəm tutaraq qalxıb bizi yola saldı. Evinin darvazasından biz uzaqlaşanadək boylanıb əl edirdi. Bu səhnə hələ də gözlərimin önündədir. Ömür vəfa etmədi. Dekabrın 31-dən üç gün əvvəl- 28-də onun vəfatı xəbərini aldıq.

Elxan Ağayev ailə başçısı kimi də örnək idi. Ömür-gün yoldaşı Süreyya xanımla əl-ələ, nəfəs-nəfəsə 4 övlad böyüdüblər. Bir oğlu- Orxan, bank sektorunda çalışan, ali təhsilli bir gəncdir. Üç qızı da ali təhsilli, ailəli, cəmiyyətə faydalı övladlardır. Bu da Elxan müəllimin həyatının ən böyük uğurlarından biridir.

Müdriklər deyir ki, dünya onu sevənlər üçün işıqlıdır. Bizim dünya da Elxan Ağayev kimi ziyalıların nuru ilə işıqlanır. O, torpağa tapşırılsa da, əməli ilə yaşayır. Onun əllərinin izi torpaqda, sözlərinin əksi insanların yaddaşındadır.

*Adı Elxan idi, soyadı Ağa,*
*El, xan, ağa - hörmət sınağı oldu.*
*Könlünü vermişdi ana torpağa,*
*Axırda torpağın qonağı oldu.*

*Qaldı xatirəsi əzbərimizdə,*
*Yurd saldı ən kövrək hisslərimizdə.*
*Ağladıq, sel axdı gözlərimizdən,*
*Mənim bu yazdığım son ağı oldu.*

Ruhu şad olsun, torpağın qoynuna köçən torpaq adamı!

**Samir QURBANOV,**
**AJB-nin üzvü**

---

## *Britaniyada süni intellektlə bağlı X platforması üzrə araşdırma aparılır*



**Böyük Britaniyanın media və kommunikasiya tənzimləyicisi "Ofcom" İlon Maskın sahibi olduğu X sosial şəbəkəsi ilə təcili əlaqə saxladığını bildirib.**

Adalet.az "The Telegraph"a istinadla xəbər verir ki, səbəb platformanın süni intellekt alətinin razılıq olmadan qadınların, o cümlədən Uels Şahzadəsinin yarıçılpaq təsvirlərini yaratması ilə bağlı məlumatlardır.

Tənzimləyici qurum X-in Böyük Britaniyanın onlayn təhlükəsizlik qanunvericiliyinə əməl edib-etmədiyini araşdırdığını və qısa müddətdə rəsmi istintaqın başlanıb-başlanmaması ilə bağlı qərar veriləcəyini açıqlayıb. Məlumata görə, X platformasında fəaliyyət göstərən "Grok" adlı süni intellekt çat-botu Uels Şahzadəsi Ketrinin mövcud fotoları əsasında onun bikini geyimində realistik təsvirlərini yaradıb. Bildirilir ki, ən azı dörd halda çat-bot mövcud şəkilləri təkrar işləyərək yeni təsvirlər formalaşdırıb. Son günlərdə süni intellektin təsviryaratma funksiyasının qadınlar və uşaqların yarıçılpaq və ya cinsi xarakterli pozalarda minlərlə görüntüsünü istehsal etdiyi, bəzi hallarda isə bu cür şəkillərin dəqiqələr ərzində yaradıldığı bildirilir.

Böyük Britaniyada qüvvədə olan onlayn təhlükəsizlik qaydaları rəqəmsal platformalardan istifadəçiləri zərərli və qanunsuz məzmundan qorumağı tələb edir. "Ofcom"un mümkün istintaqı X platforması üçün ciddi hüquqi nəticələr yarada bilər.

## Hər kəs bir qızım olsun deyəcək - Alimlərdən maraqlı araşdırma

**Qız övladı böyütməyin valideynlərin beyin sağlamlığına müsbət təsir göstərdiyi məlum olub. Aparılan elmi araşdırmaya görə, qız uşağı olan valideynlərdə yaşlılıq dövründə demans və zehni zəifləmə riski daha aşağıdır.**



Adalet.az xarici KİV-ə istinadən xəbər verir ki, Çinin Hohai Universiteti alimləri tərəfindən aparılan tədqiqat çərçivəsində yüzlərlə yaşlı şəxsin yaddaş və düşünmə qabiliyyəti təhlil edilib.

Araşdırmada iştirakçıların ailə strukturu, xüsusilə qız və oğlan övladlarının sayı nəzərə alınıb.

Nəticələr göstərib ki, qız övladı olan valideynlərin zehni göstəriciləri daha yüksəkdir.

Alimlər bu vəziyyəti qız uşaqlarının valideynləri ilə daha sıx emosional bağ qurması, onlarla daha çox ünsiyyətdə olması və yaşlılıq dövründə göstərdikləri qayğı ilə əlaqələndirirlər.

Mütəxəssislərin fikrincə, qız övladlarının verdiyi sosial və emosional dəstək beyin funksiyalarının daha uzun müddət sağlam qalmasına kömək edir. Xüsusilə bir qız övladı olan valideynlərdə bu təsirin daha aydın müşahidə edildiyi bildirilib.

Araşdırmada həmçinin qeyd olunub ki, demansın ilkin əlamətləri arasında yaddaş zəifləməsi, diqqətin azalması və məlumatları emal etməkdə çətinlik yer alır.

Alimlər sosial münasibətlərin və ailədaxili ünsiyyətin bu riskləri azaltmaqda mühüm rol oynadığını vurğulayırlar.

**Tədqiqatçılar ümid edirlər ki, yaxın illərdə demansla bağlı daha effektiv müalicə üsulları tapılacaq və xəstəliyin qarşısının alınması mümkün olacaq.**

## *Mask: "2026-cı il möhtəşəm olacaq!"*



**Amerikalı milyarder İlon Mask 2025-ci ildə Ağ Evlə ictimai münaqişəsindən bəri ABŞ prezidenti Donald Tramp və birinci xanım Melaniya ilə ilk şam yeməyinə qatılıb.**

Adalet.az xəbər verir ki, iş adamı görüşün fotosunu "Facebook"da paylaşıb.

O, fotoya "2026-cı il möhtəşəm olacaq!" şərhini qeyd edib.

Fotoda Maskın Tramp və həyat yoldaşı ilə eyni masada oturduğu görünür. Ehtimal olunur ki, şam yeməyi ABŞ prezidentinin ailəsinin Yeni il tətillərini keçirdiyi Mar-a-Lago malikanəsində baş tutub.

Xatırladaq ki, Mask və Tramp arasında mübahisə iş adamının dövlət vəzifəsindən getməsindən sonra başlayıb. Milyarder hətta Ağ Evin federal xərclərin azaldılmasına yönəlmiş qanun layihəsini "iyrənclik" adlandırıb.



Emin PİRİ

## AĞ XALATLI SEVGİ

Gözlərim tutanda baxışlarını
ürəyimi çəkirsən hər dəfə bir diş kimi.
Axı, bu ürəkdi,
diş deyil, 32 ola.
İnsafın olsun,
məndə bu qədər ürək hardandır, ay həkim qız?!

And ola Hipokrata-
sağaltmırsan, öldürürsən məni-
sən başqa xəstəyə baş çəkəndə.

Nə əlindəki stetoskop, nə başqa alət
eşitməz qəlbimin səsini.
Özün qoy başını
sinəmə, qəlbimin üstə, ay həkim qız.
Dinlə-
sənə doğru yorğa qaçan ürəyimi-
bəsimdi.

Gecələr tələsim evə.
Qapını açmaq istəyəndə
əllərim cəftəni yox,
əllərini tutsun-
bəsimdi.

Bilsəm ki, ağ xalat çıxar əynindən
kəfən əvəzinə örtər üstümü.
Bir anda ölərəm
görüm deyə əndamı-
bəsimdi.

Vallah, xeyri yoxdu mənə
resept kağızında yazdığın
adını duymadığım dərmanların.
Heyf etmə boş yerə o vərəqləri, ay həkim qız,
üzündən öpüm-
bəsimdi.

Əsəbim soyumaz,
nə otlar, nə də sakinləşdirici dərmanlarla.
sevgim gübrələyər bətnindəki çiçəyi-
Bəlkə hirsim soyuya.
Nə sistem, nə damarımdakı iynə,
durultmaz qanımı.
Uzun, qara saçların dolana qollarıma-
bəsimdi.

Boş ver analiz cavablarını,
At bir kənara
qol çəkdiyin qeydiyyat kitabçasın, ay həkim qız.
Götür onların yerinə
nikah kağızına bir qol çək-
bəsimdi.

## Mövsümi qriplə bağlı daha bir xəbərdarlıq



Hazırda mövsümi kəskin respirator virusların artması, qrip və digər infeksiyaların ağır keçməsi, insanların gec həkimə müraciət etməsi, zəifləmiş immunitet pnevmoninin yaranma səbəbləri ola bilər.

Bu barədə Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzindən məlumat verilib.

Bildirilib ki, insanların qapalı və zəif havalandırılan məkanlarda cəmləşməsi, hava-damcı yolu ilə ötürülən infeksiyaların əhali arasında yayılma sürətini nisbətən artırır:

"İnfeksiyanın yayılma arealını məhdudlaşdırmaq üçün sanitariya qaydalarına riayət olunması və kollektiv immunitetin qorunması böyük əhəmiyyət kəsb edir. Xüsusilə, risk qrupuna daxil olan şəxslərin kütləvi toplaşma yerlərindən uzaq durması tövsiyə olunur.

Xəstəliyin ilk klinik əlamətləri olan şəxslərin izolyasiyası, zəncirvarı yoluxma hallarının qarşısının alınmasında ən effektiv rol oynayır. Respublikada infeksion xəstəliklər üzrə epidemioloji vəziyyət nəzarət altındadır".

Ramiz Göyüş



# "SƏMƏD VURĞUN İLİ"

**Əziz dostlar! Yeni At iliniz bir daha mübarək , düşərli və uğurlu olsun.**

Bu il bütün dövrlərin ən böyük söz adamlarından biri, Böyük Səməd Vurğunun 120 illik yubiley ilidir. Əminəm ki, Səməd Vurğun ocağına böyük sevgisi, məhəbbəti və hörməti olan Prezidentimiz, Cənab İlham Əliyev bu mühüm ədəbi, mədəni və ictimai hadisəni öz Sərəncamı ilə rəsmiləşdirəcək.

Bununla belə hesab edirəm ki, bütün Vurğunsevərlər üçün 2026-cı il "Səməd Vurğun ili" kimi tarixə düşəcək və bu il böyük ədəbiyyat adamı və ictimai xadimin 120 illik yubileyi həm ölkəmizdə, həm də onun hüdudlarından kənarda silsilə tədbirlərlə qeyd ediləcəkdir.

Qeyd etməyi zəruri hesab edirəm ki, bu ilə öz dəyərli töhvəsini görkəmli rəssamımız Nəvai Metin təqdim edərək sosial şəbəkədə öz profilində paylaşıb. Düşünürəm ki, əgər Vurğunsevərlər tərəfindən dəstəklənərsə bu portret həm də "Səməd Vurğun ili"nin loqosu ola bilər.

"Səməd Vurğun yaradıcılığı küll halında dünya görçüş. sinəsi xəzinə. ağsaçlı müdrik bir qocaya bənzəyir, Bu qocanın sinəsindəxalqın nağıl və dastanları, atalar sözləri. məsəlləri, muğamı. aşıq mahnıları, üzərində iztirablı günlərin kədəri, xoşbəxt günlərin sevinci, fərəhi naxış bağlamışdır.

Bu Qoca Azərbaycan xalqının simvoludur, bəlkə də şairin qəhrəmanlarından Azər babanın özüdür. Azərbaycan xalqının "Avesta" dövründən bu günə qədərkitarixi-Nizami qüruru, Xaqani mübarizliyi, Füzuli kədəri, Nəsimi hikməti, Vaqif səmimiyyəti,Koroğlu qəhrəmanlığı, Sabir gülüşü bu böyük yaradıcılıqda öz əksini tapmışdır. Bu böyük yaradıcılığın epiqrafı şairin "Azərbaycan" şeiridir."(Bəxtiyar Vahabzadə)

Həmin şeiri və dostumuz Nəvai Metinin yeni çəkdiyi portreti Sizlər üçün təqdim edirəm.

**Çox keçmişəm bu dağlardan,**
**Durna gözlü bulaqlardan;**
**Eşitmişəm uzaqlardan**
**Sakit axan arazları;**
**Sınamışam dostu, yarı...**

**El bilir ki, sən mənimsən,**
**Yurdum, yuvam, məskənimsən,**
**Anam, doğma vətənimsən!**
**Ayrılarmı könül candan?**
**Azərbaycan, Azərbaycan!**

**Mən bir uşaq, sən bir ana,**
**Odur ki, bağlıyam sana:**
**Hankı səmtə, hankı yana**
**Hey uçsam da yuvam sənsən,**
**Elim, günüm, obam sənsən!**

**Fəqət səndən gen düşəndə,**
**Ayrılıq məndən düşəndə,**
**Saçlarıma dən düşəndə**
**Boğar aylar, illər məni,**
**Qınamasın ellər məni.**

**Dağlarının başı qardır,**
**Ağ örpəyin buludlardır.**
**Böyük bir keçmişin vardır;**
**Bilinməyir yaşın sənin,**
**Nələr çəkmiş başın sənin.**

**Düşdün uğursuz dillərə,**
**Nəhs aylara, nəhs illərə.**
**Nəsillərdən nəslərə**
**Keçən bir şöhrətin vardır;**
**Oğlun, qızın bəxtiyardır...**

**Hey baxıram bu düzlərə,**
**Ala gözlü gündüzlərə;**
**Qara xallı ağ üzlərə**
**Könül istər şeir yaza;**
**Gəncləşirəm yaza-yaza...**



**Bir tərəfin bəhri-Xəzər,**
**Yaşılbaş? sonalar gəzər;**
**Xəyalım dolanar gəzər**
**Gah Muğanı, gah Eldarı,**
**Mənzil uzaq, ömür yarı!**

**Sıra dağlar, gen dərələr,**
**Ürək açan mənzərələr...**
**Ceyran qaçar, cüyür mələr,**
**Nə çoxdur oylağın sənin!**
**Aranın, yaylağın sənin.**

**Keç bu dağdan, bu arandan,**
**Astaradan, Lənkərandan.**
**Afrikadan, Hindistandan**
**Qonaq gəlir bizə quşlar,**
**Zülm əlindən qurtulmuşlar...**

**Bu yerlərdə limon sarı,**
**Əyir, salır budaqları;**
**Dağlaraının dümağ qarı**
**Yaranmışdır qarlı qışdan,**
**Bir səngərdir yaranışdan.**

**Lənkəranın gülü rəng-rəng,**
**Yurdumuzun qızları tək.**
**Dəmlə çayı, tök ver görək,**
**Anamın dilbər gəlini!**
**Yadlara açma əlini.**

**Sarı sünbül bizim çörək,**
**Pambığımız çiçək-çiçək,**
**Hər üzümdən bir şirə çək**
**Səhər-səhər acqarına,**
**Qüvvət olsun qollarına.**

**Min Qazaxda köhlən ata,**
**Yalmanına yata-yata,**
**At qan tərə bata-bata,**
**Göy yaylaqlar belinə qalx,**
**Kəpəz dağdan Göy gölə bax!..**

**Ey azad gün, azad insan,**
**Doyunca iç bu bahardan!**
**Bizim xalı-xalçalardan**
**Sar çinarlar kölgəsinə,**
**Alqış günəş ölkəsinə!**

**Könlüm keçir Qarabağdan,**
**Gah bu dağdan, gah o dağdan;**
**Axşam üstü qoy uzaqdan**
**Havalansın Xanın səsi,**
**Qarabağın şikəstəsi.**

**Gözəl Vətən! Mənan dərin,**
**Beşiyisən gözəllərin**
**Aşıq deyər sərin-sərin,**
**Son günəşin qucağısan**
**Şeir, sənət ocağısan.**

**Ölməz könül, ölməz əsər**
**Nizamilər, Füzulilər!**
**Əlin qələm, sinən dəftər,**
**De gəlsin hər nəyin vardır,**
**Deyilən söz yadigardır.**

**Bir dön bizım Bakıya bax,**
**Sahilləri çıraq-çıraq,**
**Buruqları hayqıraraq**
**Nərə salır boz çöllərə,**
**İşıqlanır hər dağ, dərə.**

**Nazlandıqca sərin külək**
**Sahillərə sinə gərək,**
**Bizim Bakı - bizim ürək!**
**İşıqdadır qüvvət sözü,**
**Səhərlərin ülkər gözü.**

**Gözəl Vətən! O gün ki, sən**
**Al bayraqlı bir səhərdən**
**İlham aldın...yarandım mən.**
**Gülür torpaq, gülür insan**
**Qoca Şərqin qapısısan.**

**El bilir ki, sən mənimsən,**
**Yurdum, yuvam, məskənimsən,**
**Anam, doğma vətənimsən!**
**Ayrılarmı könül candan?**
**Azərbaycan, Azərbaycan!**

1933-cü ildə yazılmış "Azərbaycan" şeiri Azərbaycan ədəbiyyatının incilərindəndir. Bu şeirdə şair öz vətəninin qədim tarixi, təbii gözəlliyi, nemətləri, xalqın xeyirxahlığı, açıqürəkliyi və qonaqpərvərliyini tərənnüm edib. Bu şeir Vurğunun ideyasına görə həm də "Azərbaycan" epopeyasının proloqudur.

## Məhyəddin Məhərrəmoğlunun növbəti şeirlər kitabı nəşr edilib

**Tanınmış şair Məhyəddin Məhərrəmoğlunun növbəti şeirlər kitabı çapdan çıxıb.**

"Zərdabi Nəşr" tərəfindən nəfis şəkildə çap olunan kitabda şairin müxtəlif illərdə və mövzularda qələmə aldığı seçmə şeirləri yer alıb. Yenicə işıq üzü görən kitabın "Ön söz" müəllifi mərhum yazıçı-publisist Vəlyəddin Misiroğlu, redaktoru şair Namiq Dəlidağlıdır.

Məhyəddin Məhərrəm oğlu İsmayılov (Məhyəddin Məhərrəmoğlu) 1942-ci ilin noyabr ayında Kəlbəcər rayonunun Bağlıpəyə (Məşədi Məhəmmədli) kəndində anadan olub. Doğulduğu rayonda orta məktəbi bitirib, Gəncə Dövlət Pedaqoji İnstitutunun (İndiki ADPU) filologiya fakültəsində ali təhsil alıb. Ali təhsilini başa vurduqdan sonra Kəlbəcərin Ağdaban kəndində ixtisası üzrə dil-ədəbiyyat müəllimi, 1968-1978-ci illərdə isə



rayonun Şorbulaq kənd orta məktəbinin direktoru vəzifəsində çalışıb.

1993-cü ilin aprel ayında Kəlbəcərin işğalından sonra ailəsi ilə birlikdə Mingəçevirdə müvəqqəti məskunlaşıb, təqaüdə çıxana qədər 118 saylı Kəlbəcər rayonun orta məktəbinə rəhbərlik edib. İlk gənclik illərindən etibarən doğma rayonunda çıxan "Yenilik" qəzetinin nəzdində fəaliyyət göstərən "Dəlidağın nəğmələri" ədəbi məclisin ən fəal üzvlərindən biri olub. İstər həmin dövrlərdə yerli və mərkəzi qəzetlərdə, istərsə də müstəqillik illərində müxtəlif mətbuat orqanlarında şeirləri dərc edilib.

**Azərbaycan Yazıçılar Birliyinin üzvü olan M.Məhərrəmoğlunun indiyə qədər "Ağlı-qaralı dünya", "Dünya həmin dünyadır", "Mürgüləyən qönçələr", "Bir gecənin yuxusu" adlı şeir kitabları nəşr olunub. "İldırımdan od almışam" müəllifin sayca beşinci kitabıdır.**



# BAYAT



№ 67 (927)



*Musa YAQUB*

## ÖYRƏTMƏ ÖZÜNƏ, ÖYRƏTMƏ MƏNİ

Taleyin qisməti rast saldı bizi.
Yolumuz hardasa qırılacaqsa,
İtirəcəyiksə bir-birimizi,
Xatirəm yadında qalmayacaqsa.
Bu əllər mənimki olmayacaqsa,
Bu tellər mənimki olmayacaqsa
Sən allah, özünə öyrətmə məni,
Hicran qoxusuyla göynətmə məni...
Əlimi saçına öyrətmə belə,
Gözümü gözünə öyrətmə belə;
Üzümü üzünə öyrətmə belə...

Mən bir az baharlı budaq kimiyəm,
Bir az da sadəlövh uşaq kimiyəm.
Bala anasına qovuşan kimi,
Leylək yuvasına yovuşan kimi,
Arı gül-çiçəyə uyuşan kimi,
Eh, mən də adama tez yovuşanam,
Sevgi atəşində tez alışanam,
Amma ki, sönməyim çox çətin olur -
Sevgidən dönməyim çox çətin olur,
Öyrətmə özünə, öyrətmə məni.

Bəlkə gözləmirdik bu xoş görüşü,
Yaman qəribədir dünyanın işi;
Heç vaxt yollarında dayanmadığın,
Heç həndəvərində dolanmadığın
Gəlib birdən sənə nə şirin olur!
Ömrünün içində ömür doğulur.
Bu şirinim acı olacaq isə,
Bir qismət çiçəyim solacaq isə,
Öyrətmə özünə, öyrətmə məni.

Könlümdə yerin var, qopmaz yerindən,
Bir əkiz ləçəyi, haça budağı
Ayırmaq olmursa biri-birindən,
Məni də ayırmaq çətindir axı.
Öyrətmə özünə, öyrətmə məni;
Yox buna taqətim, yox buna tabım
Əlimi əlindən üzmək əzabım,
Sonra bu əzaba dözmək əzabım...
Yoxsa da, könlümün sınıqları var,
Hicranın köz basmış yanıqları var -
Mənim dərdlərimin ayaqları var -
Harda olsa gəlib tapacaq məni,
Yaxıb yandıracaq bu ocaq məni.
Gəl məni özünə öyrətmə belə,
Əlimi əlinə öyrətmə belə,
Gözümü gözünə öyrətmə belə...

## ONDA BİLƏCƏKSƏN

İndi nazın böyük, ürəyin aram,
Eh, mən də səninçün belə qalmaram...

Bir də görərsən ki, bir ərk yerin yox,
Qalmısan neçə yad baxışın altda.
Qəfil görəcəksən çətirin də yox,
Əsirsən bir qərib yağışın altda.
Günəşdə üstünə kölgə salan yox,
Tənhasan, amma heç yada salan yox.
Sönüb səndən ötrü o isti ocaq.
Onda bilcəksən mənim sevgimi,
Biləcəksən,
O da çox gec olacaq.

Könlün darıxanda, lap darıxanda,
Kimlərsə hardansa qoşa baxanda,
Bir də görəcəksən
Sən burda təksən,
Yanında boş qalıb bir sirdaş yeri,
Sızlayır könlünün həmin boş yeri.
O sözün, o səsin, o ərkin yoxdur,
Dərdin var, bu dərdə şərikin yoxdur.
Onda birdin-birə gözün dolacaq,
Onda biləcəksən mənim sevgimi,
Biləcəksən,
O da çox gec olacaq.

Məsələn, bir dəfə yeri gələndə,
Bir gizli vaxt tapıb güzgülənəndə
Bir də görəcəksən şümşad əllərin,
Çiyninə tökülmüş dalğın tellərin,
Bir gülər üzün var,
Amma bilən yox,
Bu xumar gözlərlə birgə gülən yox.
Yoxdur bu əllərin qədirbiləni,
Yoxdur bu tellərin qədirbiləni,
Çiynin boş, əlin boş, boş qalan qucaq..
Onda biləcəksən mənim sevgimi,
Biləcəksən,
O da çox gec olacaq.

Soraq almayanda eldən, mahaldan,
Yığa bilməyəndə gözünü yoldan,
Könlün bir qanadlı söz istəyəndə,
Ümid qanadıyla uçum deyəndə
Bir də görəcəksən qanadın yoxdur.
Çağrılır, deyilir, adı var,amma
Dilimdə şipşirin o adın yoxdur,
Bir nağıl, bir sevgi, həyatın yoxdur.
Gün keçib, vaxt ötüb, xatirəm uzaq...
Onda biləcəksən mənim sevgimi,
Biləcəksən,
O da çox gec olacaq...

## BU DÜNYANIN QARA DAŞI GÖYƏRMƏZ

Leyləklərin çöp yuvası boş qalıb,
Bahar gedib, payız gəlib, qış qalıb.
Göy çəməndə ocaq yanıb, daş qalıb,
Bu dünyanın qara daşı göyərməz.

Nə o ocaq közərəsi, sönəsi,
Nə o günlər bir də geri dönəsi...
Qəm eləmə, könlümün bir dənəsi,
Bu dünyanın qara daşı göyərməz.

O gülyanaq bənddir bir xoş baxışa,
Körpə budaq əl açıbdır yağışa.
Min baharın hərarəti yığışa,
Bu dünyanın qara daşı göyərməz.

Ot göyərdib o cığırım, o izim,
Tufanlanıb çalxalanmaz dənizim.
Daha məndən sevgi umma, əzizim,
Bu dünyanın qara daşı göyərməz.

Araz boyu çox mənalar sezmişəm,
Elə bilmə əllərimi üzmüşəm.
Ürəyimə daş bağlayıb dözmüşəm,
Bu dünyanın qara daşı göyərməz.

## NİYƏ GƏLMİSƏN?

Soldurub bağını, töküb barını,
Daha şuxdan salıb yarpaqlarını,
Soldurub o çıraq yanaqlarını
Qış olub, üstümə niyə gəlmisən?

Sən adlı o xanım-xatını mənə,
Vermədin öz şahlıq taxtını mənə.
Qıymadın gül-çiçək vaxtını mənə,
Qış olub üstümə niyə gəlmisən?..

Məni həsrət qoyan ilk bəhərinə
İndi gəlib məni yada salıbmı?!
Gözünün alovu özgələrinə,
Saçının qırovu mənə qalıbmı?
Qış olub üstümə niyə gəlmisən?

Gözəllik - neylədin o bəxşişini,
Gəlmisən, bəs kimə bəxş etdik onu?
Nə bildin taleyin göndərişini
Qaytara bilmirəm, nə bildin bunu?

Nə bildin mən bir az ürəyi kövrək,
Qadın baxşında mütiyəm, lalam.
Nə bildin o həsrət məni əyəcək,
Nə bildin səninçin keçilmiş yolam.
Qış olub üstümə niyə gəlmisən?..

Ağlayan hirsimi soyutmağamı,
İncik ürəyimi uyutmağamı?..
Təkəbbürlü xanım, a nazlı xanım,
Yox, yox, yalvarışı saxla sən allah.
Bu yazıq baxışı saxla sən allah.
Di yaxşı, bu dili, bu fəndi saxla,
Dilinin altında o qəndi saxla.
Gücün var - keçəni qaytar, soraqla,
Qış olub üstümə niyə gəlmisən?..

Nə dedin?.. Ah, bu nə yanıqlı sözdü!
Bir dayan, gözündə bu nə torandı...
Ah, mənim ürəyim nə ikiüzlü,
Vüqarımı necə yerə vurandı! -
Bacara bilmədim, özümlə, heyf!
Qış olub üstümə niyə gəlmisən...

## BİR GÜNAH SƏNİN, BİR GÜNAH MƏNİM

Bir gözün mən əydim, bir gözünü sən,
Niyə narazıyıq bu tərəzidən?..
Sən çeşmə qurudan, mən ağac kəsən
Bir günah sənindir, bir günah mənim.

Bu südə su qatıb hərə bir qaşıq,
Arını şəkərə dadandırmışıq.
Bazarın yağı şor, balı qarışıq
O mətah sənindir, bu mətah mənim.

Söz sözə gələndə sən nəfsi qıran,
Mən dünya malına göz yumub duran.
Amma ayrılıqda daşı da yaran,
Bir tamah sənindir, bir tamah mənim.

Görürük bu silah vurmur hədəfə,
Vurmur, ha atırıq mininci dəfə.
Əlimiz dolaşıb düşüb kələfə,
Bu əl gah sənindir, bu əl gah mənim.

Qoyma yalanımız qalxsın ayağa,
Hay deyirik, haya gəlmirik, qağa.
Sözü güləşdirib, əhdi danmağa,
Bir vallah sənindir, bir vallah mənim.

Yamanca ustayıq hər ehtiyatda,
Dostluq şirnisi də dilimiz altda.
Amma yaman günə əlimiz altda
Bir silah sənindir, bir silah mənim.

Ömür təsəllidi, ümid sabahdı,
İndi öz xeyrinə çoxu agahdı.
Hərə dolanışa bir cür nigahdı,
Bir nigah sənindir, bir nigah mənim.

Orda bulanıq su hopur torpağa,
Burda üzə çıxıb dönür bulağa.
Hələ ki, vaxtımız var durulmağa,
Bir sabah sənindir, bir sabah mənim.

## ARXAYIN OLSAM

Bu şeytan fikirlər çıxar başımdan
Könlüm bu əzabı çəksin nə qədər.
Özüm qurtararam öz savaşımdan
Vallah daş üstündə çiçəyim bitər
Könlüm sən tərəfdən arxayın olsa.

Görüm öz rəngində otu, yarpağı,
Mənə öz donunda görünsün həyat
Beləcə başımı salıb aşağı
İşimi, gücümü görərəm rahat
Könlüm sən tərəfdən arxayın olsa.

Qəlbimdən keçəni ürəyin duya,
Baxışla gözümə söykənə gözün.
Heç qulaq asmaram dedi-qoduya
Getmərəm dalınca hər xırda sözün
Könlüm sən tərəfdən arxayın olsa.

Artar sabahların təmizliyi də,
Oyaq gözlərimdə darılmaz gecə.
Basaram bağrıma sənsizliyi də
Ən uzun həsrəti almaram vecə
Könlüm sən tərəfdən arxayın olsa.

Diksinib də hər cür səsə çıxmaram,
Lap min aravuran, min xain olsa
Birinin üzünə dönüb baxmaram
Könlüm sən tərəfdən arxayın olsa.

Mənim sözüm olar sənin qərarın,
Yaddan söz ummaram, özgədən kərəm.
Daş salıb başına bu intizarın
Mən də bu dünyada bir gün görərəm
Könlüm sən tərəfdən arxayın olsa.

## SAXLAYANIM VAR

Könlümü ilhamda, qəddimi şuxda,
Gözümü işıqda saxlayanım var
Tale nə sir-sifət verib, sağ olsun.
Məni yaraşıqda saxlayanım var.

Ömrümüz həyəcan, təlaş içində,
Könlüm bir şüşədir bu daş içində.
Belə vurhavurda, savaş içində.
Məni barışıqda saxlayanım var.

Dostlar nə o gücdə, nə o dözümdə
Üzlər gördüm əlim qaldı üzümdə.
Adımı özümdə, haqqı sözümdə
Belə qarışıqda saxlayanım var.

Adam var əriyir ağlaya bilmir,
Doğmasına da bel bağlaya bilmir.
Çoxu sarayda can saxlaya bilmir,
Məni alaçıqda saxlayanım var.

## ELƏMƏDİKLƏRİM YANDIRAR MƏNİ

Əvvəl budaq-budaq suda uyuyan,
Sonra çarxı dönüb,arxı quruyan
Bir yağışa həsrət söyüdlər kimi
Eləmədiklərim yandırar məni...
Özümə verdiyim öyüdlər kimi
Eləmədiklərim yandırar məni...

Mən elə bilirdim o bənövşəlik,
Mənimçün qalacaq tər həmişəlik.
Özü solub getdi, qıymadım üzəm,
Doyunca baxmadım bənövşə gözə,
Yazı nəmiş, yayı tez xəzəlləşən,
Pətəkdə qaynaşan,
Şanla əlləşən,
Qışda balsız qalan arılar kimi
Eləmədiklərim yandırar məni...
Özümə verdiyim öyüdlər kimi
Eləmədiklərim yandırar məni...

Mən elə bilirdim vaxt da duracaq,
Elə o əvvəlki baxt da duracaq.
Gedib səadətlər rastina çıxan
Sevgi cığırıyla keçmək olacaq.
Hər vaxt bu zəmini biçmək olacaq...
Bərədə boş yerə anları sayıb,
Ovunu hürküdən ovçular kmi,
Eləmədiklərim yandırar məni...
Yaylaqda çeşməyə məhəl qoymayıb,
Səhrada alışan yolçular kimi
Eləmədiklərim yandırar məni...

Bilmirəm kim idi üzdü barımı,
Uçurtdu əlimdən bir şikarımı,
Sonraya saxladım çox qərarımı,
Eləmədiklərim yandırar məni...

Yox,daha ömrümdə açılmaz o yaz,
Bir qanadım yorğun,birisi pərvaz.
Elədiklərimdən yaxam qurtarmaz,
Eləmədiklərim yandırar məni...

# İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

№ 1 (2473) 9 yanvar 2026-cı il

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi



# İlham Əliyev: "Ağdam dünyanın ən gözəl şəhərlərindən biri olacaq"



**Azərbaycan Respublikasının prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Şanlı Ordumuzun 44 günlük ”Zəfər Qələbəsindən” sonra işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur torpaqlarında geniş quruculuq və bərpa işlərinə start verildi. Ötən beş il ərzində Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair Dövlət Praoramına uyğun olaraq, işğaldan azad olunmuş torpaqlarda artıq sürətli quruculuq və bərpa işləri aparılır.**

30 ilə yaxın Respublikamızın müxtəlif yerlərində müvəqqəti məskunlaşmış on minlərlə məcburi köçkün, artıq yeni tikimiş və bərpa edilmiş doğma yurdlarına, ev-eşiyinə qayıdıb. Bu illər ərzində Qarabağa səfər edən və müxtəlif beynəlxalq tədbirlərdə iştirak edən minlərlə xarici qonaqlar, işğal vaxtı faktiki olaraq dağıdılmış, infrastrukturları məhv edilmiş regionda quruculuq-bərpa işlərinin xaricdən kömək olmadan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iradəsi və xüsusilə də, ölkənin öz resursları ilə, bütün bunların az müddət ərzində həyata keçirilməsini heyranlıqla qarşılayıblar. İşğaldan azad olunmuş Ağdam şəhərində, layihə üzrə iri sənaye kompleksində də geniş quruculuq işləri aparılır. Ağdam Sənaye parkı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 may 2021-ci il sərəncamı ilə yaradılmışdır. İşğaldan azad edilmiş ərazilərdə sənaye parkının inkişaf etdirilməsinə ölkəmizin iş adamları böyük maraq göstərir. İlkin olaraq, sintetik xalça, işğaldan azad olunmuş ərazilərdə tikinti-bərpa işlərinin görülməsi üçün dəmir-beton məmulatları, kanalizasiya borularının, səki və divar daşlarının, yaşayış binalarının izolyasiyalı panelləri və s. istehsalını nəzərdə tutan müəssisələr, istehsal etdikləri məhsulları həm ölkə, həm də xarici bazarlarda sata biləcəklər. ”Ağ tekstil” müəssisəsi Uniforma, və fərdi geyimlərin istehsalı ilə məşğul olacaq, ”Ram Beynəlxalq Nəqliyyat və Ticarət MMC isə ”Polimer məhsullar” istehasal edəcək. Bu isə, doğma yurdlarına geri dönən minlərlə vətəndaşımız üçün iş yerlərinin açılması deməkdir. Artıq bir neçə sənaye mərkəzi hazır vəziyyətdə işə başlayıb. Bundan başqa, bir neçə otel və yaraşıqlı Muğam Mərkəzi istifadəyə verilib. Qədim tarixə, çoxsaylı memarlıq və incəsənət abidələrinə malik Ağdam rayonu 1993-cü ildə Ermənistan tərəfindən işğal olunduqdan sonra tamamilə dağıdılmış, düşmənlər üçün strateji əhəmiyyət daşıdığına görə, ərazisi demək olar ki, tamamilə minalanmışdı. Zəfər Qələbəsindən sonra ərazidə minatəmizləmə işləriylə yanaşı quruculuq bərpa işləri də aparılır. Artıq rayonun Xıdırlı, Kəngərli, Sarcalı kəndlərində müasir tələblərə cavab verən yeni evlər, məktəb və bağçalar tikilmiş, infrastruktur, kommunikasiya işləri tamamlanmış, sakinlərin istirahət etməsi üçün parklar salınmış, yüzlərlə məcburi köçkün doğma yurdlarına qayıtmışlar. Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq, artıq yeni dəmir yol və avtovağzal kompleksi tikilib istifadəyə verilib. Ağdam şəhərində təsdiq olunmuş layihə üzrə indiyədək tikilən kompleksdə 11 məhəllədə 60 bina tikilib. Bu binalarda ümumilikdə 1268 mənzil artıq istifadəyə hazırdır. Dekabr ayının 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci vitse-prezident Mehriban xanım Əliyeva yaşayış üçün hazır olan 2-ci kompleksin açılışında iştirak ediblər və on illər ərzində məcburi köçkün həyatı yaşamış ilk sakinlərə yeni mənzillərinin açarlarını təqdim ediblər. 426 nəfərdən ibarət 104 ailə həsrətində olduğu doğma yurda qayıdışın sevincini yaşayıb. Ağdam şəhərinə köçən ilk sakinləri salamlayan Prezident İlham Əliyev bu gün tarixin əlamətdar bir günü olduğunu bildirərək, ağdamlıların uzun fasilədən sonra burada əmin-amanlıqla, rahat yaşayacaqlarına əmin olduğunu bildirdi: ”Əminəm ki, bütün xalqımız, o cümlədən keçmiş məcburi köçkünlər bilirdilər və inanırdılar ki, tarixi ədalət bərpa ediləcək”.

Prezident İlham Əliyev daha sonra bildirdi ki, Ermənistan işğal etdiyi torpaqlarımızın bir santimetrini də geri qaytarmaq fikrində deyildi. Xalqımız qan tökərək öz ərazi bütövlüyünü bərpa etdi. Xalq bir yumruq kimi birləşdi, Silahlı Qüvvələrimiz torpaqlarımızı düşmən qüvvələrindən təmizləmək üçün qəhrəmanlıq, fədakarlıq göstərdi. ”Allah şəhidlərimizə rəhmət eləsin. 44 gün ərzində Ermənistanı böyrü üstə qoyduq”. Azərbaycan Respublikasının Prezidenti bildirdi ki, ötən illər ərzində düşmənlərimiz dostlarımızdan çox olub. ”Amma bu gün bizim güclü iradəmiz, siyasi addımlarımız, Silahlı Qüvvələrimizin güclü olması artıq yeni mənzərəni ortaya qoyur”.

Prezident İlham Əliyev hazırda aparılan sülh prosesləri ilə bağlı qeyd etdi ki, ”İndi Ermənistanla Azərbaycan arasında sülh prosesi gedir və bu sülh prosesinin də təşəbbüskarı biz olmuşuq... Müqavilənin, mətnin müəllifi də bizik”.

Aparılan sülh prosseslərinə baxmayaraq, Cənab İlham Əliyev xalqımızın torpaqlarımızın işğalını, Xocalı faciəsini, şəhidlərimizi heç vaxt unutmayacağını və bunun hər zaman yaddaşımıza həkk olunacağını xüsusi vurğuladı. Həqiqətən də, xalqımız Prezidentimizin istər məcburi köçkünlərlə görüşlərində, istərsə də ən yüksək beynəlxalq tribunalardan, etdiyi çıxışlarında əminliklə ”biz işğal olunmuş torpaqlarımızı mütləq azad edəcəyik” sözlərinə inanırdı. Xalqımız bu gün qürur hissi ilə Ali Baş Komandanımız İlham Əliyevin verdiyi sözün yerinə yetirildiyinin sevincini yaşayırlar...

**Qeyd edək ki, Qarabağa və Şərqi Zəngəzura ”Böyük Qayıdış” prosesinin həyata keçirilməsi ölkə başçımız cənab İlham Əliyevin xüsusi nəzarəti altında həyata keçirilir. Demək olar ki, hər ay cənab prezident regionda görülən işlərlə tanış olmaq üçün bu ərazilərə səfər edir və işlərin daha da sürətləndirilməsi üçün müvafiq tapşırıqlarını verir. Keçmiş məcburi köçkünlərin Ağdama qayıdış prosesi yanvar-fevral aylarında da davam etdiriləcək. Daha 1164 ailə (4772 nəfər) arzularına qovuşacaq.**

**Rüstəm Hacıyev**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



*Əntiqə Kərimzadə*

## Mirzəağa Əliyevin teatrdan uzaqlaşdırdığı gənc aktyor

**İncəsənətdə çətin bir yol keçən bütün sənətkarlar kimi onun da yolları enişli- yoxuşlu oldu. O bu yolda heç də maneəsiz addımlamadı. Əməkdar artist, mərhum Firudin Mehdiyev 1927-ci il dekabrın 31-də də Quba qəzasının Xızı kəndində doğulub. O, həm istedadlı aktyor, həm də füsünkar səsə malik ifaçı idi. Fərqli ifa tərzi var idi. Uşaqlıq illəri İkinci dünya müharibəsinə təsadüf etsə də, kiçik Firudin bu çətinliyə sinə gərirdi. Əlbəttə, müharibə adlı kabus insanların taleyində sağalmaz izlər buraxırdı. Ancaq bütün bu çətinliklərə baxmayraq, onun qəlbindəki sənət eşqi sönmürdü. Firudin Mehdiyev hər gün daha çox səhnəni sevməyə başlayırdı.**

**Müsahibələrinin birində bu sənətə necə çətinliklə gəldiyini açıq-aşkar söyləyirdi:**

**"Rol aldığım tamaşaya baxış keçirildi. Mən Qədir xanı oynayırdım. Baxışdan sonra belə qərara gəldilər ki, məni, rəhmətlik Lütfi Məmmədbəyovu və bir neçə yeniyetməni teatr texnikumuna götürsünlər. O vaxtlar texnikuma 14-15 yaşlı uşaqları qəbul edirdilər. Çünki gənclər cəbhədə vuruşurdu. Orada bizə Kazım Ziya, Fatma Qədri, Ağəli Dadaşov, Rza Təhmasib kimi məşhur müəllimlər dərs deyirdilər. Sonralar, təxminən 1946-cı ildə Teatr İnstitutuna qəbul olundum. Həmin dövrdə Məlik Dadaşov və Salman Dadaşov da orada işləyirdilər."**

**Artıq Firudin Mehdiyev sənətin məsuliyyətini hiss edirdi. O, təhsil almaqla yanaşı tamaşalarda da iştirak edirdi. Səhnədən tamaşaçı alqışı eşitmək onun sənətə həvəsini daha da artırdı. Bütün bunlar sənətin günəş saçan tərəfi idi. Gənc aktyor hələ bu yollarda borana, çiskinə düşməmişdi.**

**İnstitutda iki il oxuyandan sonra böyük sənətkarımız Adil İsgəndərov onu Dövlət Dram Teatrına dəvət edir. Ona "Qadam, sən yaxşı xarakter yaradırsan", - deyirdi. O, həm də aktyorluqdan əlavə yaxşı təqlid etməyi bacarırdı. Cəfər Cabbarlının "Almaz" pyesində Hacı Əhmədi oynayanda Mirzəağa Əliyevin səsi ilə çıxış edir.. Bir gün Mirzəağa müəllimi tamaşaya baxmağa çağırırlar. İstedadlı gənci səhnədə görən Mirzəağa Əliyev deyir ki, bunu kim gətirib bura, boy yox, istedadı yox, qoy çıxıb getsin. M.Əliyev onu təqlid edən gənci bəyənmir.**

**Beləlikə Mirzəağa Əliyev onu teatrdan uzaqlaşdırmağı bacarır. Firudin Mehdiyevi teatrdan çıxardırlar.**

**Teatrdan kənarlaşdırılan gənc aktyor işsiz qalmır. O, Opera və Balet Teatrında çalışmağa başlayır. Bu möhtəşəm teatrda ilk çıxışı 1956-cı ildə olub. Orada bütün əsas rolları oynayır. "Aygün", "Vaqif, "Ölülər", "Hacı Qara" əsərlərinin librettosunu yazır...**

**Firudin Mehdiyevin 50-60-cı illərdə Opera və Balet Teatrının səhnəsində yaratdığı obrazlar yaşlı nəslin yaddaşında özünə yer tapıb. Gözəl musiqi duyumu, aktyorluq qabiliyyəti, xarakter yaratmaq bacarığı sənətçinin uğurlarının əsas qayəsi idi. Amma Firudin Mehdiyev çoxtərəfli yaradıcılıq qabiliyyətinə malik olduğundan dar çərçivəyə qapanıb qalmırdı. Daim yaradıcılıq axtraışında idi. O, Asəf Zeynallı adına Musiqi Məktəbini bitirmişdi. Vokalı çox yaxşı bildiyinə görə, bir müddət orada müəllim də işlədi. O, burada Bülbüldən dərs almışdı. Sinə əzələlərini ilə mahnı ifa etməyi də müəllimindən öyrənmişdi. İndi efirləri bəzəyən bir çox sənətkarlar- Nurlan Əzizbəyli, Teymur Əmrah, Vasif Məhərrəmli v.s məhz Firudin Mehdiyevdən dərs almış ifaçılardır.**

**Bir neçə filmdə rol alsa da, tamaşaçıların yaddaşında "Böyük dayağ"ın "Salman"ı kimi qalan əməkdar artist Firudin Mehdiyev 2006-cı ildə vəfat edir.**

## Zeynəb Həsəni: "O mahnıya görə çox utandım"

**Bir çox xanım həmkarları ilə duet oxumaqdan imtina edən, onlarla dostluq etməyən müğənni Zeynəb Həsəni etirafları ilə diqqət çəkib.**

Adalet.az xəbər verir ki, müğənni oxuduğu bəzi mahnılara görə özünü qınayıb:

"Bəzən səhvlər edirəm. Düşünürəm ki, bu da normaldır. İnsanıq, hamımızın həyatında səhvlərimiz olur. Oxuduğum bəzi mahnıları sildirmişəm. Həmin mahnıları dinləyəndən sonra özümü qınamışam ki, mənə ayıb olsun ki, belə mahnılar oxumuşam. Ona sərf etdiyim vaxt, çəkdiyim xərc mənim üçün maraqlı olmur. O mahnıya görə çox utandım".

**Əntiqə**

# Türkiyənin turizmdə yeni uğuru: 4 tarixi kənd...

**2025-ci il Türkiyə turizmində uğurlu illərdən biri hesab olunur. Ötən il ölkəyə yenidən rekord sayda turist gəlib və Türkiyə dünyanın ən çox turist qəbul edən ölkələri sırasında yer alıb.**

Adalet.az-ın məlumatına görə, 2025-ci ildə həmçinin Türkiyənin dörd kəndi Birləşmiş Millətlər Təşkilatının Turizm Təşkilatının (UN Tourism) "Ən Yaxşı Turizm Kəndləri" siyahısına daxil edilib. Bu kəndlər siyahıya ilin son günlərində daxil edilib.

Siyahıya daxil olan kəndlər bunlardır: Muğlanın Ula rayonundakı Akyaka, Mardinin Midyat bölgəsindəki Anıtlı, İzmirin Urla rayonundakı Barbaros və Antalyanın Demre rayonuna bağlı Üçağız (Kale) kəndi.

UN Tourism-in "Ən Yaxşı Turizm Kəndləri" təşəbbüsünün beşinci nəşrində Afrika, Amerika, Asiya, Avropa və Yaxın Şərqdən 29 ölkənin 52 kəndi mükafatlandırılıb. 270-dən çox müraciət arasından seçilən kəndlər mədəni irsin qorunması, təbii sərvətlərin davamlı istifadəsi və turizmin yerli inkişafa verdiyi töhfə kimi meyarlar əsasında qiymətləndirilib. Siyahının açıqlanma mərasimi Çinin Huzhou şəhərində keçirilib.

Türkiyənin müxtəlif bölgələrindən seçilən bu kəndlər ölkənin mədəni müxtəlifliyini və davamlı turizm strategiyasını beynəlxalq səviyyədə nümayiş etdirir. Akyaka, Barbaros, Anıtlı və Üçağız kəndləri təbii gözəllikləri, zəngin mədəni irsi və ekoloji turizm yanaşması ilə seçilərək "Dünyanın ən yaxşı turizm kəndləri" sırasında yer alıblar. Yeni siyahı ilə "Ən Yaxşı Turizm Kəndləri Şəbəkəsi"nə daxil olan yaşayış məntəqələrinin sayı 319-a çatıb. Şəbəkənin əsas məqsədi kənd yerləri arasında təcrübə mübadiləsini təşviq etmək, uğurlu təcrübələri paylaşmaq və davamlı inkişaf sahəsində əməkdaşlığı gücləndirməkdir.

### *Akyaka (Muğla, Ula)*

Muğla vilayətinin Ula rayonunda yerləşən Akyaka kəndi son illər ölkənin ən məşhur turizm məkanlarından birinə çevrilib. Egey dənizi sahilində, Gökova körfəzində yerləşən kənd təbii gözəllikləri, sakit mühiti və ekoturizm yönümlü yanaşması ilə seçilir.

Akyaka özünəməxsus memarlıq üslubu, taxta evləri və ənənəvi Egey mədəniyyətini qoruyub saxlaması ilə tanınır.

Azmak çayı, təmiz suları və zəngin flora-faunası bölgənin əsas turist cazibələrindən biridir. Burada qayıq turları, kanoe və digər su idman növləri xüsusilə populyardır.

Kənd həmçinin dayanıqlı turizm modeli ilə diqqət çəkir. Təbiətin qorunması, yerli icmanın turizmdə fəal iştirakı və kütləvi tikintidən uzaq siyasət Akyakanın əsas üstünlükləridir. Bu xüsusiyyətlər Akyakayı UN Tourism-in "Ən Yaxşı Turizm Kəndləri" siyahısına daxil etməyə səbəb olub.



### *Anıtlı (Mardin, Midyat)*

Anıtlı kəndi (tarixi adı Hah) Mardin vilayətinin Midyat rayonunda yerləşir və yerli, həmçinin xarici turistlərin maraq göstərdiyi məkandır. Minillik tarixi, daş memarlığı və dini abidələri ilə kənd Mezopotamiya mədəni irsinin canlı nümunəsi sayılır.

Kəndin ən məşhur tarixi abidəsi Mor Sobo (Mor Şubhal) kilsəsidir. Təxminən 1600 illik tarixi olan bu kilsə Süryani xristianları üçün vacib dini mərkəz hesab olunur. Tarixi daş evlər və dar küçələr Anıtlıya gələn turistlərə keçmiş dövrlərin ab-havasını hiss etdirir.

Anıtlı həm mədəni irsin qorunduğu, həm də turizm potensialı artan nadir yaşayış məntəqələrindən biridir.

### *Barbaros (İzmir, Urla)*

İzmirin Urla rayonunda yerləşən Barbaros kəndi tarixi keçmişi və mədəni zənginliyi ilə diqqət çəkir. Kənd, ənənəvi Egey memarlığı ilə seçilir və dar küçələri ilə turistləri cəlb edir.

Barbaros xüsusilə "Oyuk (Qorxuluk) Festivalı" ilə tanınır. Hər il keçirilən festival çərçivəsində kənd sakinləri və sənətçilər tərəfindən yaradılan qorxuluk fiqurları sərgilənir və minlərlə turisti cəlb edir.

Kənd həmçinin incəsənət və mədəniyyət mərkəzi kimi fəaliyyət göstərir, burada müxtəlif sərgilər və sənət emalatxanaları təşkil olunur.

### *Üçağız (Kale, Antalya, Demre)*

Antalyanın Demre rayonunda yerləşən Üçağız kəndi tarixi və təbii gözəllikləri ilə tanınır. Kəndin yerləşdiyi ərazi qədim Likya limanı üzərindədir və burada Likya qaya qəbirları, antik liman qalıqları və tarixi daş binalar turistlərin diqqətini çəkir.

Üçağız həm dəniz, həm də tarix turizmi baxımından cəlbedici məkandır. Kiçik liman vasitəsilə gəmilər ətrafdakı gözəl koylara turlar təşkil edir. Sakin və tarixi ab-havasını qoruyan kənd, fotoqraflar və tarix həvəskarları üçün ideal məkan hesab olunur.

**Yerli əhali turizmin kəndin iqtisadiyyatına verdiyi töhfəni vurğulayır və qədim ənənələrin qorunmasına diqqət yetirir. Üçağız (Kale) kəndi Antalya bölgəsinin tarixi və təbii zənginliklərini bir arada təqdim edən nadir turizm məkanlarından biridir.**

**Sübhan**

## *Rahidə Baxışova: "Qadın qadını anlamaq istəmir, nəinki kişi..."*



**Uzun zamandır efirlərdə görünməyən Rahidə Baxışova açıqlaması ilə diqqət çəkib. Onun " Mən elə bilirdim qadın sevəndə gözəlləşir. Amma qadın sevəndə əziyyət çəkir" fikri müzakirələrə səbəb olub.**

Adalet.az-a açıqlama verən R. Baxışıva bildirib ki, onun fikri ilə razılaşmayanlar sevgisizlikdən əziyyət çəkən insanlardır:

"İnsanlar niyə sözümü pis anlayırlar axı? Bu doğrudan da belədir. Qadınların bir çox qarşılıqsız sevirlər. Sevgini cavabı olmayanda məgər insan əziyyət çəkmir? Qadın olmaq çox çətindir. Səni nəinki kişilər, heç həmcinslərin də anlamaq istəmirlər. İnsan yalnız qarşılıqlı sevəndə zövq alır. Heç bir qadın xəyanətdən və qarşılıqsız sevgidən zövq almır. Ən gözəl sevgi özünü sevməkdir.

Bunu həmişə demişəm. İnsan özünü sevəndə elə özünü də hər bir pislikdən və ya mənfi xarakterli insandan qoruya bilir. Düşünürəm ki, kim mənim fikrimlə razılaşmırsa, ya həyatında hər şey çox eladır, ya da heç vaxt sevməyin" (gülür).

**Əntiqə**

**Biləsuvar rayonu, Zəhmətabad kənd sakini Qasımova Leyla Səlif qızına aid "B166587" nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə 11.12.2025-ci il tarixdə Biləsuvar rayonu ərazisində itmişdir.**

***

**Sabirabad rayonu Quruzma kənd sakini Babayev Ərəstun Müslüm oğlunun adına verilmiş Sabirabad ş. Heydər Əliyev pr. 122A yerləşən (inv nömrəsi 909-1/5901, reyestr nömrəsi 909011000746-06301)qeyri yaşayış binasının texniki pasportu itdiyi üçün etibarsız sayılır.**

Aqil Abbas millət vəkili **Bəxtiyar Əliyevə** qardaşı

**Qabil ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əbülfət Mədətoğlu millət vəkili **Bəxtiyar Əliyevə** qardaşı

**Qabil ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**Təsisçi və baş məsləhətçi:** Aqil ABBAS
**Baş redaktor:** İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 261
Çapa imzalanmışdır: 08.01.2026